RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 259 (10004) 9 dekabr 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# “Sizi burada qəbul etmək bizim üçün və bütün slovak xalqı üçün böyük şərəfdir”



## Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Slovakiyaya tarixdə ilk dəfə rəsmi səfər edib

Dekabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Slovakiya Respublikasına rəsmi səfərə gedib. Səfər çərçivəsində Slovakiyanın paytaxtı Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə təkbətək, geniş tərkibdə görüşləri keçirilib.

Həmin gün İlham Əliyev və Peter Pelleqrini mətbuata bəyanatlarla çıxış ediblər.

Hər iki ölkənin Prezidenti əvvəlcə Bratislavada "Azadlıq Qapısı" abidəsini ziyarət edib, Devin qəsrində olublar.

2-3

## Donald Tramp İlham Əliyevə bir daha minnətdarlığını bildirib

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli cənab Prezident!

Nobel Sülh Mükafatına namizədliyimi irəli sürmək üçün Sizin və Baş nazir Paşinyanın birgə məktubunuza görə təşəkkür edirəm. Bizi vacib missiyamızı davam etdirməyə ruhlandıran bu yüksək qiymətə görə dərin minnətdarlığımı bildirirəm.

Amerika Birləşmiş Ştatlarının Prezidenti olaraq, dünyada münaqişələrə son qoymağa, bütün insanlar üçün sülh və rifahın təmin edilməsinə sadiq qalıram. Sizin davamlı tərəfdaşlığınızla qeyri-mümkün nə varsa, ona nail olacağıq.

Davamlı dəstəyinizə görə Sizə bir daha təşəkkür edirəm.

*Hörmətlə,*

***Donald TRAMP,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

## Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında siyasi münasibətlər yüksək səviyyədədir

### Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin bir sıra şirkətlərinin rəhbərlərini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "2PointZero" şirkətinin sədri Şeyx Zayed bin Hamdan bin Zayed Əl Nəhyanı, "International Holding Company"nin baş icraçı və idarəedici direktoru Seyid Basar Şuebi, həmçinin "International Resources Holding" şirkətinin baş icraçı direktoru Əli Alraşdini qəbul edib.

4

## Qırğızıstan Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq formatına qoşulmasına dəstək verən ilk dövlətlərdən biridir

### Prezident İlham Əliyev Qırğızıstan nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Qırğız Respublikasının Nazirlər Kabineti sədrinin müavini Bakıt Torobayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

4

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Slovakiyaya rəsmi səfəri

# “Sizi burada qəbul etmək bizim üçün və

## Milan Ştefanik adına Beynəlxalq Aeroportda qarşılanma

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Slovakiya Respublikasına rəsmi səfərə gəlib.**




AZƏRTAC xəbər verir ki, Bratislava şəhərinin Milan Ştefanik adına Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Slovakiya Respublikası Prezidenti Aparatının rəhbəri Peter Vodraşka və digər rəsmi şəxslər qarşıladılar.

## Prezident İlham Əliyevin Bratislavada rəsmi qarşılanma mərasimi olub




**Dekabrın 8-də Slovakiyanın paytaxtı Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.**





AZƏRTAC xəbər verir ki, Prezident Sarayında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və Slovakiyanın Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycanın nümayəndə heyətinin üzvləri Prezident Peter Pelleqriniyə, Slovakiyanın nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim edildilər.

Dövlət başçıları birgə foto çəkdirdilər.

Prezident İlham Əliyev xatirə kitabını imzaladı.

## Azərbaycan Prezidenti İlham Əliyevin Slovakiya Prezidenti ilə təkbətək görüşü



Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə təkbətək görüşü olub.

## Azərbaycan və Slovakiya prezidentlərinin geniş tərkibdə görüşü

**Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə geniş tərkibdə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Slovakiya Prezidenti **Peter PELLEQRİNİ** dedi:

- Hörmətli cənab Prezident və Azərbaycanın nümayəndə heyəti.

Sizi Slovakiyada, Bratislavada qəbul etmək böyük şərəfdir. Slovakiyaya səfər etmək qərarınız bizi çox şərəfləndirdi. Bu, Slovakiya Respublikasının tarixində Azərbaycan Prezidentinin ilk rəsmi səfəridir. Hətta 20 il əvvəl Slovakiyaya səfər etməyinizə baxmayaraq, o, rəsmi səfər deyildi. Ola bilsin, o, konfrans və ya digər tədbir ilə bağlı idi. Mən çox minnətdaram ki, Siz hökumət üzvlərindən ibarət bu cür genіştərkibli nümayəndə heyəti ilə gəlmisiniz. Çünki fikrimizcə, bu səfər güclü siqnal verməlidir: əlaqələrimiz, sadəcə, dostluq əlaqələri deyil, onların hələ də böyük inkişaf potensialı var. Biz çox sahələri nəzərdən keçirəcəyik. Təkbətək görüşdə çox səmimi müzakirəyə görə minnətdaram və bunu həqiqətən yüksək dəyərləndirirəm. Ümidvaram ki, ikitərəfli nahar və Bratislava Qəsrində dövlət ziyafəti zamanı bizim gündəliyə baxmaq üçün xeyli imkanımız olacaq.

Bir daha qeyd edim ki, Siz dostlarınızın yanına gəlmisiniz. Biz Sizi, ölkənizi özümüzə dost hesab edirik, çünki Sizinlə dəfələrlə görüşmək imkanımız olub. Çox məmnunam ki, baş nazir qismində səfərim zamanı Sizinlə görüşdüyüm vaxtda biz münasibətlərimizi gücləndirmək qərarına gəldik. Belə fikrə gəldik ki, Bakıda səfirliyimizi açsaq əla olar. Hökumət olaraq, biz həmin qərarı qəbul etdik. Siz də eyni qərar qəbul etdiniz. Çox şadam ki, hazırda masa arxasında səfirlər də əyləşib - biri Bratisladan, digəri Bakıdan. Düşünürəm ki, bu addım çox faydalı oldu. Biz həmçinin ölkələrimiz arasında Komissiyanı yaratmaq qərarına gəldik. Sonuncu iclas 2024-cü ildə keçirilib. Növbəti iclas 2026-cı ildə nəzərdə tutulur. Bir sözlə, işlər gedir.

Əlbəttə, mən hökumət üzvlərinin çoxsaylı səfərlərini də qeyd etməliyəm. Təkcə Prezident və baş nazirlərin səfərləri deyil, digər səfərlər də olub. Çox məmnunam ki, müdafiə naziri mənə səfərinin uğurla keçdiyini bildirdi. O həmçinin parada dəvət olundu. Mühüm milli gün qeyd edildi. O, mənə söylədi ki, onun sahəsi ilə bağlı əla görüşləri baş tutdu, çünki onun özü çox fəal nazirdir. Potensial böyükdür.

İqtisadiyyat naziri də buradadır. Bu, bizim üçün indiki anda çox vacib mövzudur, çünki enerji təchizatına gəldikdə, Slovakiya hazırda olduqca ağır vəziyyətə düşüb. Görürük ki, uzun perspektivdə Azərbaycan həll variantının bir hissəsi ola bilər. Avropa İttifaqı Rusiya qazının Slovakiyaya idxalını tam qadağan etmək qərarına gəlib. Onlar bu qərarı 27 üzv adından qəbul ediblər. Müddət çox qısadır. Şirkətlərimizin rəhbərləri də buradadır. Çox şadam ki, Siz SOCAR-ın prezidentini də nümayəndə heyətinə daxil etmisiniz. Çox konkret söhbət apara bilərik. Azərbaycan enerji təchizatının şaxələndirilməsində rol oynaya bilər, çünki cənab Prezident, hazırda biz boru kəmərinin sonundayıq. Əslində, Qərbi Avropa istiqamətində biz hər zaman əvvəldə olmuşuq. İndi isə boru kəmərinin sonundayıq. Təsəvvür edə bilərsiniz, bu, nəyin bahasına başa gəlir. Bir daha, cənab Prezident, xoş gəlmisiniz. Sizi burada qəbul etmək bizim üçün və bütün slovak xalqı üçün böyük şərəfdir.

* * *

Sonra Azərbaycan Prezidenti **İlham ƏLİYEV** çıxış edərək dedi:

- Təşəkkür edirəm. Xoş sözlərə görə çox sağ olun, cənab Prezident. Dəvətə və qonaqpərvərliyə görə minnətdaram. Çox şadam ki, biz Bratislavada görüşürük. İlk öncə Bakıdakı görüşümüz xatirimdədir. COP29 konfransında iştirak etdiyinizə görə Sizə bir daha öz təşəkkürümü bildirirəm. Sizinlə xeyli söhbət etmək imkanımız oldu. Siz baş nazir kimi səfərinizi və səfirliyin açılmasını xatırlatdınız. Əslində, biz ikimiz Slovakiya ilə Azərbaycan arasında münasibətlərin fəal fazasını başlatdıq. Əlaqələr bu gün artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ötən il biz əlaqələrimizi ən yüksək səviyyəyə qaldırmış Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni imzaladıq. Həmçinin biz baş nazirin müavini və müdafiə naziri cənab Kalinyakın ötən ay hərbi paradımızda iştirak etdiyinə görə çox minnətdarıq. Biz bunu aramızda güclü dostluq əlaməti hesab edirik. Son illər ərzində münasibətlərimiz yüksək dərəcədə inkişaf edib və bir çox sahələri əhatə edir.

Siz energetikanı qeyd etdiniz. Ötən il biz Slovakiyaya qaz təchizatına başladıq. İstənilən lazımi vaxtda davam etdirməyə hazırıq. Müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlığımızın gələcəkdə böyük potensialı var. Artıq vacib işlər görülüb, amma daha çox işlər də görülməlidir. Qarabağın yenidən qurulmasında fəal iştirak edən slovak şirkətlərinə dəstəyinə görə minnətdarıq.

* * *

Slovakiya Prezidenti dövlətimizin başçısını Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş tarixi nailiyyət münasibətilə təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı dost ölkə kimi Slovakiya şirkətlərinin işğaldan azad edilmiş Ağdam rayonunun Baş Qərvənd kəndinin "ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulmasında iştirakı məmnunluqla qeyd olundu, Azərbaycanla Slovakiya arasında enerji, nəqliyyat, müdafiə sənayesi sahələrində uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Slovakiyanın ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin inkişafını dəstəklədiyi qeyd edildi.

Dövlətimizin başçısı Slovakiya Prezidentini Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

## Azərbaycan və Slovakiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini mətbuata bəyanatlarla çıxış ediblər.** AZƏRTAC **xəbər verir ki, əvvəlcə Slovakiya Prezidenti bəyanatla çıxış etdi.**

### Prezident Peter Pelleqrinінin bəyanatı



-Xanımlar və cənablar, mən çox şadam ki, bu gün Slovakiyada, Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi salamlayıram.

Cənab Prezident, mən şadam ki, Siz mənim dəvətimi qəbul etmisiniz. Bu, Azərbaycan Prezidentinin Slovakiyaya tarixdə ilk rəsmi səfəridir. Bu, bizim qarşılıqlı marağımızı ən yüksək səviyyədə təsdiq edir. Biz strateji tərəfdaşlıq qurmaq və onu inkişaf etdirmək niyyətindəyik. Biz cənab Prezidentlə geniş tərkibdə və təkbətək formatda geniş müzakirələr apardıq. Biz keçmişdə dəfələrlə görüşmüşük. Hər zaman olduğu kimi, görüşümüz səmimi və açıq şəkildə həyata keçirilmişdir. Çünki bizim ölkələrimiz dost ölkələrdir və bizim münasibətlərimiz hər zaman yaxşı səviyyədə olub.

Slovakiya Azərbaycanı yerləşdiyi regionda strateji əhəmiyyətə malik tərəfdaş hesab edir. Azərbaycan Cənubi Qafqazın ən böyük iqtisadiyyatıdır. O, Asiya və Avropa ilə kəsişmədə yerləşir və zəngin enerji resurslarına malikdir. Mən çox şadam ki, bizim ticarət dövriyyəmiz artmaqdadır. Burada ciddi artım var. Biz bu gün də qeyd etdik ki, burada hələ də istifadə edilməmiş potensial var.

Ötən il iki ölkə arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır və bu da bizim münasibətlərimizi daha yüksək səviyyəyə qaldırmışdır. Bizim qarşılıqlı maraq kəsb edən bütün sahələr üzrə əməkdaşlığımız yüksək səviyyəyə qaldırıla bilər. Biz gələcəkdə Slovakiya ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq edəcəyik - müdafiə sənayesi, müasir texnologiyalar, tələbə mübadiləsi, turizm, mədəniyyət və digər sahələrdə.

Mən slovak xalqı adından cənab Prezidenti və Azərbaycan Respublikasını təbrik etmək istərdim. Çünki uzun illərdən sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi paraflanmışdır. Bilirsiniz ki, bu müqavilə Ağ Evdə Prezident Donald Trampın iştirakı ilə imzalanmışdır. Azərbaycan bu gün sülh şəraitində yaşayır və onun vətəndaşları, cəmiyyət diqqəti ölkənin inkişaf etdirilməsinə yönəldib. Artıq diqqət postmüharibə dövrünə yönəldilib.

Azərbaycan Slovakiyada aparıcı rol oynaya bilər. Söhbət bizim enerji təchizatının şaxələndirilməsindən gedir. Biz, əlbəttə, bilməliyik ki, uzunmüddətli perspektivdə Azərbaycan bizim üçün strateji tərəfdaş ola bilər. Bizim heyətlər danışıqları davam etdirəcəklər ki, bu, Slovakiya üçün də məqbul bir anlaşma olsun və biz də Azərbaycanın resurslarından istifadə edə bilək.

Müdafiə sənayesi çox vacib sahədir. Biz bu sahəni artıq inkişaf etdiririk. Biz, sadəcə olaraq, Azərbaycana silah satmaq niyyətində deyilik. Bildiyiniz kimi, bu sahə Slovakiyada çox inkişaf edib. Biz özüyeriyən artilleriya qurğuları, sursat və digər məhsullar sahəsində də böyük təcrübəyə malikik. Biz Azərbaycanla texnologiya ötürülməsi, Azərbaycanın maliyyəsindən istifadə edilməsi və birgə istehsalın üzərində işləyə və birlikdə istehsal etdiyimiz məhsulları üçüncü ölkələrə sata bilərik.

Mən şadam ki, bizim baş nazirin müavini və müdafiə naziri cənab Kalinakın səfəri zamanı da Azərbaycan tərəfi avtomatik artilleriya sistemlərinin alışı ilə maraqlanıb və artıq niyyətini bildirib. Əminəm ki, bu silah növləri də Azərbaycan Silahlı Qüvvələrini gücləndirəcəkdir.

Birgə müəssisələr, birgə şirkətlər, texnologiya ötürülməsi, yəni biz bu sahədə daha da sıx çalışmaq əzmindəyik və əlbəttə ki, digər sahələr də ola bilər. Bildiyiniz kimi, slovak şirkəti Qarabağ bölgəsində "ağıllı kənd" inşa edir. Eyni zamanda bizim ixrac-idxal bankımız da müxtəlif layihələri maliyyələşdirməyə hazırdır.

*Ardı 3-cü səh.*

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Slovakiyaya rəsmi səfəri

# bütün slovak xalqı üçün böyük şərəfdir”

## Azərbaycan və Slovakiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər







*Əvvəli 2-ci səh.*

Sonda onu da qeyd etmək istərdim ki, Azərbaycan və Slovakiya dost ölkələrdir. Bizim aramızda daha sıx əlaqələr ola bilər. Şadam ki, Macarıstanın "Wizz Air" şirkəti fəal şəkildə bizim ölkələri birləşdirir, uçuşları artırır. Artıq Bratislava Hava Limanından da Bakıya birbaşa uçuşlar açıla bilər. Çünki bu, dinamik inkişaf edən iki regiondur və bu da bizim müzakirə mövzumuz olmuşdur.

Cənab Prezident, bir daha Sizi Bratislavada salamlayıram. Əminəm ki, Sizin rəsmi səfəriniz bizim əməkdaşlığımızda yeni, mühüm bir mərhələnin başlanğıcı olacaq. Mən çox şadam ki, biz tezliklə Sizinlə yenidən görüşəcəyik. Mənim dəvətimi qəbul etdiyinizə görə bir daha təşəkkür edirəm. Əlbəttə ki, biz Bakıda görüşmüşük, ancaq rəsmi olaraq Slovakiya Prezidenti Azərbaycanda səfərdə olmamışdır.

Bir daha cənab Prezident, xoş gəlmisiniz Slovakiyaya.

* * *

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident!

Əziz dostlar!

İlk növbədə, cənab Prezident, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Mənim Slovakiyaya rəsmi səfərim əminəm ki, iki ölkə arasındakı əlaqələrə çox müsbət təsir göstərəcəkdir.

Siz qeyd etdiyiniz kimi, bu, Azərbaycan Prezidentinin Slovakiyaya ilk rəsmi səfəridir. Əlbəttə ki, səfər zamanı həm təkbətək formatda, həm nümayəndə heyətlərinin iştirakı ilə apardığımız danışıqlar bir daha onu göstərir ki, Slovakiya və Azərbaycan, sözün əsl mənasında, dost ölkələrdir və strateji tərəfdaşlardır.

Qeyd etdiyiniz kimi, keçən il Slovakiya və Azərbaycan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalamışlar. Bu, əlaqələrimizi ən yüksək səviyyəyə qaldıran bir sənəddir və o sənədin imzalanmasından sonra biz bütün istiqamətlər üzrə çox fəal əməkdaşlığı görürük.

Siz artıq bizim ikitərəfli gündəliyimizlə bağlı geniş məlumat verdiniz. Sadəcə olaraq, əlavə etmək istərdim ki, qeyd etdiyiniz bütün istiqamətlər üzrə bizim müştərək komandalarımız fəal işləyir. Birgə iqtisadi işçi qrup öz fəaliyyətini genişləndirir. Ənənəvi əməkdaşlıq sahəsi olan energetika üzrə konkret layihələr icra edilir. Keçən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya təchiz edilmişdir və Slovakiyanın ehtiyacları olan səviyyədə, istənilən həcmdə Azərbaycan enerji resurslarını təmin edə bilər.

Onu da bildirməliyəm ki, bizim zəngin qaz yataqlarımız bu gün imkan verir ki, dünyanın bir çox ölkələrinə təbii qazı ixrac edək. Azərbaycan qazını almış ölkələrin sayı 14-ə çatıb. Biz boru kəmərləri ilə ixrac edilən qazın təchizatçı ölkəsi olaraq birinci yerdəyik. Yeni qaz yataqlarının işlənməsi nəticəsində əlavə resurslar əldə ediləcək və təbii ki, həm Slovakiyaya, həm də onun qonşularına Azərbaycan qazının təchizatı daha da böyük həcmdə mümkün olacaqdır.

Hazırda bizim ümumi qaz ixracımız 25 milyard kubmetr səviyyəsindədir, bunun da yarısı Avropa ölkələrinə nəql edilir. Bu gün Avropa İttifaqına üzv 8 ölkə Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini təmin etmiş olur.

Bizim digər perspektivli əməkdaşlıq sahəsi haqqında Siz artıq dediniz, bu da müdafiə sənayesi sahəsidir. Biz bu sahədə əməkdaşlığı sənayenin inkişafı nöqteyi-nəzərindən görürük. Biz müharibə aparmaq fikrində deyilik. Yəni bizim üçün müharibələr artıq keçmişdə qalır və sadəcə olaraq, burada bir sinergiyanın yaradılması üçün Slovakiya texnologiyaları ilə Azərbaycan maliyyə imkanlarını birləşdirərək yeni məhsulların istehsalı dünya bazarları üçün də maraqlı ola bilər. Həm də ki, bu, texnoloji inkişafın da bir qolu olaraq bizə böyük faydalar verəcəkdir. Biz bu istiqamətdə konkret layihələr üzərində çalışırıq.

Düz bir ay əvvəl - noyabrın 8-də biz azadlıq müharibəsində Qələbənin beşinci ildönümünü qeyd etmişdik və fəxri qonaqlar arasında Slovakiyanın baş nazirinin müavini və müdafiə nazirini görmək xüsusi məmnunluq yaratmışdır. Buna görə biz Slovakiya dövlətinə və hökumətinə minnətdarıq. Bu kimi jestlər bir daha onu göstərir ki, biz, sözün əsl mənasında, dost ölkələrik. Müvafiq hökumət nümayəndələri bütün istiqamətlər üzrə təlimatları alıb ki, gələcək illərdə əməkdaşlığı daha da yüksək səviyyəyə qaldıraq.

Sizin rəhbərliyinizlə Slovakiyanın uğurlu inkişafı bizi çox məmnun edir. Ölkənizdə sabitlik, iqtisadi inkişaf hökm sürür. Slovakiya çox güclü sənaye potensialına malikdir. Xüsusilə Sizə rəğbət qazandıran odur ki, Slovakiya müstəqil xarici siyasət aparır. Bəzi hallarda buna görə müəyyən çətinliklərlə də üzləşirsiniz. Ancaq bu, Sizi yolunuzdan döndərmir və bizim bölgəmizdə Sizin ölkənizə və rəhbərliyə çox böyük hörmət mövcuddur.

Azərbaycan isə öz xarici siyasət prioritetlərini çoxdan müəyyən edib. Biz eyni zamanda bu gün Şərqlə Qərb arasında müəyyən bir körpü rolunu oynayırıq. İnfrastruktura, bağlantılara, nəqliyyat sektoruna qoyduğumuz sərmayə bu gün imkan verir ki, Azərbaycan "Şərq-Qərb" nəqliyyat dəhlizinin önəmli parçasına çevrilsin. Biz Orta dəhliz layihəsində fəal iştirak edirik. Orta Asiyanı Avropa ilə birləşdirən ən etibarlı və ən təhlükəsiz marşrut Azərbaycan ərazisindən keçir.

Gələcək illərdə bağlantılar və nəqliyyat sahəsinə əlavə vəsait qoyaraq biz öz imkanlarımızı genişləndirəcəyik. Hesab edirəm ki, biz Slovakiya ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında bu sahəni də diqqətdən kənarda qoymamalıyıq. Çünki bunun çox böyük potensialı vardır.

Eyni zamanda bu gün biz informasiya texnologiyaları, data mərkəzlərinin yaradılması haqqında danışmışıq. Burada Azərbaycanın üstünlüyü ondadır ki, bizdə kifayət qədər böyük enerji potensialı var. Bu gün Azərbaycanda istifadə olunmayan enerji potensialı təxminən 2 qiqavata bərabərdir və növbəti beş il ərzində bu, 8 qiqavata çatdırılacaq. Təbii ki, süni intellekt və data mərkəzlərinin fəaliyyəti üçün enerji mənbəyi əsas amillərdən biridir. Əlbəttə ki, iqlim də burada önəmli amildir. Baxmayaraq, biz cənub ölkəsiyik, amma bizim çox soyuq bölgələrimiz də var ki, orada ilin böyük hissəsində şaxtalı hava şəraiti mövcuddur. Ona görə beynəlxalq data mərkəzləri habı kimi biz öz rolumuzu görürük və Slovakiya şirkətləri ilə bu istiqamətdə çalışmaq fikrindəyik.

Cənab Prezident, qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Fürsətdən istifadə edərək, Sizi Azərbaycana rəsmi səfərə dəvət etmək istəyirəm. Siz Azərbaycanda dəfələrlə olmusunuz, ancaq Prezident kimi rəsmi səfərdə hələ ki, olmamısınız. Əgər vaxtınız olarsa, gələn il biz Sizi Azərbaycanda qarşılamağa hazırıq və çox məmnun olarıq. Bir daha çox sağ olun.

## Azərbaycan və Slovakiya prezidentləri Bratislavada "Azadlıq Qapısı" abidəsini ziyarət ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini dekabrın 8-də Bratislavada "Azadlıq Qapısı" abidəsini ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Slovakiyanın Dövlət himnləri səsləndirildi.

Prezident İlham Əliyev və Prezident Peter Pelleqrini abidənin önünə əklil qoydular.

Qeyd edək ki, bu abidə 1948-1989-cu illərdə keçmiş Çexoslovakiyadan qaçmağa çalışan zaman həlak olanların xatirəsinə həsr edilib.







## Azərbaycan və Slovakiya prezidentləri Bratislavada Devin qəsrində olublar





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini dekabrın 8-də Bratislavada Devin qəsrində olublar.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına Morava və Dunay çaylarının qovuşduğu məkanda yerləşən qədim qəsr barədə məlumat verildi.

Bildirildi ki, Slovakiyanın rəmzlərindən biri olan Devin qəsri bu ölkənin milli mədəniyyət abidələri siyahısına daxildir. Yazılı mənbələrdə Devin adına ilk dəfə 864-cü ilə təsadüf edən salnamələrdə rast gəlinir. Qəsr 822-907-ci illərdə mövcud olmuş Böyük Moraviyanın tarixində mühüm rol oynayıb. XIII əsrdə Devin macarların kral və sərhəd qalası olub. 1809-cu ildə Napoleonun ordusu qalanı minalayaraq partladıb. 1896-cı ildə qalanın dağılmasının rəmzi olaraq burada abidə ucaldılıb. Birinci Dünya müharibəsindən sonra qala qalıqlarının üzərində olan dağ massivində ilk mağaralar aşkarlanıb. Ərazidə ümumilikdə fasilələrlə bir əsrdən artıqdır ki, arxeoloji araşdırmalar aparılıb. Minilliklər boyunca Devin qalası qədim insanların məskəni eyni zamanda tacirlər və döyüşçülər üçün toplanış yeri olub.



# Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında siyasi münasibətlər yüksək səviyyədədir

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin bir sıra şirkətlərinin rəhbərlərini qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, "2PointZero" şirkətinin sədri Şeyx Zayed bin Hamdan bin Zayed Əl Nəhyan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Qonaq qeyd etdi ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Azərbaycanla bütün sahələrdə əməkdaşlığı genişləndirmək istiqamətində tapşırıq verib. O, əlaqələrimizin inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu deyərək, Azərbaycanla BƏƏ arasında uzunmüddətli uğurlu tərəfdaşlığın qurulduğunu vurğuladı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın bu ilin sentyabrında Azərbaycana, Qarabağa səfərini, həmçinin onunla ölkəmizdə və Birləşmiş Ərəb Əmirliklərində keçirdiyi görüşləri məmnunluqla xatırladı.

Əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisinə qalxdığını deyən dövlətimizin başçısı siyasi münasibətlərimizin yüksək səviyyədə olduğunu vurğuladı, müxtəlif sahələrdə əməkdaşlığımızın genişləndiyini qeyd etdi, ölkələrimiz arasında qarşılıqlı dəstəyi yüksək qiymətləndirdi.

Bərpaolunan enerji sahəsində BƏƏ-nin Azərbaycanın strateji tərəfdaşı olduğunu deyən Prezident İlham Əliyev bu istiqamətdə imzalanmış sənədləri qeyd edərək, əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğunu vurğuladı. Dövlətimizin başçısı Azərbaycan-BƏƏ əməkdaşlığının daha geniş region üçün mühüm əhəmiyyət kəsb etdiyini dedi.

Söhbət zamanı siyasi, iqtisadi-ticari, neft-qaz və digər istiqamətlərdə ikitərəfli əlaqələrimizin inkişafı vurğulandı.

Enerji infrastrukturu, bərpaolunan enerji, investisiyalar, informasiya texnologiyaları, mədən sənayesi və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

# Qırğızıstan Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq formatına qoşulmasına dəstək verən ilk dövlətlərdən biridir

## Prezident İlham Əliyev Qırğızıstan nümayəndə heyətini qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Bakıda Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın iclasının keçiriləcəyini və onun gündəliyinin zəngin olduğunu deyərək, bunu ölkələrimiz arasında sıx qarşılıqlı fəaliyyətin göstəricisi kimi qiymətləndirdi.

Son illərdə ikitərəfli münasibətlərimizin sürətlə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu məsələdə yüksəksəviyyəli qarşılıqlı səfərlərin roluna toxundu.

Qarabağın və Şərqi Zəngəzurun bərpasına Qırğızıstan tərəfindən göstərilən dəstəyi vurğulayan Prezident İlham Əliyev Ağdam rayonunda Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin binasının inşasına görə, Prezident Sadır Japarova və qırğız xalqına bir daha təşəkkür etdi.

Azərbaycan Prezidenti Qırğızıstanın dövlət başçısı tərəfindən hədiyyə olaraq 200 yakın işğaldan azad edilmiş ərazilərimizə göndərilməsini də dostluq münasibətimizin təzahürü olduğunu dedi.

Dövlətimizin başçısı Bakıda görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin, Bişkekdə Qırğızıstan-Azərbaycan Dostluq Parkının və Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin açılışlarını məmnunluqla xatırladı.

İnvestisiya layihələrinə toxunan Prezident İlham Əliyev Azərbaycanla Qırğızıstan arasında İssık-Kul gölünün sahilində mehmanxananın tikintisi üzrə imzalanmış sazişi də vurğuladı.

Siyasi qarşılıqlı fəaliyyətin gündəliyinin çox geniş olduğunu deyən Prezident İlham Əliyev hər iki dövlət başçısının qərarı ilə yaradılan Azərbaycan-Qırğızıstan Birgə İnvestisiya Fondu tərəfindən artıq ilk layihələrin maliyyələşdirilməsinə başlanıldığını, bir neçə layihənin isə maliyyələşmə mərhələsində olduğunu qeyd etdi. Dövlətimizin başçısı vurğuladı ki fondun kapitalının formalaşması üçün ölkəmiz maliyyə vəsaiti ayırıb və layihələrin sayının artacağı təqdirdə Azərbaycan tərəfindən əlavə vəsait ayrılacaq.

Prezident İlham Əliyev Qırğızıstanın Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq formatına qoşulmasına dəstək verən ilk dövlətlərdən biri olduğunu deyərək, bunun əlaqələrimizin qardaşlıq xarakteri daşımasının təcəssümü olduğunu vurğuladı.

Ölkəmizin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olduğunu qeyd edən dövlətimizin başçısı buna görə Qırğızıstana və digər ölkələrə minnətdarlığını bildirərək vurğuladı ki, bu, Mərkəzi Asiya ölkələri ilə Cənubi Qafqaz regionunu daha sıx bağlayacaq, hər iki istiqamətdə fasiləsiz və sabit yükdaşımanın təmin edilməsində, xalqlarımız arasında qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsində öz rolunu oynayacaq.

Qəbula görə nümayəndə heyətinin adından minnətdarlıq edən Bakıt Torobayev, ilk növbədə Qırğız Respublikasının Prezidenti Sadır Japarovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Sadır Japarova çatdırmağı xahiş etdi.

Qonaq qeyd etdi ki, ümumi tarixi köklərə, əsrlər boyu mövcud olan dostluğa əsaslanan ikitərəfli əlaqələrimiz Azərbaycan və Qırğızıstan prezidentlərinin siyasi iradəsi nəticəsində strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə qalxıb.

Qırğız Respublikasının Nazirlər Kabineti sədrinin müavini Bakı ilə Bişkek arasında birbaşa hava əlaqəsinin olmasının önəminə toxunaraq, gələcəkdə bu istiqamətdə reyslərin sayının artırılmasının əhəmiyyətini vurğuladı.

Bakıt Torobayev Qırğızıstanda Azərbaycan Prezidentinin səfərini səbirsizliklə gözlədiklərini dedi.

Söhbət zamanı energetika, nəqliyyat, qarşılıqlı investisiya qoyuluşu, humanitar, təhsil, kənd təsərrüfatı və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olundu.

# Yüksəkvəzifəli şəxslərin qarşılıqlı səfərləri Azərbaycan ilə İran arasında əməkdaşlığın genişləndirilməsinə töhfə verir

## Prezident İlham Əliyev İranın xarici işlər nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanla İran arasında əlaqələrin böyük tarixinin olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, xalqlarımızın əsrlər boyu bir yerdə yaşaması münasibətlərimizə xüsusi önəm verir. Son dövrlərdə əlaqələrimizin fəallaşmasından məmnunluğunu bildirən dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfərinin, həmçinin digər yüksəkvəzifəli şəxslərin qarşılıqlı səfərlərinin əməkdaşlığımızın daha da genişləndirilməsinə töhfə verdiyini vurğuladı.

Prezident İlham Əliyev ikitərəfli gündəliyimizin geniş olduğunu və bir çox sahəni əhatə etdiyini deyərək bütün məsələlər üzrə konkret yol xəritələrinin olduğunu bildirdi.

Hökumətlərarası komissiyanın çox uğurla fəaliyyət göstərdiyini vurğulayan dövlətimizin başçısı bu xüsusda iqtisadi, ticari, nəqliyyat, energetika və digər sahələrdə əməkdaşlığa toxundu.

Azərbaycan Prezidenti İran nümayəndə heyətinin səfərinin uğurlu və məhsuldar olacağına əminliyini ifadə etdi.

Qəbula görə təşəkkürünü bildirən Seyid Abbas Əraqçi, ilk növbədə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, İranın dövlət başçısının Prezident İlham Əliyevə və Azərbaycana böyük hörməti var. Qonaq Məsud Pezeşkianın İran Prezidenti seçilməsindən sonra ölkəmizlə əlaqələri daha da inkişaf etdirməklə bağlı tapşırıq verdiyini dedi.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məsud Pezeşkiana çatdırmağı xahiş etdi.

Seyid Abbas Əraqçi də öz növbəsində Azərbaycan-İran əlaqələrinin dərin köklərə malik olduğunu vurğulayaraq, münasibətlərimizin daha da dərinləşdirilməsinin əhəmiyyətinə toxundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# ARDNF ilə "Global Infrastructure Partners" şirkəti arasında etibarlı tərəfdaşlıq modeli formalaşıb

## Prezident İlham Əliyev "Global Infrastructure Partners" şirkətinin baş icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də qlobal infrastruktur investisiya idarəetmə şirkəti "Global Infrastructure Partners"in (GIP) təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) ilə "Global Infrastructure Partners" şirkəti arasında formalaşan tərəfdaşlığı yüksək qiymətləndirərək fondun şirkətlə birgə "Italo" sürətli dəmir yolu operatoru və London Qatvik Hava Limanı üzrə həyata keçirdiyi investisiyaların uğurlu əməkdaşlıq nümunələri olduğunu dedi. Ölkəmizin uzunmüddətli inkişaf strategiyasına toxunan dövlətimizin başçısı bu xüsusda "Global Infrastructure Partners" ilə tərəfdaşlığın əhəmiyyətini vurğuladı.

Adebayo Oqunlesi ARDNF ilə əməkdaşlığın səmərəli nəticələr verdiyini deyərək, şirkətin idarə etdiyi fondlara yatırdığı sərmayələrin iki qurum arasında etibarlı tərəfdaşlıq modeli formalaşdırdığını bildirdi.

Qonaq rəhbərlik etdiyi şirkətin hava limanlarının, logistika və nəqliyyat dəhlizlərinin optimallaşdırılması, enerji, o cümlədən bərpaolunan enerji üzrə beynəlxalq təcrübəyə malik olduğunu vurğulayaraq, enerji keçidi, nəqliyyat və rəqəmsal infrastruktur sahələrində Azərbaycanla əməkdaşlıqda marağını ifadə edib. Görüşdə şirkətin müxtəlif infrastruktur istiqamətlərində həyata keçirdiyi layihələr, qlobal enerji keçidi fonunda formalaşan yeni tendensiyalarla bağlı fikir mübadiləsi aparıldı, süni intellekt texnologiyalarının tətbiqi üzrə beynəlxalq təşəbbüslərdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Qeyd edək ki, 2006-cı ildə yaradılan və 2024-cü ildə dünyanın ən böyük fəal idarəetmə şirkəti olan "BlackRock" tərəfindən satın alınan "Global Infrastructure Partners" hazırda təxminən 189 milyard ABŞ dolları məbləğində aktivləri idarə edir. "BlackRock" isə hazırda təxminən 14 trilyon ABŞ dollarına yaxın həcmdə aktivləri idarə etməklə, qlobal investisiya bazarında aparıcı mövqeyini qoruyur.

# Azərbaycan ilə Finlandiya arasında əlaqələr dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək

## Finlandiya Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandr Stubba

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında əlaqələr bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2025-ci il*

# T.Ə.Bakıxanovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Tofiq Əhməd Ağa oğlu Bakıxanov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 dekabr 2025-ci il*

# Milli Məclisin Sədri Sahibə Qafarova İranın xarici işlər naziri ilə görüşüb

**Dekabrın 8-də Milli Məclisin Sədri Sahibə Qafarova İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, söhbət zamanı diqqətə çatdırılıb ki, cari ildə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfərləri, eləcə də digər yüksəksəviyyəli qarşılıqlı səfər və görüşlər, imzalanan sənədlər ikitərəfli münasibətlərin inkişafında mühüm əhəmiyyət kəsb edir və ölkələrarası əməkdaşlıq gündəliyinin xeyli zəngin olmasını göstərir.

Qeyd olunub ki, ölkələrimiz arasında həm siyasi-iqtisadi, ticarət və nəqliyyat sahələrində, həmçinin mədəni-humanitar sahələrdə əlaqələrin möhkəmlənməsi və əməkdaşlıq imkanlarının genişlənməsi ikitərəfli münasibətlərin daha da dərinləşməsinə mühüm töhfə verir. Eyni zamanda vurğulanıb ki, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının fəaliyyəti və həyata keçirilən birgə layihələr böyük əhəmiyyət kəsb edir.

Görüşdə iki ölkə arasında əlaqələrin inkişafına mühüm təsir göstərən amillərdən biri kimi qanunverici orqanlarımız arasında əməkdaşlığın əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb. Sahibə Qafarova İran İslam Respublikasına səfərini məmnuniyyətlə xatırladaraq, səfər zamanı keçirilən görüşlərin parlamentlərimiz arasında münasibətlərə müsbət töhfə verdiyini bildirib.

Milli Məclisin Sədri həm ikitərəfli əsasda, həm də Parlamentlərarası İttifaq, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı və İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası kimi mötəbər beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığın həyata keçirildiyini qeyd edərək, bu əlaqələrin daha da genişləndirilməsi üzrə birgə səylərin davam etdirilməsinin zəruriliyini vurğulayıb. Bu mənada, parlamentlərdə fəaliyyət göstərən işçi qrupların rolunun gücləndirilməsinin vacibliyi də qeyd olunub.

İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçi ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini qeyd edərək, dövlətlərimiz arasında sıx siyasi dialoqun olduğunu bildirdi. Qonaq səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşü barədə təəssüratlarını bölüşərək, bunun səmimi və konstruktiv mühitdə keçdiyini qeyd edib. O, yüksəksəviyyəli siyasi-iqtisadi əlaqələri müsbət qiymətləndirərək, iki xalq arasında, həmçinin qanunverici orqanlar arasında münasibətlərin dərinləşdirilməsinin vacibliyini vurğulayıb.

Görüşdə parlamentlərarası əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Baş nazirin müavini Şahin Mustafayev İranın xarici işlər naziri ilə görüşüb



**Dekabrın 8-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-İran dövlətlərarası münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafı təqdir edilib, xüsusilə ikitərəfli siyasi dialoqun dinamikasından məmnunluq ifadə olunub.

Bu kontekstdə cari ilin aprelində İran Prezidentinin Azərbaycana rəsmi səfərinin iki ölkə arasında tarixən dostluq və mehriban qonşuluq kimi möhkəm təməllər üzərində qurulan ikitərəfli münasibətlərin inkişafında yeni səhifə açdığı vurğulanıb.

Görüş zamanı Azərbaycan-İran qarşılıqlı faydalı əməkdaşlığının gündəliyində duran aktual məsələlər, həmçinin ticarət-iqtisadi, nəqliyyat, enerji, su təsərrüfatı, humanitar və digər sahələrdə əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

Azərbaycan və İran ərazisindən keçən beynəlxalq nəqliyyat-tranzit dəhlizlərinin inkişafı, o cümlədən regionun tranzit potensialının genişləndirilməsi istiqamətində həyata keçirilən birgə layihələrin icrası ilə bağlı məsələlərə xüsusi diqqət yetirilib.

# Bakıda Azərbaycanın və İranın xarici işlər nazirləri arasında görüş olub

**Dekabrın 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan İranın xarici işlər naziri Seyid Abbas Əraqçi ilə görüşüb.**





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər Ceyhun Bayramov və Seyid Abbas Əraqçi arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Görüşlərdə Azərbaycan-İran ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində yer alan aktual məsələlər, habelə regional və qlobal inkişaf istiqamətləri müzakirə edilib. Azərbaycan və İran əlaqələrinin təməlində dövlətlərimiz arasında mehriban qonşuluq və qarşılıqlı hörmət, xalqlarımız arasında tarixi, mədəni və dini ortaq köklərin dayandığı ifadə olunub.

İki ölkə prezidentlərinin arasında mövcud dostluq münasibətlərinin dövlətlərarası əlaqələrdə mühüm əhəmiyyət daşıdığı, 2025-ci ildə İran Prezidentinin Azərbaycana səfərləri və bu çərçivədə Azərbaycan Prezidenti ilə görüşlərinin əməkdaşlığa yeni təkan verdiyi vurğulanıb.

Xarici İşlər nazirlikləri arasında siyasi və konsulluq məsləhətləşmələrinin, iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının, parlamentlərarası əlaqələrin, eləcə də əhatəli ikitərəfli hüquq-müqavilə bazasının əməkdaşlığımıza dayanıqlı xarakter verdiyi bildirilib.

Görüşlər zamanı iqtisadi-ticarət, enerji-energetika və nəqliyyat-logistika istiqamətləri üzrə əməkdaşlıq məsələləri müzakirə edilib. İki ölkənin iqtisadi potensialının və aramızdakı coğrafi yaxınlığın qarşılıqlı ticarət və investisiya həcmlərinin artırılması üçün əlverişli şərait yaratdığı vurğulanıb.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində birgə fəaliyyətlərin, eləcə də Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni bağlantı layihələrinin regionda tranzit imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcəyinə inam ifadə olunub. Ağbənd-Kəlalə arasında yolun və körpünün tikintisinin yekunlaşdırılması istiqamətində səylər məmnunluqla qeyd edilib.

Humanitar sahədə əməkdaşlıq məsələlərinə toxunularaq, iki ölkənin prezidentlərinin razılığı əsasında Bakı-Tehran-Bakı və Bakı-Təbriz-Bakı marşrutları üzrə təyyarə reyslərinin artırılmasının xalqlarımız arasında təmasların təşviqinə töhfə verdiyi qeyd edilib. Elm, təhsil, mədəniyyət, gənclər, idman, səhiyyə və turizm sahələrində əməkdaşlığın gücləndirilməsi imkanları nəzərdən keçirilib.

Beynəlxalq və regional əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb, Azərbaycan və İran arasında BMT, UNESCO, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) və digər təşkilatlar, eləcə də "3+3" və bir sıra başqa regional platformalar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlıq yüksək qiymətləndirilib.

Ceyhun Bayramov həmkarına Azərbaycan-Ermənistan normallaşma prosesindəki son inkişaflar barədə məlumat verib, bu çərçivədə Vaşinqton Zirvəsinin nəticələri diqqətə çatdırılıb. Regionda daimi sülhün bərqərar edilməsi və sülh müqaviləsinin imzalanması üçün Ermənistan konstitusiyasından ölkəmizə qarşı ərazi iddialarının aradan qaldırılmasının zəruriliyi vurğulanıb. Qarşı tərəf həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və quruculuq işləri, mina təhlükəsi və keçmiş məcburi köçkünlərin geri qayıdışı barədə məlumatlandırılıb.

Görüşlərdən sonra birgə mətbuat konfransı keçirilib, nazirlər görüşlərin nəticələrinə dair bəyanatlarla çıxış edib və jurnalistlərin suallarını cavablandırıblar.

# Beynəlxalq reytinq agentlikləri ilə əməkdaşlıq davam etdirilir

**Azərbaycan Respublikası beynəlxalq kapital bazarlarına çıxışın asanlaşdırılması, borclanma prosedurlarının tənzimlənməsi, beynəlxalq maliyyə dairələri tərəfindən ölkəmizə etimadın daha da gücləndirilməsi məqsədilə 2000-ci ildən etibarən beynəlxalq kredit reytinq agentlikləri ilə əməkdaşlıq edir.**

Maliyyə Nazirliyinin məlumatına görə bu dövr ərzində aparıcı üç beynəlxalq reytinq agentliyi ("Fitch", "S&P Global Ratings", "Moody's") ilə əməkdaşlıq həyata keçirilmiş, həm rəsmi müqavilə çərçivəsində ödənişli əsaslarla, həm də müqavilə öhdəlikləri olmadan ("unsolicited rating") agentliklər tərəfindən ölkəmizin suveren kredit reytinqi qiymətləndirilmişdir.

Beynəlxalq təcrübədə bu üç aparıcı beynəlxalq reytinq agentliyindən ikisi tərəfindən qiymətləndirmə geniş tətbiq edilən institusional təcrübədir. Bu təcrübədən çıxış edərək, Azərbaycan son 5 ildə ölkənin suveren kredit reytinqinin qiymətləndirilməsini iki agentlik ("Fitch", "S&P Global Ratings") vasitəsilə rəsmi müqavilə üzrə ödənişli əsaslarla, bir agentliklə isə ("Moody's") müqavilə öhdəlikləri olmadan, yəni Azərbaycan tərəfindən hər hansı ödəniş edilmədən həyata keçirmişdir.

Bu dövr ərzində Azərbaycan iqtisadiyyatında müşahidə olunan fundamental və davamlı müsbət meyillər fonunda ölkənin kredit reytinqi artmış və 2024-cü ildə "Fitch Ratings", 2025-ci ildə isə "Moody's Ratings" agentliyi tərəfindən ölkəmizin suveren kredit reytinqi artırılaraq investisiya dərəcəsinə yüksəldilmişdir. Belə ki, agentliklər tərəfindən "BBB-" və "Baa3" səviyyəsinə qaldırılan suveren reytinqimiz üzrə növbəti dövr üçün proqnoz da müvafiq olaraq "stabil" və "müsbət" olaraq qiymətləndirilmişdir. Hər iki reytinq agentliyi Azərbaycanın güclü fiskal və xarici mövqeyə malik olmasını, xarici valyuta aktivlərinin əhəmiyyətli artmasını, aşağı dövlət borcu və müsbət büdcə göstəricilərinin iqtisadiyyatın xarici şoklara qarşı dayanıqlılığını təmin etdiyini vurğulayıb.

Reytinq agentlikləri ilə əməkdaşlıq üzrə qeyd olunan beynəlxalq təcrübəyə uyğun olaraq, növbəti dövrdə də rəsmi müqavilə üzrə ödənişli əsaslarla yalnız iki agentliklə əməkdaşlığın davam etdirilməsi nəzərdə tutulmuşdur. Əldə olunmuş uğurlar və qarşılıqlı faydalı, effektiv əməkdaşlıq nəzərə alınaraq "Fitch Ratings" və "Moody's Ratings" agentlikləri ilə imzalanan müqavilələr çərçivəsində ödənişli əsaslarla institusional əməkdaşlığın həyata keçirilməsi təmin olunmuşdur.

İki agentliyin qiymətləndirilməsinin beynəlxalq kapital bazarlarına çıxış və borclanma prosedurlarının tənzimlənməsi üçün kifayət etdiyi nəzərə alınaraq, "S&P Global Ratings" agentliyi ilə əməkdaşlığın müqavilə öhdəliklərindən kənar davam etdirilməsi nəzərdə tutulmuşdur.

Maliyyə Nazirliyi növbəti illərdə də Azərbaycan Respublikasının suveren kredit reytinqinin qiymətləndirilməsi ilə bağlı aparıcı beynəlxalq reytinq agentlikləri ilə əməkdaşlığını davam etdirəcək və ölkəmizdə müşahidə olunan fundamental və davamlı inkişafın kredit reytinqlərində əks olunması üçün tədbirlər görəcəkdir.

*"Azərbaycan"*

# Bakıda İƏT Mədəniyyət Festivalının açılış mərasimi keçirilib

**Heydər Əliyev Fondunun tərəfdaşlığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İslam Əməkdaşlıq Təşkilatının (İƏT) təşkilatçılığı ilə Bakıda "İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə - 2025"in açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, açılış mərasimində islam dünyasının mədəni irsinə həsr olunan xüsusi videoçarx nümayiş etdirilib.

Açılış nitqi ilə çıxış edən mədəniyyət naziri Adil Kərimli qeyd edib ki, İslam Mədəniyyəti Festivalının Bakıda keçirilməsi bütün islam dünyasından yaradıcı sənaye nümayəndələri üçün dialoq, tərəfdaşlıq və yeni ideyalar platforması rolunu oynayacaq. Həmçinin 40-dan çox ölkədən 300-dən artıq beynəlxalq iştirakçının, həmçinin 5 mindən çox ziyarətçinin gözlənildiyi bu tədbir yaradıcı sənaye sahəsində fəaliyyət göstərən bütün iştirakçıların əlaqələrinin genişlənməsinə və inkişafına mühüm töhfə verəcək, eyni zamanda ziyarətçilərə müxtəlif kreativ və innovativ həllər təqdim edəcək.

"Bu səbəbdən tədbirin uğurla həyata keçirilməsi üçün bütün zəruri şəraitin yaradılmasına görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk. Habelə Heydər Əliyev Fonduna, xüsusilə də Azərbaycanın birinci xanımı və fondun prezidenti Mehriban Əliyevaya milli və qlobal miqyaslı mədəni layihələrə daim göstərdiyi dəstəyə görə təşəkkürümüzü çatdırmaq istəyirik. Çünki bu tədbirə evsahibliyi etmək və bu qədər geniş və rəngarəng yaradıcı insanların burada iştirakını təmin etmək bizim üçün böyük şərəf və qürurdur", - deyə nazir vurğulayıb.

İƏT-in baş katibinin müavini və Əfqanıstan üzrə xüsusi nümayəndəsi Tarig Ali Bakhit Prezident İlham Əliyevin islam həmrəyliyinin möhkəmləndirilməsi yolunda göstərdiyi sarsılmaz dəstəyə görə təşəkkürünü bildirib: "Məhz bu möhkəm iradə və strateji yanaşma islam dünyasında əməkdaşlığımızın yeni mərhələyə keçməsinə ciddi töhfə verir.

Bu festival bizi mühüm platformada bir araya gətirərək birliyin, dialoqun və mədəni yaxınlaşmanın real təcəssümünə çevrilir. İƏT-in katibliyi və bütün iştirakçı heyətin mədəni əlaqələrimizin dərinləşməsinə verdiyi dəstək qarşılıqlı dialoqun daha da güclənməsinə mühüm təsir göstərir. Bu kimi tədbirlər təkcə yaradıcılıq və mədəniyyət nümayişi deyil, həm də təşkilatımızı strateji baxımdan gücləndirən, ortaq dəyərlərimizi möhkəmləndirən vahid mədəni platforma yaradır. Belə bir platformanın formalaşması, təbii ki, gələcək fəaliyyətimizin daha sıx koordinasiyasına, qarşılıqlı anlayış və əməkdaşlığa xidmət edir. Çünki yaradıcılıq yalnız sənətə deyil, insan inkişafına yönələn fundamental xüsusiyyətdir. Yaradıcılığı dəstəkləyən cəmiyyətlər, ilk növbədə gənclərinin potensialına yatırım etmiş olurlar. Müsbət dəyərləri mənimsəyən, mədəni və mənəvi irsə sahib çıxan gənclər isə gələcəyin birliyini formalaşdırır, cəmiyyətlər arasında körpülər yaradan mədəniyyət səfirlərinə çevrilirlər. Bu baxımdan, Bakıdakı bu festival təkcə bu günün tədbiri deyil, sabahın birgə mədəniyyət, yaradıcılıq və inkişaf vizyonunun bünövrəsidir", - deyə Tarig Ali Bakhit vurğulayıb.

Pakistan İslam Respublikasının federal milli irs və mədəniyyət naziri Aurangzeb Khan Khichi qeyd edib ki, Pakistan, islam həmrəyliyinin güclənməsinə və ortaq mədəni dəyərlərimizin təşviqinə xidmət edən bu kimi təşəbbüslərdə hər zaman fəal iştirak etməyə hazırdır. "Biz bu platformanı, sadəcə festival deyil, islam dünyasında mədəni yaxınlaşma, yaradıcılıq mübadiləsi və strateji əməkdaşlıq üçün mühüm imkan kimi görürük. Bu tədbir bir daha nümayiş etdirir ki, ortaq tariximiz, mədəni köklərimiz və dini birliyimiz bizləri təkcə simvolik deyil, real tərəfdaşlıq ruhu ilə birləşdirir. Bu birliyin davamlı möhkəmlənməsi üçün Pakistan olaraq bütün səviyyələrdə əməkdaşlığa sadiq olduğumuzu xüsusi vurğulamaq istəyirik.

Azərbaycanın mədəniyyət diplomatiyası sahəsində atdığı addımlar, habelə regional və qlobal miqyasda mədəni əməkdaşlığa verdiyi töhfə təqdirəlayiqdir. Biz bu səmərəli fəaliyyətin davamlı olacağına və islam dünyasının mədəni identikliyinin daha da güclənməsinə xidmət edəcəyinə inanırıq", - deyə pakistanlı nazir əlavə edib.

Misir Ərəb Respublikasının mədəniyyət naziri Ahmed Fouad Hanno qeyd edib ki, Azərbaycan bu gün təkcə mədəni irsin qorunmasında deyil, eyni zamanda islam dünyasının yaradıcılıq və mədəni əməkdaşlıq mərkəzi kimi tanınmasında nümunəvi rol oynayır. Biz Misir Ərəb Respublikası olaraq, bu təşəbbüsün regionumuzda mədəni dialoqun genişlənməsinə, tarixi əlaqələrimizin möhkəmlənməsinə və ortaq mənəvi dəyərlərimizin dünyaya tanıdılmasına xidmət etdiyinə inanırıq. Əminik ki, festival islam dünyasının mədəni gücünü, yaradıcı potensialını və müasir mədəniyyət siyasətini birlikdə dünyaya nümayiş etdirməyə imkan yaradacaq.

Nazir qeyd edib ki, festivalda iştirak edən hər bir yaradıcı nümayəndə, hər bir ekspert və mədəniyyət qurumu ortaq missiyaya - mədəni irsi yaşatmaq, onu gələcək nəsillərə doğru formada ötürmək və eyni zamanda, müasir innovativ yanaşmalarla zənginləşdirməyə xidmət edir.

Liviya Dövlətinin mədəniyyət və koqnitiv inkişaf naziri Mabrouka Toghi Azərbaycanın islam həmrəyliyinin gücləndirilməsinə verdiyi töhfəni yüksək qiymətləndirib: "Bu addımlar yalnız regional deyil, qlobal mədəni əməkdaşlığın inkişafına xidmət edir".

O qeyd edib ki, mədəniyyət yalnız keçmişin xatırlanması deyil, həm də gələcəyin strateji şəkildə qurulması üçün ən güclü vasitələrdən biridir. Mədəniyyət insanlar arasında anlaşmanı, xalqlar arasında etimadı, dövlətlər arasında isə qarşılıqlı hörmət və əməkdaşlığı formalaşdırır.

Fələstin Dövlətinin mədəniyyət naziri İmadeddin Abdullah Salim Hamdan vurğulayıb ki, İƏT Mədəniyyət Festivalı yalnız mədəniyyət nümayişi deyil, həm də ortaq kimliyimizin, tarixi birliyimizin və ruhani dəyərlərimizin dünya səhnəsində təcəssümüdür. İslam dünyasının mədəni irsi, milyonlarla insanın yaddaşını, tarixi varlığını və mədəni sabitliyini daşıyan müqəddəs bir mirasdır.

Nazir qeyd edib ki, Fələstinin mədəniyyət siyasəti, məhz bu irsin qorunması, nəsillər arasında ötürülməsi və müasir yaradıcılıq formaları ilə zənginləşdirilməsinə yönəlib. "Bu festival yaradıcı insanlar üçün yeni dialoq məkanı, mədəni platforma və inteqrasiya mühiti yaradır. Burada paylaşdığımız fikirlər, ideyalar və layihələr gələcəyin mədəni arxitekturasını formalaşdırmağa xidmət edir. Biz inanırıq ki, mədəniyyət xalqlar arasında ən güclü körpüdür, çünki dilindən, coğrafiyasından və siyasi çərçivəsindən asılı olmayaraq insan ruhunun ən saf təzahürünü daşıyır".

Türkiyə Respublikasının mədəniyyət və turizm nazirinin müavini Nadir Alpaslan qeyd edib ki, ölkəsi mədəniyyət sahəsində ortaq təşəbbüslərin genişləndirilməsinə, gənclərin yaradıcı mühitə cəlb edilməsinə, islam mədəniyyətinin innovativ və müasir təqdimat formatlarının inkişafına hər zaman dəstək verməyə hazırdır. Bu istiqamətdə İƏT çərçivəsində atılan addımlar, mədəni platformaların genişlənməsi və yaradıcı sənayelərin inkişafı bizim üçün strateji əhəmiyyət daşıyır.

"Əsrlər boyunca islam mədəniyyəti coğrafiyamızın memarlığından musiqisinə, ədəbiyyatından elminə qədər həyatımızın bütün qatlarına sirayət edib, bu gün isə yeni texnoloji mühit, yaradıcılıq ekosistemləri və qlobal mədəni inteqrasiyalar vasitəsilə daha geniş auditoriyalara çatdırılır. Biz inanırıq ki, bu festival həm tarixi mirasımızı qorumağa, həm də müasir təsəvvür çərçivəsində zənginləşdirməyə xidmət edəcək.

Azərbaycanın mədəni diplomatiya sahəsində nümayiş etdirdiyi liderlik, regional həmrəyliyin formalaşmasına verdiyi töhfələr həm Türkiyə, həm də bütün islam dünyası tərəfindən yüksək dəyərləndirilir. Bu əməkdaşlığın gələcək illərdə daha çox layihə və mədəni mübadilə formatları ilə genişlənəcəyinə əminik", - deyə nazir əlavə edib.

"İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə-2025"in rəsmi açılış mərasimindən sonra Mövlanə Cəlaləddin Ruminin "Zaman dairəsindən çıx - Sevgi dairəsinə daxil ol" kəlamı üzərində qurulan konseptual vizual kompozisiya nümayiş etdirilib. Layihənin illüstrativ hissəsi rəssam Leyla Əliyevanın əsərləri əsasında təqdim edilib. Vizual konsepsiyanın müəllifi Əməkdar artist, "Atesh Hub"ın təsisçisi Səbinə Şıxlinskaya, musiqi tərtibatçısı isə Orxan Ağayevdir (DJ Pancho).

Bədii proqramın növbəti hissəsində İbrahim Babayev (tar), Pərviz Məmmədov (piano) və Vəfadar Ramizin (zərb) müşayiəti ilə Azərbaycan milli rəqsi "Yaylıq" təqdim edilib.

Mərasimin son bədii təqdimatı Azərbaycan bəstəkarı Kübra Kərimlinin "Şuşa" kompozisiyası olub. Musiqi əsərini balaban ifaçısı Fəqan Ələsgərlinin müşayiəti ilə müğənni Aisel (Aysel Məmmədova) səsləndirib.

Daha sonra təşkilatçılar və rəsmi qonaqlar sərgi stendlərini ziyarət ediblər.

Qeyd edək ki, festival dekabrın 11-dək davam edəcək.

# Milli Məclisdə Azərbaycan dilinə həsr olunmuş konfrans keçirilib







**Dekabrın 8-də Milli Məclisdə "Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: mövcud vəziyyət və perspektivlər" adlı konfrans keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbiri giriş sözü ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova konfrans iştirakçılarını salamlayaraq bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr edilən tədbirdə çıxış edərək milli inkişafın mühüm istiqamətləri ilə yanaşı, Azərbaycan dilinin qorunması məsələlərinə xüsusi diqqət yetirdi. AMEA-da səsləndirilmiş həmin fikirlər elmi ictimaiyyətin üzərinə yeni vəzifələr qoyur və dil siyasətinin inkişafında alimlərin bilik və təcrübəsi xüsusi əhəmiyyət daşıyır.

Spiker bildirib ki, bu konfransın məqsədi Azərbaycan dilinin qorunması və inkişafı strategiyalarını müzakirə etmək, bu istiqamətdə parlamentin, elmi ictimaiyyətin və ziyalıların vəzifələrini müəyyən etməkdir.

Spiker qeyd edib ki, dilimizin qorunması sahəsində, həm də dövlət dili səviyyəsinə yüksəldilməsi istiqamətində Ulu Öndər Heydər Əliyevin atdığı tarixi addımlar danılmazdır. Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər tariximizə həm də mədəni intibah dövrü kimi daxil olub. Həmin dövrdə xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsaslar genişləndirilib. Məhz Ümummilli Liderin əzmkarlığı sayəsində 1978-ci ildə Azərbaycan Konstitusiyasında Azərbaycan dilinə dövlət dili statusu verilib.

Spiker Sahibə Qafarova qeyd edib ki, 1995-ci ildə Ulu Öndərin rəhbərliyi ilə hazırlanıb qəbul edilən Konstitusiyamız Azərbaycan dilinin dövlət dili statusunu bir daha təsbit edib və bu, dil siyasətimizin möhkəm hüquqi bazasını formalaşdırıb. Bununla yanaşı, "Dövlət dili haqqında" qanun və digər normativ hüquqi aktlar dilimizin idarəetmə, təhsil, elm və informasiya məkanında praktiki tətbiqini təmin edən vacib mexanizmlər yaradıb.

Bu gün də Ulu Öndərin müəyyən etdiyi həmin xətt müasir dövrün tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev tərəfindən ardıcıl davam etdirilir. Azərbaycan dilinin qorunması, ədəbi dil normalarının inkişafı və onun müasir texnologiyalara inteqrasiyası dövlət siyasətinin prioritet istiqamətləri sırasındadır.

Dövlət başçısı Azərbaycan Milli Elmlər Akademiyasının yubiley tədbirində qeyd etmişdi: "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır".

Bu çağırış dil məsələsinin təkcə dövlət orqanlarının deyil, bütün cəmiyyətin üzərinə düşən milli məsuliyyət olduğunu göstərir.

Bu prosesdə parlamentin öz missiyası var. Çünki qanunvericilik təşəbbüsləri, dilin təhsil proqramlarına inteqrasiyası, elmi terminologiyanın yenilənməsi kimi məsələlər Milli Məclisin daim diqqət mərkəzindədir və parlamentin dəstəyi strateji qərarların ardıcıl və uğurlu şəkildə həyata keçirilməsini təmin edir.

Milli Məclisin Sədri bildirib ki, Azərbaycan dilinin qarşısında müasir dünyanın dinamikasından irəli gələn yeni vəzifələr dayanır. Bu vəzifələr dilin saflığının qorunması, rəqəmsallaşma və yeni texnologiyalara inteqrasiyası, terminologiyaların elmi əsaslarla yenilənməsi və sairədən ibarətdir.

Bütün bu çağırışların təhlili onu göstərir ki, Azərbaycan dilinin yeni inkişaf mərhələsinə qədəm qoyması sistemli, uzunmüddətli və elmi cəhətdən əsaslandırılmış bir yanaşma tələb edir. Odur ki, gələcək dil siyasətinin strateji istiqamətlərini müəyyən etmək ən vacib vəzifələrdən biridir.

Dil siyasətinin yeni mərhələsindən danışan spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, qarşıya qoyulan əsas hədəflər arasında təhsildə müasir metod və texnologiyalarla dil tədrisinin təkmilləşdirilməsi, mediada və ictimai məkanda ədəbi dil normalarına əməl olunmasının gücləndirilməsi, terminologiyanın geniş elmi bazada eyniləşdirilməsi və yenilənməsi, Azərbaycan dilinin dünya elmi və mədəni məkanında nüfuzunun artırılması, Azərbaycan dilinin rəqəmsal və texnoloji platformalarda tam funksional tətbiqi, süni intellekt sistemlərinə dilimizin inteqrasiya səviyyəsinin yüksəldilməsi əsas prioritetlər sırasındadır.

Spiker çıxışında bir daha vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan dilini dövlət müstəqilliyinin əsas atributu kimi müəyyənləşdirdi və dil siyasətini dövlət ideologiyasının ayrılmaz tərkib hissəsinə çevirdi.

Bu gün isə Prezident İlham Əliyev bu strateji xətti daha geniş, innovativ və müasir bir mərhələyə aparır. Onun Azərbaycan Milli Elmlər Akademiyasında çıxışında səsləndirdiyi çağırışlar bir daha göstərir ki, Azərbaycan dili yalnız ünsiyyət vasitəsi deyil, bu dil bizim milli yaddaşımızın aynasıdır, mənəvi irsimizin daşıyıcısı, dövlətçilik təfəkkürümüzün formalaşdığı bir məkandır. Dilimizin yaşaması və inkişafı millətimizin yaşaması və inkişafı deməkdir. Bu dil əsrlərin hikmətini, şairlərin sözünü, düşüncə adamlarının ideyalarını, millətin ruhunu daşıyır.

Çıxışına yekun vuran Milli Məclisin Sədri bildirib ki, biz öz dilimizi qoruduqca güclənəcəyik. Biz bu dili inkişaf etdirdikcə dünyada yerimizi daha qətiyyətlə möhkəmləndirəcəyik. Bu dilin gələcəyinə sahib çıxmaqla, biz əslində Azərbaycanın gələcəyinə sahib çıxırıq.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, AMEA-nın prezidenti, Toponimiya komissiyasının sədri akademik İsa Həbibbəyli, Milli Məclis Sədrinin müavini Rafael Hüseynov, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Rzayev, Xalq şairi Sabir Rüstəmxanlı, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru Nadir Məmmədli, Aidiovizual Şuranın sədri İsmət Səttarov, Milli Məclisin komitə sədrləri - Anar İsgəndərov, Siyavuş Novruzov, Əli Hüseynli, Fazil Mustafa, parlamentin komitə sədrinin müavini Jalə Əliyeva, deputatlar - Hikmət Məmmədov, Cavanşir Feyziyev, Elçin Mirzəbəyli, Elnarə Akimova, AMEA-nın Dilçilik İnstitutunun şöbə müdiri Elçin İsmayılov çıxış ediblər.

Çıxış edənlər Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında Prezident İlham Əliyevin dil siyasəti ilə bağlı səsləndirdiyi fikirləri Azərbaycan dilinin gələcək inkişaf strategiyasını müəyyən edən fundamental tezislər kimi dəyərləndiriblər.

Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dilinin müdafiəsi sahəsində həyata keçirdiyi tarixi siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi dövlət dilinin inkişafında yeni mərhələnin əsasını qoyur. Bildiriblər ki, Azərbaycan dili dövlətçiliyin və xalqın birliyinin mühüm atributu kimi qorunmalı və inkişaf etdirilməlidir. Vurğulanıb ki, Azərbaycan dilinin saflığının təmin edilməsi, lüğət tərkibinin zənginləşdirilməsi, terminoloji sistemin elmi əsaslarla inkişaf etdirilməsi müasir dövrün çağırışları fonunda xüsusi aktuallıq kəsb edir. Bu baxımdan dil siyasətinin sistemli şəkildə həyata keçirilməsi, dövlət orqanlarının, elm və təhsil müəssisələrinin, medianın, ictimai institutların bu prosesdə fəal iştirakı mühüm əhəmiyyət daşıyır.

Çıxışlarda Azərbaycan dilinin saflığının qorunması, mediada dilin düzgün istifadəsi, rəsmi, mədəni və işgüzar mühitdə, ədəbiyyatda, ümumiyyətlə, ictimai həyatın bütün sahələrində ədəbi dil normalarına riayət olunması, təhsil sistemində Azərbaycan dilinin tədrisinin keyfiyyətinin yüksəldilməsi, elmi-metodik əsaslarının təkmilləşdirilməsi, AMEA-nın dövlət dili siyasətinə elmi dəstəyi, normativ bazanın elmi əsaslarla hazırlanması və dövrün çağırışlarına uyğun yenilənməsi, Azərbaycan toponimlərinin qorunması ilə bağlı fikirlər bildirilib, rəy və təkliflər səsləndirilib.

*"Azərbaycan"*

# Milli Məclisdə MDB PA-nın nümayəndə heyəti ilə görüş

**Dekabrın 8-də Bakıda Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının (MDB PA) iştirakçısı olan dövlətlərdə Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq İnstitutunun (DİMBİ) Bakı filialının təşkilatçılığı ilə Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyinə və Azərbaycan Parlamentinin 107 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarından bir qrupu Milli Məclisin Sədr müavini Ziyafət Əsgərovla görüşüblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin verdiyi məlumata görə, qonaqları salamlayan Milli Məclisin Sədr müavini Ziyafət Əsgərov "Heydər Əliyev - Suveren Azərbaycanın Konstitusionalizminin və parlamentarizminin banisi" mövzusunda keçirilən beynəlxalq konfransın əhəmiyyətindən danışıb, Ümummilli Lider Heydər Əliyevin ölkədə konstitusionalizmin və parlamentarizmin formalaşmasında və inkişafında tarixi rolunu qeyd edib.

Sədr müavini söhbət zamanı Azərbaycanda parlamentarizm ənənələrinin inkişafında, dövlət quruculuğunun həyata keçirilməsində, həmçinin Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsində Ümummilli Lider Heydər Əliyevin müstəsna rolu barədə fikirlərini bölüşüb.

Görüşdə çıxış edən MDB PA DİMBİ-nin direktor müavini Yelena Yeremenko və nümayəndə heyətinin üzvləri 2025-ci il - "Konstitusiya və Suverenlik İli" çərçivəsində belə bir tədbirin keçirilməsinin aktuallığını qeyd ediblər, Ulu Öndər Heydər Əliyevin dövlətçilik ənənələrinin banisi kimi tarixi rolunu vurğulayıblar.

Görüşdə Milli Məclisin komitə sədri Arzu Nağıyev, deputatlar Nizami Səfərov və Göydəniz Qəhrəmanov iştirak ediblər.

*"Azərbaycan"*

# Dövlət dilimizi qorumalı və inkişaf etdirməliyik

**Azərbaycan dili xalqımızın milli kimliyini, tarixini və mənəviyyatını yaşadan ən böyük sərvətlərimizdən biridir. Ana dilimizi qorumaq və inkişaf etdirmək bu gün daha da aktual və vacibdir. Dövlətimizin dil siyasətinin əsasını Ulu Öndər Heydər Əliyevin yaratdığı möhkəm strategiya təşkil edir. Ulu Öndər Azərbaycan dilini sadəcə, ünsiyyət vasitəsi kimi deyil, millətin dayağı kimi qiymətləndirir və deyirdi: "Hər bir xalqı yaşadan onun dilidir, dilini itirən xalq məhvə məhkumdur".**

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan dili hələ sovet dövründən konstitusiyada dövlət dili kimi təsbit edilib. Müstəqillik illərində isə bu status daha da gücləndirilib. 2001-ci ildə imzalanmış "Azərbaycan əlifbası və Azərbaycan dili günü haqqında" fərman milli dilimizin yeni inkişaf mərhələsinə keçməsinə ciddi töhfə verib.

Bu strateji xətt hazırda Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirilir. Prezident dilimizin rəqabətqabiliyyətli olması üçün elmi araşdırmaların genişləndirilməsini, rəqəmsal resursların yaradılmasını və dil siyasətinin sistemli aparılmasını vacib hesab edir. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan dilinin saflığını qorumaq və elmi əsaslarla inkişaf etdirmək bütün cəmiyyətin borcudur.

Ana dilimizin cəmiyyətdə geniş tətbiq sahələri var: dövlət idarəçiliyi, təhsil, media, elm mühitində və digər sahələrdə Azərbaycan dili əsas ünsiyyət vasitəsidir. Bununla yanaşı, qloballaşma, texnologiyanın sürətli inkişafı və xarici sözlərin artması kimi problemlər də mövcuddur. Həm Ulu Öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin Azərbaycan dilinə dair yanaşmaları bu çağırışlara cavab verir: dil həm qorunmalı, həm də müasir tələblərə uyğun inkişaf etdirilməlidir.

Müasir qloballaşma şəraitində Azərbaycan dilinin qorunması və inkişafı üçün ilk növbədə onun rəqəmsal bazası genişləndirilməlidir. Bunun üçün yeni mətn bazalarının yaradılması, müxtəlif sahələrdən böyükhəcmli nümunələrin toplanması və bu korpusun süni intellekt və tərcümə sistemləri üçün açıq istifadəyə verilməsi vacibdir.

Eyni zamanda terminologiya sahəsindəki dağınıqlığın azaldılması və aradan qaldırılması məqsədilə hər sahə üzrə kiçik və işlək termin komissiyalarının yaradılması, yeni terminlərin siyahısının ictimaiyyətə açıq platformalarda paylaşılması və müzakirəyə təqdim edilməsi mühüm addım ola bilər.

Digər önəmli istiqamət isə məktəb və universitetlərdə Azərbaycan dilinin innovativ metodlarla tədris edilməsidir. Bunun üçün interaktiv dərs proqramlarının hazırlanması və müəllimlər üçün müasir dil tədrisi üzrə mütəmadi təlimlərin keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

Bundan əlavə, media və sosial şəbəkələrdə dil pozuntularını aşkar edən avtomatik sistemlərin tətbiqi də vacibdir ki, televiziya və onlayn media üçün yazı yoxlama proqramlarının hazırlanması, sosial şəbəkələrdə isə yazı səhvlərini göstərən və düzəlişlər təklif edən tətbiqlərin yaradılması bu istiqamətdə mühüm rol oynaya bilər.

Dilimizin dünyada tanıdılması baxımından isə xaricdə Azərbaycan dili mərkəzlərinin sayının artırılması zəruridir. Böyük şəhərlərdə Azərbaycan dili kurslarının açılması üçün müxtəlif təşkilatlarla əməkdaşlıq edilməsi və həmin mərkəzlərdə həm dil, həm də mədəniyyətə dair tədbirlərin təşkili məqsədəuyğun olardı.

Nəticə olaraq Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasət və müasir yanaşmalar göstərir ki, Azərbaycan dili həm keçmişimiz, həm də gələcəyimiz üçün əsas dayaqlardan biridir və bu dili qorumaq və inkişaf etdirmək hər birimizin müqəddəs borcudur.

***Vasif QAFAROV,***
***Milli Məclisin deputatı***

# Milli Məclisdə "İqlim dəyişikliyi ilə mübarizədə süni intellektin rolu" mövzusunda elmi-praktik konfrans olub

**Dekabrın 8-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin təşkilatçılığı ilə "İqlim dəyişikliyi ilə mübarizədə süni intellektin rolu" mövzusunda elmi-praktik konfrans keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov iclası açaraq, iqlim dəyişmələrinə enerji istehsalının, nəqliyyatın, sənayenin, kənd təsərrüfatının və digər amillərin təsirindən bəhs edib. Bu problemin təsirini azaltmaq üçün süni intellektin güclü bir vasitə olduğu qeyd edilib, süni intellektin iqlim dəyişikliyinə təsirinin araşdırılmasından, onun tətbiqinin üstünlüklərindən və gələcək perspektivlərindən danışılıb.

Komitə sədri ölkəmizdə süni intellektin inkişafının dövlət səviyyəsində prioritet məsələlərdən olduğunu söyləyib. "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın tətbiqinin önəmindən danışıb. Ölkə Prezidentinin elmin, innovasiyaların, yüksək texnologiyaların, o cümlədən süni intellektin Azərbaycanın gələcək modernizasiyasında aparıcı mövqeyini hər zaman qeyd etdiyini vurğulayıb. O, süni intellekt strategiyasının Azərbaycanda bu sahədə tədqiqatların aparılması, informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, infrastrukturun əlçatanlığının təmin edilməsi, habelə ixtisaslı kadr potensialının hazırlanması baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Sadiq Qurbanov mövzunun aktuallığını nəzərə alaraq bugünkü elmi-praktik konfransın keçirilməsinə şərait yaratdığına görə parlamentin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib. Komitə sədri süni intellekt Strategiyasının həyata keçirilməsində Milli Məclisin rolu və qanunvericilik təşəbbüsləri ilə bağlı fikirlərini açıqlayıb. O qeyd edib ki, Milli Məclis bu gün cəmiyyətin institusional inkişafında, dövlət siyasətinin strategiyasının müəyyənləşdirilməsində, innovativ idarəetmə modelinin formalaşmasında önəmli rol oynayır. Bildirib ki, qlobal rəqabət, iqlim çağırışları, rəqəmsal transformasiya dövründə qanunvericilik sisteminin çevikliyi və yenilənməsi xüsusi əhəmiyyət kəsb edir.

Komitə sədri nəzərə çatdırıb ki, süni intellekt sahəsində həyata keçirilən islahatların, o cümlədən 2025-2028-ci illər üçün süni intellekt Strategiyasının səmərəli icrası, eyni zamanda qanunverici hakimiyyətdən ardıcıl və məqsədyönlü yanaşma tələb edir. O bu baxımdan süni intellektin tətbiqini, məlumatların idarə olunmasını, etik standartları, kibertəhlükəsizliyi, ekologiya və iqlim üzrə tənzimləyici vəzifələrin təkmilləşdirilməsini nəzərdə tutan müasir qanunvericilik bazasının formalaşdırılmasının vacibliyini qeyd edib.

İclasda Milli Məclisin komitə sədrləri Zahid Oruc, Arzu Nağıyev, deputatlar Nigar Arpadarai, Rəşad Mahmudov, Nigar Məmmədova, Asif Əsgərov, Azər Allahverənov, habelə energetika nazirinin müavini Elnur Sultanov, rabitə və yüksək texnologiyalar nazirinin müavini Saməddin Əsədov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, akademik, AMEA-nın vitse-prezidenti Arif Həşimov, akademik Adil Qəribov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müavini Ceyhun Salmanov, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Süni intellekt layihəsinin rəhbəri Surxay Novruzov çıxış ediblər.

Çıxışlarda süni intellekt texnologiyalarının son illərdə sürətlə inkişaf etdiyi və iqlim dəyişikliklərinə qarşı mübarizədə böyük potensiala malik olduğu bildirilib. Süni intellekt vasitəsilə iqlim dəyişikliklərinin təsirlərinin qabaqcadan təhlili, təbii fəlakət risklərinin azaldılması və ekosistemlərin qorunması sahələrində yeniliklərin əldə edilməsindən söhbət açılıb. Ətraf mühitin qorunması və karbon emissiyalarının azaldılması istiqamətində süni intellektin mühüm töhfələr verdiyi qeyd olunub. Süni intellektin iqlim dəyişikliyi ilə mübarizədə enerji səmərəliliyinin artırılması, proqnozlaşdırma, dayanıqlı kənd təsərrüfatı kimi sahələrdə əsas alətə çevrildiyi vurğulanıb. Həmçinin süni intellektin sənayelərin transformasiyasına və iqlim tədbirlərinin həyata keçirilməsinə verdiyi töhfələrdən bəhs edilib. Bu texnologiyaların enerji və su səmərəliliyinin artırılmasında, hava şəraitinin proqnozlaşdırılmasında və çirklənmənin azaldılmasında oynadığı roldan danışılıb.

Müzakirələrdə süni intellektin tətbiqi sahəsində dünya təcrübəsindən nümunə gətirilib, ölkəmizdə Süni İntellekt Akademiyasının yaradılmasının vacibliyi qeyd olunub, süni intellekt sahəsində data və infrastrukturun formalaşdırılması, insan amilinin təsiri, məlumatların idarə edilməsi, infrastrukturun təkmilləşdirilməsi, süni intellekt modellərinin tətbiqi sayəsində əldə ediləcək nəticələr barədə fikirlər açıqlanıb.

Çıxışlarda habelə süni intellekt Strategiyasının əhəmiyyəti vurğulanıb. Strategiya çərçivəsində maarifləndirmə, ictimaiyyətin məlumatlandırılması, o cümlədən süni intellektin potensialı və riskləri haqqında təşviqat işinin aparılmasının rolundan danışılıb.

Tədbirdə Milli Məclisin deputatları, parlament Aparatının təmsilçiləri, aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

*"Azərbaycan"*

# Azərbaycanın özü qədər əbədi



# Ulu Öndərin möhtəşəm işləri heç vaxt unudulmayacaq

**O xoşbəxt insanlardanam ki, Ulu Öndərin hakimiyyətə gəldiyi ilk gündən son günədək onun səmərəli fəaliyyətini və gördüyü möhtəşəm işləri izləmək mənə də qismət olub. Odur ki, həmin unudulmaz günlərin şahidi kimi xatirələrimi bölüşmək istəyirəm.**

Göz önünə ilk olaraq 1982-ci il gəlir. Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü seçilmiş, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi çox yüksək vəzifəyə təyin olunmuşdu. Uzun müddət ölkəmizə rəhbərlik edən (1969-1982) bu böyük şəxsiyyətlə Orconikidze adına klubda (indiki Şəhriyar) görüş keçirilirdi. O vaxt mən M.F.Axundov adına Pedaqoji İnstitutda Partiya Komitəsi katibinin ideoloji işlər üzrə müavini idim. Yığıncaqda iştirak edirdim. Hamı için-için ağlayırdı. Bu, ümumxalq məhəbbətinin təzahürü idi. Ayrılanda Heydər Əliyevin də duyğulandığını hiss etdik. Sözüm odur ki, xalqın Heydər Əliyevə məhəbbəti heç vaxt səngiməmədi. Bu, sonsuz məhəbbətin nəticəsi idi ki, o, Moskvada işdən ayrılıb vətənə dönəndə də xalqın istəyi və təkidli tələbi ilə yenidən hakimiyyətə gəldi və xalqı düçar olduğu bəladan xilas etdi.

Azərbaycan tarixində bir epoxa olan, xalqın tarixi müqəddəratında həlledici rol oynayan, adı tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xüsusi qayğı göstərirdi.

Ulu Öndərin əvəzsiz xidmətlərindən biri Novruzun dövlət səviyyəsində bayram edilməsinə rəvac verməsi idi. 1979-cu ildə İçərişəhərin Qoşa qala qapısı meydanında möhtəşəm Novruz bayramı şənlikləri keçirilirdi. Bayram şənliyini televiziya qarşısında əyləşib izləyirdim. İnsan axını hər yanda müşahidə olunurdu. Gözlənilmədən əlamətdar bir hadisə baş verdi. Ecazkar bir musiqi, ecazkar sözlər, məlahətli səs hamını ovsunladı. Müğənni Nazpəri Dostəliyeva "Naxçıvani" aşıq havası üstündə Azaflı Mikayılın "Ağarmayın, ay saçlarım, amandır" mahnısını oxuyurdu. Hamı donub yerində qalmışdı. Elə həmin vaxt Ulu Öndərimiz və cənab İlham Əliyev meydandan keçib gedirdi. Onlar da dayanıb qəlblərə od salan mahnını axıra kimi dinlədilər.

Ümummilli Lider aşıq və klassik musiqilərini, xalq musiqisini də, muğamı da çox sevirdi. Yaxşı yadımdadır, Ulu Öndərin təşəbbüsü ilə hər cümə günü filarmoniyada "Klassik musiqi axşamı" keçirilirdi. Çox vaxt konsertdə özü də iştirak edirdi.

Heç vaxt unudulmaz, şirin xatirətək yadımdan çıxmayan bir hadisədən də söz açmaq istəyirəm. Ümummilli Lider Moskvada işdən çıxıb vətənə dönmüşdü. Hamı onu görmək arzusu ilə yaşayırdı…

Filarmoniyada yazıçıların qurultayının keçirildiyi yığıncağın başlamasına az qalırdı, təəssüflə ürəyimdən belə bir fikir keçirdim: "Bu qurultayımız Heydər Əliyevsiz keçirəcəyimiz yeganə qurultaydır". Elə bu vaxt kimsə arxadan qışqırdı: "Heydər Əliyev gəlir!" Hamı ayağa qalxıb sürəkli alqışlarla həmişə yazıçıların dayağı olmuş bu görkəmli şəxsiyyəti layiq olduğu səviyyədə qarşıladı. Nəhayət, Heydər Əliyev əlini qaldıraraq sakitləşməyi xahiş etdi. Yazıçılar Birliyinin sədri Anar Ulu Öndəri Rəyasət Heyətinə dəvət etdi. Heydər Əliyev isə "Anar, mən oradan zala çox baxmışam. Bu dəfə zaldan Rəyasət Heyətinə baxmaq istəyirəm" deyib zalda oturacaqların birində əyləşdi.

Şair Məmməd Aslan başda olmaqla bir qrup dayanmadan səsləndi: "Heydər Əliyev Rəyasət Heyətinə dəvət olunsun!"

Anar müəllim dedi: "Məmməd, sakit olun! Qərar Heydər Əliyevindir".

Qurultayın gedişində son aylar Füzulinin mavzoleyinin sökülməsi və qəbrin düzəldilməsi barədə mətbuatda yer alan söz-söhbətə də toxunuldu. Bəziləri tələb edirdi ki, Füzulinin nəşi Azərbaycana gətirilsin. Onlar buna görə dövləti fəaliyyətsizlikdə günahlandırırdılar. Heydər Əliyev buna müdaxilə etməli oldu: "Əvvəla, bu, çox çətin məsələdir. Məlumdur ki, Füzuli İraqda anadan olub, orada yaşayıb-yaradıb, orada da dünyasını dəyişib. O, İraq şairi kimi tanınır. Bu işə dövlətin qarışması münasib deyil. Siz yazıçılar, ziyalılar, alimlər İraq dövlətinə müraciət edə bilərsiniz..."

Vaxt keçdi. Çox hadisələr baş verdi. Xalqın tələbi ilə Heydər Əliyev ölkəmizdə yenidən hakimiyyətə gəldi. 1994-cü ildə qarşıdan dahi Azərbaycan şairi Füzulinin 500 illik yubileyi gəlirdi. Şairin yubileyinin ölkəmizdə və İraqda keçirilməsinə böyük hazırlıq gedirdi.

Təəssüf ki, Füzulinin yubileyi ərəfəsində ABŞ başda olmaqla Qərb dövlətləri İraq Respublikası nefti milliləşdirdiyinə görə başqa ərəb ölkələrinə görk olsun deyə onu cəzalandırmaq qərarına gəlmişdilər. Ölkə elə blokadaya alınmışdı ki, İraq başqa ölkələrə hava-su kimi lazım olan neftini də sata bilmirdi. Bu ölkə ağır maliyyə çətinlikləri ilə üzləşmişdi. Bu səbəbdən bəzi dövlətlərdə, eləcə də Azərbaycanda bu ölkənin səfirliyinin bağlanması gündəmdə idi.

İraqın Azərbaycandakı səfiri, əslən İraq türkmanlarından olan Fərrux Davud Salman məni çağırıb dedi ki, lazımi yerlərə xəbər verin. Vaxt itirmədən baş nazirin müavini Elçin Əfəndiyevin yanına getdim. Elçin müəllim çox məyus oldu və dedi ki, zəngimi gözlə. Üç gündən sonra Elçin müəllim məni çağırıb dedi ki, dövlət bu işə qarışa bilməz. Məsləhət görüldü ki, ziyalılarımız İraq Prezidentinə məktub ünvanlasın.

Filarmoniyada yazıçıların qurultayında Füzulinin qəbrinin Azərbaycana gətirilməsi müzakirə olunanda Heydər Əliyevin dediyi sözlər göz önünə gəldi: "Dövlətin bu işə qarışması münasib deyil. Siz yazıçılar, ziyalılar, alimlər İraq dövlətinə müraciət edə bilərsiniz".

Aydın oldu ki, məsləhəti bu dəfə də Ulu Öndər verib.

Səfirlik və ziyalılarımızla əlaqə uzun müddət İraqda işlədiyimə görə mənə həvalə olunmuşdu.

22 aprel 1994-cü ildə İraq Prezidentinə məktub ünvanladıq. Bu çox gərəkli məktubu Azərbaycanın hüdudları xaricində də yaxşı tanınan Mikayıl Abdullayev, Anar, Ziya Bünyadov, Bəxtiyar Vahabzadə, Yaşar Qarayev, Tofiq Quliyev, Vasim Məmmədəliyev, Bəkir Nəbiyev, Qəzənfər Paşayev, Nurəddin Rzayev, Sabir Rüstəmxanlı, Eldar Salayev, Nəbi Xəzri və başqaları imzaladılar.

Ulu Öndərin uzaqgörənliyi öz işini gördü. İraq səfirliyi Azərbaycanda fəaliyyətini davam etdirdi.

Heydər Əliyev dəyirmanda un, tabaqda çörək, xəzinədə pul çox az olan bir vaxtda, 1994-cü ilin sentyabrında 128 nəfərdən ibarət nümayəndə heyətinin Füzulinin 500 illik yubileyində iştirak etmək üçün avtobuslarla İraqa getməyinə göstəriş verdi. Bu təkcə Füzulinin yaradıcılığına verilən yüksək qiymət deyildi. Bu həm də onun Azərbaycan dilində ölməz əsərlər yazan dahi şairə ilham verən İraq türkmanlarına dərin ehtiram əlaməti idi. Ulu Öndər yaxşı bilirdi ki, onlar soydaşlarımızdır. Ümummilli Liderin dostu İhsan Doğramacının xahişi ilə İraq türkmanlarının İstanbulda çıxan "Qardaşlıq" dərgisinə verdiyi müsahibədə bu münasibətlə demişdir: "Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır" ("Qardaşlıq", №8, İstanbul, 2000, s.4). Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Bakıda Məhəmməd Füzuliyə əzəmətli heykəlin ucaldılması da çox mətləblərdən xəbər verir.

Unuda bilmədiyim başqa bir fakt isə Ulu Öndərin milli-mənəvi dəyərlərimizə verdiyi yüksək qiymətlə bağlıdır. 1994-cü il noyabrın 2-də Ankaraya Füzulinin yubileyinə Heydər Əliyevin təyyarəsində getdik.

Görəsən bunu hansı dövlət başçısı edərdi?

Ümummilli Liderlə bağlı başqa bir əlamətdar hadisəni də yada salmaq istərdim. Yollar açılandan sonra həcc ziyarətinə ilk gedən Heydər Əliyev və təyyarəsində özü ilə apardığı ziyalılarımız, alimlərimiz, yazıçı və şairlərimiz oldu.

Ulu Öndər şəriətə və elmə xüsusi diqqət yetirirdi. 1997-ci ildə Ulu Öndərin təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Elmi-Dini Şuranın yaradılması deyilənin bariz nümunəsidir. Elmi-Dini Şuranın tərkibi akademik Vasim Məmmədəliyev (sədr), Şeyxülislam Allahşükür Paşazadə, o dönəmdə Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, akademiklər Fuad Qasımzadə, Bəkir Nəbiyev, Teymur Bünyadov, Zeynal Səmədzadə, professorlar İsrafil İsrafilov və Qəzənfər Paşayevdən ibarət idi. Ulu Öndər bu tərkibi nəzərdən keçirib bəyənmişdi.

Daha bir xatirəmi də danışmaq istərdim. Az adam bilir ki, Heydər Əliyev mənim də taleyimdə müstəsna rol oynayıb. Dillər İnstitutunun ingilis-Azərbaycan dilləri fakültəsində IV kurs tələbəsi olarkən ingilis və rus dillərini bildiyimə görə xaricdə tərcüməçi işləmək üçün sənədlərimi hazırlamaq məsləhət görülmüşdü. İkinci Dünya müharibəsi vaxtı atam neytral dövlət olan İsveçrəyə gedib çıxmışdı. O, əsir düşməmişdi, bununla belə sovet quruluşunun belə hallara qarşı amansızlığını göz önünə gətirəndə şansımın az olduğunu düşünürdüm.

On iki il Ulu Öndərin rəhbərliyi altında işləmiş general və gözəl yazıçı Yasif Nəsirli şahidlik edir ki, Heydər Əliyev mənim sənədlərimi diqqətlə oxuyandan sonra imzalayıb və deyib: "Gəncdir, qoy getsin, inkişaf etsin".

Heydər Əliyevlə bağlı xatirələrim çoxdur. Əsasən də doğma kəndim Düzqırıxlıda (Tovuz rayonu) kənd klubunda keçən əsrin 70-ci illərində Ümummilli Liderin 3 dəfə (1975, 1977, 1980) Respublika Üzümçülərinin Zona Müşavirəsini keçirərkən baş verən maraqlı hadisələr bu gün də gözümün önündədir. Onu da deyim ki, Ulu Öndər yeni bir üzüm sortunu bizim kənddə Abbas Xəlfəqulu oğlunun sahəsində əkmişdi. Respublika rəhbəri Abbas kişinin bol məhsullu üzüm sahəsində olarkən demişdi: "Ağsaqqal, biz Bakıdan gəlmişik, nəyə ehtiyacın var, arzun nədir?" Abbas kişi demişdi: "Qadan alım, heç nəyə ehtiyacım yoxdur. Arzum isə odur ki, gedək qonağım ol, beş-altı toğlum var, birini kəsim. Siz gedəndən sonra qürrələnim ki, böyük bir adam qonağım olub". Heydər Əliyev ürəkdən gülərək söyləmişdi: "Bizim böyük olduğumuzu haradan bildin?" "Qadan alım, bunu bilməyə nə var ki? Yaşım 70-dən yuxarıdır, ömrümdə bir kişinin başına bu qədər adam yığışdığını görməmişəm". Ulu Öndər yenə ürəkdən gülmüş və demişdi: "İndi tələsirik. Çalışaram, gələn dəfə qonağın olum".

İbrətamiz bir məsələdən də danışmaq istərdim. Heydər Əliyev Moskvada yüksək vəzifədən kənarlaşandan sonra bəzi nankor məmurlar onun portretlərini yığışdırmağa çalışırdılar. Kiçik qardaşım Ələsgər müəllim portretləri kəndin iki orta məktəbindən, sovxoz və kənd soveti idarələrindən, xəstəxanadan, sənət məktəbindən, Heydər Əliyevin Respublika Üzümçülərinin Zona Müşavirəsini keçirdiyi klubdan yığaraq evinə gətirmişdi. Onları bir otağa yığmışdı. Özü də həmin otaqda yatırdı. Tale elə gətirdi ki, Heydər Əliyev xalqın istəyi ilə yenidən hakimiyyətə gələndə portretlər əvvəlki yerini bəzədi. Onu da deyim ki, nəslimizdə Ulu Öndərə məhəbbət sahilsiz ümmana bənzəyir. Ələsgər müəllimin qızı, mərhum deputat Qənirə Paşayeva belə bir mühitdə böyümüş, Heydər Əliyev məktəbinin müdavimi olmuşdu.

Mənim də başıma heç vaxt unutmayacağım bir hadisə gəlib. BDU-nun Tarix fakültəsində dərs deyirdim. Ağır vaxtlar idi. Ölkə çalxalanırdı. Milli-mənəvi dəyərlər tapdanırdı. Bir gün 2 gənc tələbəm - Müşfiq və Elnur sual verdilər: "Müəllim, ölkədəki vəziyyətdən nicat yolunu nədə görürsünüz?". Mən fikirləşmədən dedim: "Ölkəni bu vəziyyətdən yalnız dövlətçilik təcrübəsi zəngin olan Heydər Əliyev çıxara bilər". O vaxt Ulu Öndər hələ Naxçıvanda idi.

Dünyanın gedişatını dərk edə bilməyən bu iki gənc bu qənaətimə görə mənə etiraz etdi. Təəssüf hissi keçirdim ki, Tarix fakültəsində oxuyan bu iki gənc tarixin ibrət dərslərindən xəbərsiz idilər.

Görkəmli alim dostum Abbas Zamanov mənə təsəlli verərək deyirdi: "Qəzənfər, məni ermənı dığalarına görə işdən və partiyadan çıxartdılar, mən sınmadım. Sənə o boyda kişiyə görə qarşı çıxırlarsa, bunu ürəyinə salma. Görərsən, Heydər Əliyev hakimiyyətə yenidən qayıdacaq. O gənclər səhvlərini başa düşəcəklər". Abbas müəllimin dediyi kimi də oldu. Sonralar Müşfiq gəlib üzr istədi. Sevindim ki, Müşfiq Heydər Əliyevin böyüklüyünü dərk edib.

Heydər Əliyevin hər sözü, hər kəlamı bir nümunə məktəbi, örnək idi. Xalq şairi Qabil deyirdi ki, Heydər Əliyev hakimiyyətə gələndən sonra həyata keçirdiyi ilk layihələrdən biri Bibiheybət qəsəbəsi yaxınlığında Şıx çimərliyinin üst tərəfində park saldırmaq oldu. Bütün təşkilatlar bu işə cəlb olunmuşdu. İməcilikdə Heydər Əliyev şəxsən iştirak edirdi. Yazıçıların sahəsinə gəlib bizimlə söhbət etdi. Azərbaycanca elə səlis, elə mənalı danışırdı ki, heyran oldum və dedim: "Heydər müəllim, siz azərbaycanca nə gözəl danışırsız".

Heydər Əliyev üzünü Qabilə çevirib dedi: "Qabil, sən desən ki, mən ingiliscə, almanca gözəl danışıram, təəccüblənməzdim. Ana dilini hamı yaxşı bilməlidir. Xalqın milli kimliyinin, mənsubiyyətinin göstəricisi ana dilidir".

Hər dəfə Ümummilli Lider Heydər Əliyev haqqında düşünəndə iftixar hissi keçirirəm ki, mən də bu nadir tarixi şəxsiyyətin soydaşıyam. Ulu Öndərin ölkəyə rəhbərliyinin hər iki dövründə onun titanik fəaliyyətini izləmək, adı və əməlləri Azərbaycan tarixinə qızıl hərflərlə yazılan bu dahi insanın xalqımız qarşısında misilsiz xidmətlərinin şahidi olmaq xoşbəxtliyi mənə də qismət olub.

*Qəzənfər PAŞAYEV,*
*Əməkdar elm xadimi, professor*

## "Heydər Əliyev - suveren Azərbaycanın konstitusionalizminin və parlamentarizminin banisi" mövzusunda beynəlxalq konfrans keçirilib



**Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının (MDB PA) iştirakçısı olan dövlətlərdə Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi Beynəlxalq İnstitutu (DİMBİ) Bakı filialının təşkilatçılığı ilə Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyinə və Azərbaycan parlamentinin 107 illiyinə həsr olunmuş "Heydər Əliyev- suveren Azərbaycanın konstitusionalizminin və parlamentarizminin banisi" mövzusunda beynəlxalq konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfransı MDB PA DİMBİ Bakı filialının direktoru Ramin Rzayev açaraq, filialın əməkdaşları və ekspertləri tərəfindən aparılmış elmi-tədqiqat işinin nəticəsi olaraq hazırlanmış nəşrlər barədə məlumat verib. Bildirib ki, nəşrlər Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkədə konstitusionalizm və parlamentarizmin formalaşmasında və inkişafında tarixi rolunun və çoxşaxəli xidmətlərinin hərtərəfli və sistemli təhlilinə həsr olunub. R.Rzayev həmçinin vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi dövründə ictimai-siyasi, sosial-iqtisadi və mədəni sahələrdə əldə olunmuş mühüm nailiyyətlər, eləcə də Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi Ulu Öndər Heydər Əliyevin uzaqgörən strateji xəttinin ardıcıl və uğurlu şəkildə davam etdirilməsinin bariz göstəricisidir.

MDB Parlamentlərarası Assambleyası Şurası baş katibinin müavini - Azərbaycan Respublikası Milli Məclisinin MDB Parlamentlərarası Assambleyasında səlahiyyətli nümayəndəsi Aydın Cəfərov tədbir iştirakçılarına MDB PA Şurası Katibliyinin rəhbəri - baş katib Dmitri Arkadyeviç Kobitskinin adından salamlama nitqini çatdırıb. O, konfransın təşkilinə göstərilən dəstəyə görə Azərbaycan Respublikasının Milli Məclisinə və MDB PA Şurası Katibliyinə minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən deputatlar Arzu Nağıyev, Nizami Səfərov və Göydəniz Qəhrəmanov Azərbaycanda parlamentarizm ənənələrinin inkişafının, konstitusionalizmin nəzəri və praktiki aspektlərinin dərindən öyrənilməsinin dövlətçilik quruculuğunun təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıblar. Onlar həmçinin Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsində Ümummilli Lider Heydər Əliyevin müstəsna rolunu xüsusi qeyd ediblər

MDB PA DİMBİ-nin direktor müavini Yelena Yeremenko çıxışında Azərbaycanda "Konstitusiya və Suverenlik İli" çərçivəsində belə bir tədbirin keçirilməsinin aktuallığını qeyd edib.

Konfrans iştirakçıları Azərbaycan Respublikasının Konstitusiyasının ölkənin hüquq yaradıcılığı sistemində əsas baza rolunu oynadığını, eləcə də Ulu Öndər Heydər Əliyevin dövlətçilik ənənələrinin banisi kimi tarixi rolunu xüsusilə qeyd ediblər.

Tədbirin sonunda bu ilin noyabr ayında keçirilmiş "Dünya ölkələrinin seçki sistemləri" VI beynəlxalq tələbə internet-olimpiadasının qalibləri mükafatlandırılıb.

Sonda konfrans iştirakçılarına MDB PA DİMBİ Bakı filialı və ekspertləri tərəfindən hazırlanan, Azərbaycan Respublikasının Konstitusiyası və parlamentinin tarixini əks etdirən "Heydər Əliyev - suveren Azərbaycanın konstitusionalizminin banisi" və "Azərbaycan Respublikasında parlamentarizmin formalaşması: tarix və müasirlik" adlı kitablar təqdim edilib.

## Aktau şəhərində elmi-praktik konfrans olub

**Qazaxıstanın Aktau şəhərində, Ş.Yessenov adına Xəzər Texnologiya və Mühəndislik Universitetində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə əlaqədar "Heydər Əliyev və Qazaxıstan: Liderlik, irs və müasir əhəmiyyət" adlı elmi-praktik konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycanın Aktaudakı baş konsulluğunun və "Azərbaycan Mərkəzi"nin təşkilatçılığı ilə baş tutub.

Tədbirdə universitetin rəhbərliyi, müəllimlər və tələbələr, diplomatlar və diaspor nümayəndələri iştirak ediblər. Konfrans iştirakçıları əvvəlcə Ulu Öndərin həyat və fəaliyyətinə dair kitablarla tanış olublar.

Konfransı "Azərbaycan Mərkəzi" İctimai Fondunun rəhbəri İlkin Orucov açıb.

Universitetin prezidenti-rektoru Berik Axmetov Qazaxıstanla Azərbaycan arasında ikitərəfli münasibətlərdən söz açıb, Heydər Əliyevin qardaşlıq əlaqələrinin inkişafına verdiyi mühüm töhfələri qeyd edib.

Baş konsul Ayxan Süleymanlı, "Dostluq" Etnomədəni Birliyinin sədri Şəmsəddin Hüseynovun, diaspor üzvü Yusif Quliyevin çıxışları dinlənilib. Həmçinin tədbirə Azərbaycandan onlayn qoşulan AMEA və Beynəlxalq Astronavtika Akademiyasının müxbir üzvü professor Vəli Hüseynov, Bakı Dövlət Universitetinin professoru Eldar Cəfərov və həmin universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, eləcə də Azərbaycan Universitetinin kafedra müdiri Elvin Talışinski çıxış ediblər.

Çıxışlarda Ulu Öndər Heydər Əliyevin Azərbaycan və türk dünyasının çoxəsrlik dövlətçilik tarixində xüsusi yer tutduğu, müasir Azərbaycan dövlətinin memarı olduğu, ölkəmizin əldə etdiyi uğurların məhz onun siyasi irsi ilə bağlı olduğu vurğulanıb.

# Azərbaycanın xarici siyasətinin uğurları

# Azərbaycan-Qırğızıstan: ortaq kökdən birgə əməkdaşlığa



**Azərbaycan digər türkdilli dövlətlərlə olduğu kimi, Qırğızıstanla da ikitərəfli əlaqələrin inkişafında maraqlıdır və bu səbəbdən xüsusən iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın genişləndirilməsi üçün tədbirlər görür. Bu gün Azərbaycan-Qırğızıstan iqtisadi əlaqələri regionda yeni logistik imkanların formalaşması, qarşılıqlı sərmayə layihələri və artan ticarət dövriyyəsi ilə xarakterizə olunur.**

İqtisadi əməkdaşlıq fonunda yüksəksəviyyəli dövlət və hökumət rəsmilərinin qarşılıqlı səfərləri, iki ölkənin iş adamlarını bir araya gətirən biznes-forumların keçirilməsi əlaqələrin inkişafında mühüm rol oynayır. Bu baxımdan bir neçə gün əvvəl Qırğız Respublikası Nazirlər Kabineti Sədrinin müavini Bakıt Torobayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıya səfəri xüsusi əhəmiyyət kəsb edir. Nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev Azərbaycan-Qırğızıstan münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini vurğulayaraq iqtisadi tərəfdaşlığın dərinləşməsinin hər iki xalqın maraqlarına xidmət etdiyini bildirib. Dövlətimizin başçısı söhbət zamanı Azərbaycan-Qırğızıstan Birgə İnvestisiya Fondundan söz açıb, ölkəmizin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olduğuna toxunaraq bildirib ki, bu amil Mərkəzi Asiya ölkələri ilə Cənubi Qafqaz regionunu bir-birinə sıx bağlayacaq, hər iki istiqamətdə fasiləsiz və sabit yükdaşımanın təmin edilməsində, xalqlarımız arasında qardaşlıq əlaqələrinin möhkəmlənməsində böyük rol oynayacaq.

Xatırladaq ki, Azərbaycan-Qırğızıstan Birgə İnvestisiya Fondu 2022-ci il oktyabrın 11-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində "Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında Saziş" əsasında yaradılıb. Fond hazırda iki ölkə arasında iqtisadi əməkdaşlığın ən səmərəli platformalarından biri kimi çıxış edir. İqtisadiyyatın modernləşdirilməsi, yeni fürsətlərin dəyərləndirilməsi və biznes mühitinin canlandırılması məqsədi daşıyan fond həm Azərbaycan, həm də Qırğızıstan sahibkarlarını bir araya gətirərək real layihələrin həyata keçirilməsinə təkan verir. Qurum təkcə maliyyə institutu deyil, həm də iki dost ölkənin iqtisadi tərəfdaşlığını yeni mərhələyə daşıyan strateji körpüdür. Bu platforma çərçivəsində aqrar-sənaye kompleksi, energetika, bağçılıq, tekstil, turizm və digər sahələr üzrə birgə təşəbbüslərin maliyyələşdirilməsi planlaşdırılır.

Azərbaycan və Qırğızıstan üçün iqtisadi inteqrasiyanın güclənməsi yalnız rəqəmlərlə ölçülən deyil, həmçinin regional sabitliyin möhkəmlənməsi, qarşılıqlı asılılığın artması və ümumi rifahın təmin olunması baxımından strateji əhəmiyyəti olan prosesdir. İki ölkənin bir-birinə artan inamı iqtisadi sahədə konkret addımlar və yeni layihələrlə öz təsdiqini tapır. Ticarət əlaqələrinin genişlənməsi isə bu əməkdaşlığın ən görünən və ən praktik nəticələrindən biridir. Azərbaycanın Qırğızıstana neft və kimya sənayesi məhsulları, metal məmulatları ixrac etməsi, Qırğızıstanın isə Azərbaycana ekoloji təmiz kənd təsərrüfatı məhsulları, yüngül sənaye məmulatları və digər istehlak malları göndərməsi qarşılıqlı iqtisadi münasibətləri nümayiş etdirir. Bu proses hər iki bazarın imkanlarını genişləndirir, sahibkarların yeni istiqamətlərə çıxışını təmin edir.

Nəqliyyat sahəsi Azərbaycan-Qırğızıstan əməkdaşlığının ən perspektivli istiqamətlərindən biridir. Xüsusən Orta dəhliz çərçivəsində yüklərin daşınması üçün yaranan yeni imkanlar Qırğızıstanın beynəlxalq bazarlara çıxışını asanlaşdırmaqla yanaşı, Azərbaycanın regional logistika mərkəzi kimi rolunu da gücləndirir. Azərbaycanın tranzit və liman potensialının artırılmasını strateji prioritet hesab edən Prezident İlham Əliyev 2022-ci ildə Azərbaycan ilə Qırğızıstan arasında I Dövlətlərarası Şuranın iclasında belə deyib: "Bu gün açıq dənizlərə çıxışı olmayan Azərbaycan artıq mühüm nəqliyyat şəbəkəsi yaradıb. Əlbəttə ki, Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu Orta dəhlizin bir hissəsi olacaq. Bunun indi baş verməsi də, əlbəttə ki, anlaşılandır. Lakin əsas odur ki, bizim regionda və Qərbi Xəzər regionunda həyata keçirilən bütün bu layihələr elə sinxronlaşdırılmalıdır ki, biz liman imkanlarımızın həm artırılmasını, həm də genişləndirilməsini planlaşdıra bilək".

İnvestisiyaya gəlincə, son illər qarşılıqlı investisiya qoyuluşu sahəsində maraq hər iki dövlət üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın Qırğızıstanda energetika, bankçılıq, tikinti və xidmət sektorlarında investisiya imkanları genişlənir. Qırğızıstan isə Azərbaycanda aqrar sektor, turizm və logistika sahələrində əməkdaşlıqda maraqlıdır. Tərəflər iqtisadi əlaqələri daha institusional formada inkişaf etdirmək üçün müxtəlif hökumətlərarası komissiyaların fəaliyyətini gücləndirirlər. Təsadüfi deyil ki, Prezident İlham Əliyev qeyd olunan qəbulda İssık-Kul gölünün sahilində beşulduzlu mehmanxana tikintisi üzrə imzalanmış sazişi xüsusi vurğulayıb. Məlumat üçün bildirək ki, "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında İssık-Kul gölünün sahilində beşulduzlu mehmanxananın tikintisi üzrə investisiya qoyuluşu haqqında Saziş" təsdiq edilib. Bununla bağlı Prezident İlham Əliyev müvafiq fərman imzalayıb.

Azərbaycan və Qırğızıstan arasında həyata keçirilən irihəcmli investisiya təşəbbüsləri iki ölkənin iqtisadi tərəfdaşlığının getdikcə dərinləşdiyini nümayiş etdirir. Bu əməkdaşlığın davamlı xarakter almasının növbəti göstəricisi isə Qırğızıstan Prezidentinin təşəbbüsü ilə Ayköl Manas adına 528 şagirdlik Xıdırlı kənd məktəbinin tikintisinə dair verilmiş qərardır. Bakıda görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin ucaldılması, Bişkekdə Qırğızıstan-Azərbaycan Dostluq Parkının yaradılması və Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin açılması da bu qəbildən olan iki ölkə arasında qarşılıqlı investisiya layihələrinin, humanitar və mədəni əməkdaşlığın nümunələridir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanla Qırğızıstan arasında Hökumətlərarası Komissiyanın 6-cı iclası keçirilib



**Dekabrın 8-də Bakı şəhərində Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar əməkdaşlıq üzrə birgə Hökümətlərarası Komissiyanın 6-cı iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, komissiyanın Azərbaycan tərəfdən həmsədri Samir Şərifovun və Qırğız Respublikası Nazirlər Kabineti Sədrinin müavini, komissiyanın Qırğızıstan tərəfdən həmsədri Bakıt Torobayevin sədrlik etdikləri iclasda hər iki ölkənin müvafiq dövlət qurumlarının səlahiyyətli nümayəndələri iştirak ediblər.

Əvvəlcə Hökumətlərarası Komissiyanın həmsədrlərinin ikitərəfli görüşü keçirilib, daha sonra müzakirələr komissiyanın 6-cı iclasında, geniş tərkibdə davam etdirilib.

Tərəflər qardaş və dost xalqlarımızı birləşdirən tarixi-mədəni bağlara, iki ölkə prezidentləri - İlham Əliyev və Sadır Japarov arasında mövcud olan mütəmadi siyasi dialoqun və qarşılıqlı səfərlərin iki ölkə arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində həlledici rol oynadığını vurğulayıblar.

Qeyd olunub ki, 2024-2029-cu illəri əhatə edən əməkdaşlıq proqramı ikitərəfli münasibətlərin sistemli şəkildə genişləndirilməsi üçün əsas yol xəritəsi rolunu oynayır.

Son dövrdə ticarət dövriyyəsində artım müşahidə olunur, 2025-ci ilin ilk 10 ayı ərzində ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 94 faizdən çox artıb.

İclas zamanı iqtisadi əlaqələrin daha da genişləndirilməsi, ticarət dövriyyəsinin şaxələndirilməsi və işgüzar dairələr arasında əməkdaşlığın dərinləşdirilməsi üçün bir sıra əhəmiyyətli razılaşmalar əldə edilib. Tərəflər Qırğızıstan ərazisində ticarət-logistika mərkəzinin yaradılması imkanlarının araşdırılmasını, biznes missiyalarının təşkili və məlumat mübadiləsinin gücləndirilməsini, həmçinin COP29 çərçivəsində irəli sürülmüş "yaşıl keçid" təşəbbüslərində əməkdaşlığı müzakirə ediblər.

Habelə investisiya və sənaye sahələrində də mühüm əməkdaşlıq istiqamətləri müəyyən olunmuşdur.

Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun fəaliyyəti yüksək qiymətləndirilmiş, birgə investisiya layihələrinin genişləndirilməsi, AZPROMO ilə Qırğızıstan Ticarət-Sənaye Palatası arasında Azərbaycan-Qırğızıstan Biznes Şurasının yaradılması, İssık-Kul gölü sahilində beşulduzlu hotel tikintisinin dəstəklənməsi, həmçinin kurort şəhərinin yaradılması layihəsinin nəzərdən keçirilməsi kimi məsələlər razılaşdırılmışdır.

Sənaye zonaları və azad iqtisadi zonalar üzrə təcrübə mübadiləsinin təşkil olunması da tərəflərin diqqət mərkəzində olmuşdur.

Turizm sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədilə turizm şirkətlərinin əlaqələndirilməsi, birgə turpaketlərin hazırlanması, sərgi və festivallar üzrə məlumat mübadiləsi, sağlamlıq turizmi üzrə əməkdaşlıq kimi istiqamətlər müəyyən edilmişdir. Bakı-Bişkek-Bakı hava reyslərinin turizm axınına müsbət təsiri xüsusi vurğulanmışdır.

Kənd təsərrüfatı sahəsində tərəflər virussuz tinglərin istehsalı üzrə təcrübə mübadiləsi, intensiv balıqçılıq, balıqçılıq və akvakultura sahəsində birgə təlimlər, baytarlıq və fitosanitar nəzarəti üzrə əməkdaşlığın genişləndirilməsi, damazlıq heyvanların ticarəti və aqrosığorta sistemlərinin inkişafı kimi genişspektrli fəaliyyət istiqamətlərini razılaşdırıblar.

Enerji sahəsində "2024-2025-ci illər üzrə Yol Xəritəsi"nin icrası, SOCAR-la Qırğızstannefteqaz arasında əməkdaşlığın genişləndirilməsi, Qırğızıstanın "Mərkəzi Asiya - Azərbaycan Yaşıl Enerji Dəhlizi" layihəsində iştirakı kimi məsələlər üzrə qarşılıqlı fəaliyyətin davam etdirilməsinə dair razılıq əldə olunub.

Nəqliyyat sahəsində isə tərəflər Orta dəhlizin rəqəmsallaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi, Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin region üçün perspektivləri, Bakı limanının imkanlarından istifadə və tranzit keçidlərin artırılması məsələlərini müzakirə ediblər.

Humanitar və təhsil sahəsində, universitetlər arasında əməkdaşlıq, tələbələr üçün illik təqaüd kvotaları, "Study in Azerbaijan" proqramında iştirak, müəllim mübadiləsi, dil mərkəzlərinin yaradılması, akademik araşdırmaların birgə təşkili və kitabxanalararası virtual platformaların yaradılması müzakirə edilib.

İclasda həmçinin ekologiya, rəqəmsal inkişaf, kibertəhlükəsizlik, səhiyyə, sosial təminat, dövlət xidmətləri, memarlıq və şəhərsalma, eləcə də bank sektoru üzrə əməkdaşllq məsələləri müzakirə olunmuş və yeni istiqamətlər müəyyən edilmişdir.

Tərəflər bütün sahələrdə qarşılıqlı etimada əsaslanan, dostluq və qardaşllq ruhunda inkişaf edən münasibətlərin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.

Komissiyanın 7-ci iclasının Qırğız Respublikasında keçirilməsi barədə razılıq əldə olunmuş və tarixlərin diplomatik kanallar vasitəsilə müəyyən ediləcəyi bildirilmişdir. Sonda Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifov və Qırğız Respublikası Nazirlər Kabineti Sədrinin müavini Bakıt Torobayev Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə Hökümətlərarası Komissiyanın 6-cı iclasının Protokolunu imzaladılar.

İclasdan sonra Hökumətlərarası Komissiyanın Qırğız Respublikasından olan üzvləri Kosmik Agentliyin fəaliyyəti ilə tanış olmaq üçün "Azərkosmos"a gediblər.

Dekabrın 9-da qonaqlar Bakı Gəmiqayırma və Heydər Əliyev adına Neft Emalı zavodlarının işi ilə də tanış olacaqlar.

Dekabrın 7-də Bakıt Torobayevin rəhbərlik etdiyi nümayəndə heyəti Sumqayıt sənaye parkındakı İstifadə olunmuş mühərrik və sənaye yağlarının emalı və baza yağlarının istehsalı zavodu ilə tanış olub.

# "Etibarlı Tərəfdaş Konsepsiyası" iqtisadi inkişafı daha da sürətləndirməyə hədəflənir

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev "Etibarlı Tərəfdaş Konsepsiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, konsepsiya iqtisadi fəaliyyət iştirakçıları arasında şəffaflığın artırılması, təhlükəsiz və sadələşdirilmiş ticarətin təşviqini, transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsini və iqtisadiyyatın diversifikasiyasının təminini nəzərdə tutur.**

Sənəddə həmçinin etibarlı tərəfdaşların müəyyənləşdirilməsi mexanizmləri, nəzarət və monitorinq prosedurlarının təkmilləşdirilməsi, dövlət qurumları arasında koordinasiyanın artırılması kimi istiqamətlər əhatə olunub.

Belə bir konsepsiyanın olması, əslində, zamanın tələbidir. Çünki indi dünya miqyasında gömrük-biznes əməkdaşlığında etibarlı tərəfdaşlıq modelinin formalaşdırılması xarici ticarət fəaliyyətində biznes subyektlərinə iqtisadi üstünlüklər qazandırmaqla yanaşı, ticarət-təchizat zəncirində gömrük əməliyyatlarının sadələşdirilməsinə və optimallaşdırılmasına da imkan yaradıb.

Digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da gömrük xidmətlərinin modernləşdirilməsinə xidmət edən etibarlı tərəfdaşlıq modelinin tətbiqi ölkəmizin iqtisadi inkişafında və qlobal rəqabət mühitində üstünlüklər əldə etməsində mühüm rol oynaya bilər. Odur ki, bu sahədə sistemli yanaşmanı özündə ehtiva edən milli konsepsiyanın hazırlanması zərurəti gündəmə gəlib.

Beləliklə, konsepsiya gömrük-biznes əməkdaşlığı çərçivəsində idarəetmənin təkmilləşdirilməsini, xarici iqtisadi fəaliyyətin beynəlxalq ticarət-təchizat zəncirinin yeni tələblərinə uyğunlaşdırılmasını və ticarətin asanlaşdırılmasını hədəfləyir.

Ölkəmizdə sahibkarlıq sahəsində aparılan islahatlar idarəetmə proseslərində biznes subyektlərinin iştirakının təmin edilməsinə, yeni iqtisadi sahələrin inkişaf etdirilməsinə, daha çevik ixrac mexanizmlərinin formalaşdırılmasına, "Made in Azerbaijan" brendinin beynəlxalq ticarət platformalarında təşviqinə dəstək mexanizminin qurulmasına, milli daşıyıcıların qlobal statusa malik şirkətlər üçün müraciət subyektlərinə çevrilməsinə, biznes palatalarına dəstək və iqtisadiyyatın diversifikasiyası prosesinə şərait yaradıb. Odur ki, normativ-hüquqi aktların tələbləri çərçivəsində idxal-ixrac və tranzit əməliyyatlarını həyata keçirən biznes subyektlərinin beynəlxalq ticarətdə rəqabət qabiliyyətinin artırılması, eyni zamanda ixracın təşviqi və "yaşıl iqtisadiyyat"ın inkişafı naminə konsepsiyanın qəbulu da ölkəmizin qlobal mövqeyinə müsbət təsir göstərəcək.

Bu məqsədi daşıyan konsepsiyada ilk növbədə ölkədə gömrük-biznes əməkdaşlığında mövcud vəziyyət təhlil olunur, daha sonra əldə edilən nəticələrə uyğun olaraq və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər və tədbirlər planı vasitəsilə sözügedən sahədə strateji məqsədlərə və göstəricilərə nail olunması nəzərdə tutulur. Konsepsiyanın əsas məqsədi sahibkarlıq subyektlərinin maraqlarının qorunması, onların gəlir sahələrinin artırılması və ticarətin asanlaşdırılmasında gömrük xidmətlərinin modernləşdirilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi və digər kompleks tədbirlərin həyata keçirilməsidir.

Dövlət başçısının imzaladığı sərəncama əsasən, konsepsiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) həyata keçirəcək.

İİTKM konsepsiyanın hədəf göstəricilərini bu cür qeyd edib: "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnun səlahiyyətli iqtisadi operator statusu ilə əhatələnməsi və səlahiyyətli iqtisadi operatorların dairəsinin genişləndirilməsi; gömrük anbarının və gömrük təmsilçiliyinin qlobal çağırışlara uyğunlaşdırılması; biznes subyektlərinin inkişafı üçün münbit şərait və etibarlı ticarət mühiti yaradılması; gömrük orqanları tərəfindən biznes subyektlərinə təqdim edilən sadələşdirmə mexanizmlərinin artırılması; müvafiq dövlət orqanlarının (qurumlarının) etibarlı tərəfdaş sisteminin qurulmasına aktiv cəlb edilməsi; "dövlət-sahibkar-istehlakçı" zəncirinin işləmə mexanizminin əlverişli və sadələşdirilmiş səviyyəyə çatdırılması; gömrük-biznes əməkdaşlığında beynəlxalq standartların tətbiqi ilə yeni tənzimləmə mexanizmlərinin formalaşdırılması; biznes dürüstlüyü prinsipinin təşviqi və biznes subyektləri tərəfindən özünüqiymətləndirmə imkanının genişləndirilməsi; ticarət-təchizat zənciri boyu təhlükəsizlik tədbirlərinin gücləndirilməsi; gömrük işi sahəsində qərarların qəbul edilməsi prosesində rəqəmsallaşma və rəqəmsal gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsində "yaşıl texnologiyalar"dan istifadə edilməsi.

Ölkəmizin mühüm nəqliyyat qovşaqlarında yerləşməsi, tranzit potensialının güclənməsi və artan istehsal həcmi anbar sisteminin təkmilləşdirilməsini də labüd edir. Sənəddə xatırladılır ki, keçən il nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 33258 min ton, yük dövriyyəsi isə 13198,3 milyon ton-kilometr olub, əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 1,4 faiz və 2,5 faiz artım müşahidə edilib. "Şərq-Qərb" nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi 16982,4 min ton, o cümlədən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi ilə 8322,3 min ton, "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə 9896,5 min ton, "Şimal-Qərb" nəqliyyat dəhlizi ilə 5984,9 min ton, "Cənub-Qərb" nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi isə 394,2 min ton təşkil edib. Yüklərin 15277,6 min tonu və ya 46 faizi dəmir yolu nəqliyyatı, 10090 min tonu və ya 30,3 faizi avtomobil nəqliyyatı, 7890,4 min tonu və ya 23,7 faizi dəniz nəqliyyatı ilə daşınıb. Nəqliyyat dəhlizləri vasitəsilə daşınmış yüklərin 56,6 faizini və ya 18840,1 min tonunu tranzit yüklər təşkil edib. Həyata keçirilən idxal-ixrac və tranzit əməliyyatlarının artım dinamikası malların gömrük nəzarəti altında anbarlarda saxlanılması məsələsinin aktuallığını artırıb.

Sözügedən konsepsiya, ümumiyyətlə, biznes subyektlərinin gözləntiləri, ehtiyacları və tələbləri nəzərə alınmaqla, dövlət orqanları (qurumları) tərəfindən etibarlı tərəfdaşlığa dair tədbirlər planının müəyyən edilməsinə imkan verəcək. Konsepsiya etibarlı tərəfdaşlara münasibətdə gömrük ödənişlərinin hissə-hissə ödənilməsi, dəstək proqramlarının hazırlanması, etibarlı tərəfdaşlıq üzrə mütəxəssislərin formalaşdırılmasına kömək göstərilməsi, maarifləndirmə işinin aparılması kimi tədbirləri əhatə edəcək. Bu mexanizmin tətbiqi gömrük prosedurlarının sadələşdirilməsi üzrə öhdəliklərin icrasını təmin etməklə yanaşı, etibarlı tərəfdaşlar üçün yeni imkanlar yaradan əlverişli mühit formalaşdıracaq. Buna müvafiq olaraq, risklərin etibarlı idarə edilməsini təmin edən gömrük nəzarətinin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Azərbaycanın geotermal ehtiyatları çox zəngindir və böyük perspektiv vəd edir"

**"Azərbaycanda bərpaolunan enerji üzrə həyata keçirilən layihələri yüksək qiymətləndirirəm. Ölkənin həm Günəş, həm də külək enerjisi üzrə böyük texniki potensialı var və coğrafi mövqeyi bu sahələrin inkişafı üçün əlverişlidir".**



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Almaniyanın "EnBW AG" şirkətində çalışan, enerji sistemlərinin modelləşdirilməsi və bərpaolunan enerji üzrə ixtisaslaşmış alim-tədqiqatçı Rasim Cənnətəliyev söyləyib.

O bildirib ki, Azərbaycanın geotermal ehtiyatları da çox zəngindir və istifadə olunması böyük perspektiv vəd edir.

"Respublikanın müxtəlif bölgələrində termal suların mövcudluğu və təxminən 400 palçıq vulkanının enerji mənbəyi kimi istifadə olunma imkanı geotermal istiqamətin inkişaf perspektivini daha da artırır. Bu resurslar həm istilik təminatında, həm də alternativ enerji istehsalında tətbiq oluna bilər", - deyə o vurğulayıb.

# Azərbaycanın xarici siyasətinin uğurları



## İlham Əliyev regional sülh təşəbbüslərinin müəllifidir

### Azərbaycan ilə Ermənistan arasında qarşılıqlı etimadın formalaşması üçün əlverişli zəmin yaranıb

**Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində real addımlar atılmaqdadır. Azərbaycan bütün zamanlarda buna hazır olduğunu əməli fəaliyyəti ilə təsdiqləsə də, məğlub Ermənistan ABŞ-də keçirilən üçtərəfli görüşdə imzalanan Birgə Bəyanatadək sülhdən yayınmağa çalışırdı.**

Ümumiyyətlə, Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə Azərbaycan və Ermənistan liderlərinin Birgə Bəyanatı, iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanması bir daha göstərdi ki, dünya Azərbaycanın başladığı, irəli apararaq məntiqi sonluğa yaxınlaşdırdığı sülh gündəliyini qəbul edir. Vaşinqton görüşünün nəticəsi olaraq ATƏT-in Minsk qrupunun və ona bağlı olan əlaqəli qurumların de-yure ləğvi də keçmiş Qarabağ münaqişəsinin beynəlxalq gündəmdən tamamilə çıxarılması demək idi. Bu günlərdə Minsk qrupunun ləğvi isə bir daha təsdiq etdi ki, artıq Ermənistandakı revanşistlərin, onilliklər ərzində işğalçılıq siyasətini dəstəkləmiş qüvvələrin, erməni lobbisinin istinad edəcəyi heç nə qalmayıb.

Beləliklə də, ABŞ-də əldə olunan razılıqdan sonra Ermənistan rəhbərliyinə bir daha bəlli oldu ki, sülhdən başqa çıxış yolları yoxdur. Cari ilin avqust ayından başlayaraq rəsmi İrəvanın bu istiqamətdə atdığı addımlar da göstərir ki, ölkə rəhbərliyi sülhə yönəlik təbliğat kampaniyasını davam etdirir.

Təbii ki, regionda sülhün yaranması hər iki tərəfin mənafeyinə xidmət edir. Əgər sülh müqaviləsi imzalanarsa, hər iki ölkəyə ilk növbədə iqtisadi dividendlər gətirə bilər.

Bütün bunlar isə Azərbaycan diplomatiyasının ardıcıl və məqsədyönlü siyasətinin nəticəsidir. 2020-ci ildən sonra yaranan reallıqlar ölkəmizin yalnız hərbi üstünlüyünün deyil, həm də siyasi gücünün ifadəsidir. Prezident İlham Əliyevin ardıcıl sülh təşəbbüsləri bölgədə uzun illərdir davam edən hərbi münaqişəni dayandırmaqla yanaşı, qarşılıqlı etimadın əsasını qoydu.

Dekabrın 4-də Almaniya Federativ Respublikasının Kansleri Fridrix Mertslə Prezident İlham Əliyev arasında aparılan telefon danışığı zamanı da sülh gündəliyi müzakirə mövzusu olub. İlham Əliyevə zəng edən Fridrix Merts ilk növbədə Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Kansler Almaniyanın regionda sabitliyi dəstəklədiyini vurğulayıb.

Təbriklərə görə minnətdarlığını bildirən İlham Əliyev Azərbaycanın regional sülh təşəbbüslərinin müəllifi olduğunu qeyd edib. Prezident ölkəmizin regionda davamlı sülhün təmin olunması və möhkəmləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcəyini bildirib.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Nazirlər Şurasının Vyana şəhərində keçirilən 32-ci iclası çərçivəsində Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili ilə görüşdə də sülh gündəliyindən söz açıb. Nazir Ceyhun Bayramov Vaşinqton sammitindən sonra sülh prosesi ilə bağlı ətraflı məlumat verib. Vaşinqtonda əldə olunmuş razılıqların regionda sülh gündəliyinin irəlilənməsi baxımından mühüm dönüş nöqtəsi olduğu vurğulanıb, ölkəmizin proses çərçivəsində gözləntiləri diqqətə çatdırılıb.

Xatırladaq ki, ötən həftə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Tbilisi səfəri çərçivəsində Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə görüşdə sülh danışıqlarından söz açıb. O qeyd edib ki, Ermənistan ilə Azərbaycan arasında Vaşinqtonda başlanmış sülh danışıqları artıq bir sıra praktiki nəticələr verib və yekun sülh sazişinin imzalanması ilə bağlı danışıqlar aparılır. XİN başçısının sözlərinə görə, Cənubi Qafqaz regionunda gərginlik dövrü başa çatıb və regiona böyük fayda gətirəcək yeni imkanlar erası başlayır.

Prezident İlham Əliyev sentyabrın 25-də Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında dünyanın ən böyük təşkilatının ali kürsüsündən Azərbaycanın sülh gündəliyini bir daha təqdim edib: "2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyası və təqribən 30 ilə yaxın işğaldan sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası kimi tarixə düşdü. Azərbaycan Zəfər müharibəsindən dərhal sonra ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında Ermənistanla münasibətlərdə yeni səhifə açmağa hazır olduğunu bəyan etdi. Biz beynəlxalq hüquqa əsaslanan beş təməl prinsip irəli sürdük, sülh müqaviləsi layihəsini təqdim etdik. Daha sonra layihə mətni üzrə 2022-ci ilin oktyabrından 2025-ci ilin yayına qədər davam edən danışıqlar prosesi bizim təşəbbüsümüzlə başladı. Müxtəlif təxribatlara baxmayaraq, danışıqlar yalnız ikitərəfli əsasda aparıldığına, hər hansı bir kənar müdaxilə olmadığına görə müsbət nəticələr verdi".

Prezident bu il avqustun 8-də Vaşinqtonda keçirilən görüşü də dəyərləndirərək bildirdi ki, Ağ Evdə ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülh müqaviləsinin mətnini paraflayıblar. Həmin gün Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri Birgə Bəyanat imzalayıblar. ABŞ Prezidenti Donald Tramp da buna şahid qismində imza atıb.

İlham Əliyev bir daha bəyan edib ki, regional bağlantılar davamlı sülh istiqamətində baxışlarımızın əsasını təşkil edir. Vaşinqton sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur: "Vaşinqton sammiti həmçinin Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanmasına işarədir. Azərbaycanla Birləşmiş Ştatlar arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında iki hökumət arasında Anlaşma Memorandumunu Prezident Donald Tramp ilə birgə imzaladıq. Bu, siyasi, iqtisadi, enerji, regional bağlantılar, müdafiə, təhlükəsizlik və digər sahələrdə tərəfdaşlıq üçün yeni üfüqlər açır".

Artıq demək olar ki, Cənubi Qafqaz regionunda gərginlik dövrü bitməkdədir. Tərəflər qarşılıqlı maraqları və təhlükəsizlik məsələlərini ön planda tutaraq, daha sülhsevər və konstruktiv yanaşmalar seriyasını həyata keçirməlidirlər. Azərbaycan öz gücünü və təsirini artırmaqla, həm regionda, həm də beynəlxalq aləmdə daha böyük rol oynaya bilər. Yalnız davamlı diplomatik səylərlə Cənubi Qafqazda real sülhün və sabitliyin təmin olunması mümkündür.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Azərbaycan regionda yeni əməkdaşlıq modeli yaradır



**Azərbaycan Prezidenti İlham Əliyevin liderliyi ilə ölkəmizin həyata keçirdiyi sülh siyasəti Cənubi Qafqazın geosiyasi xəritəsini yenidən formalaşdırmaqla yanaşı, regionun təhlükəsizliyi, iqtisadi inteqrasiyası və sosial sabitliyi üçün geniş imkanlar açmışdır. 2020-ci il Vətən müharibəsi və 2023-cü ildə birgünlük antiterror tədbirləri nəticəsində əldə olunmuş Zəfər ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpası ilə yanaşı, ümumilikdə region üçün yeni geosiyasi və geoiqtisadi reallıqlar yaratmış, eyni zamanda bölgədə uzunmüddətli sülhün təmin olunması üçün diplomatik təşəbbüslərin zəruriliyini ortaya qoymuşdur.**

Bu təşəbbüslər yalnız Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə məhdudlaşmır, bu həm də beynəlxalq hüquqa, regional əməkdaşlıq prinsiplərinə və davamlı inkişaf perspektivlərinə söykənir. Prezident İlham Əliyevin sülh təşəbbüsü region üçün yeni diplomatik strategiyanın əsasını qoymuş, Azərbaycanın beynəlxalq səviyyədə konstruktiv və etibarlı tərəfdaş imicini daha da möhkəmləndirmişdir.

Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətninin hazırlanmasında baza təşkil edən Azərbaycanın irəli sürdüyü beş prinsip dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması, bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi, dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, nəqliyyat və kommunikasiyaların açılışı kimi müddəaları ehtiva edir. Bu prinsiplər öz növbəsində Azərbaycanın sülh və qarşılıqlı hörmət əsasında dövlətlərarası əməkdaşlığın və ümumilikdə regionun sülh və sabitlik şəraitində inkişafında maraqlı olduğunu bir daha nümayiş etdirir. Paraflanmış sülh sazişinin, nəhayət, imzalanması regionun gələcəyini müəyyən edəcək əsas hadisələrdən biri olacaq. Bu saziş ədalətli, beynəlxalq hüquqa əsaslanan, tərəflərin suverenliyinə hörmət edən və uzunmüddətli inkişaf üçün əlverişli şərait yaradan bir çərçivə sənədidir. Azərbaycan bu sazişin mətninin hazırlanmasında prinsipial mövqe nümayiş etdirmiş və bu mövqenin əsasında milli maraqlar, regional sabitlik və beynəlxalq hüququn norma və prinsipləri dayanır. Ermənistanın bu reallığı qəbul etməsi və sülh prosesinə qoşulması həm özünün, həm də regionun gələcəyi üçün vacibdir.

Hazırda sülh sazişinin imzalanması yolunda yeganə maneə Ermənistan konstitusiyasının preambulasında istinad olunan bu ölkənin müstəqillik bəyannaməsidir ki, həmin aktda da Azərbaycana qarşı ərazi iddiaları hələ də qalmaqdadır. Ümid edirik ki, Ermənistan hökuməti və cəmiyyəti öz dövlətlərinin gələcək inkişafı və təhlükəsizliyi naminə konstitusiyalarında müvafiq dəyişiklik edilməsini dəstəkləyəcəklər və nəhayət, iki ölkə arasında sülh sazişinin imzalanması mümkün olacaq.

Xüsusilə vurğulanmalıdır ki, Prezident İlham Əliyevin beynəlxalq hüquqa, ədalətə və milli maraqlara söykənən ardıcıl, aydın və prinsipial mövqeyi sülh və normallaşma prosesində mühüm rol oynamış və bu yanaşma beynəlxalq tərəfdaşlar tərəfindən konstruktiv və realist siyasət kimi qiymətləndirilmişdir. Azərbaycanın təşəbbüsləri yalnız Ermənistan üçün deyil, bütün region üçün strateji əhəmiyyət daşıyır və Cənubi Qafqazın uzunmüddətli inkişaf perspektivini müəyyən edir. Bu xüsusda ABŞ Prezidenti Donald Trampın səyləri və dəstəyi ilə 2025-ci il 8 avqust tarixində Vaşinqtonda keçirilmiş üçtərəfli sammit çərçivəsində əldə olunmuş razılaşmalar regionumuzun siyasi-diplomatik, ticari-iqtisadi və nəqliyyat-kommunikasiya arxitekturasında yeni və tarixi əhəmiyyətli inkluziv bir mərhələnin başlanğıcı hesab edilə bilər. Eyni zamanda bu sammit Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin sürətləndirilməsi üçün münbit şərait yaratmışdır. Vaşinqton sammiti göstərdi ki, Azərbaycan yalnız öz milli maraqlarını deyil, eyni zamanda regionun təhlükəsizliyini və inkişafını təmin etmək üçün fəal diplomatik addımlar atır. Sammit həmçinin beynəlxalq ictimaiyyətin normallaşma prosesinə marağını və dəstəyini, habelə sülhə yönəlik real iradə ortaya qoyulmasının zəruriliyini nümayiş etdirdi.

Azərbaycanın sülh təşəbbüsləri təkcə siyasi-hüquqi normaların müəyyənləşdirilməsi ilə məhdudlaşmır. Bu təşəbbüslər həm də regionun iqtisadi xəritəsinin yenilənməsi, inteqrasiya layihələrinin genişləndirilməsi və yeni nəqliyyat-kommunikasiya bağlantılarının qurulması baxımından geniş perspektivlər yaradır. Cənubi Qafqaz qitələrarası nəqliyyat yollarının kəsişməsində yerləşən mühüm regiondur və xüsusi olaraq vurğulanmalıdır ki, bu bölgənin aparıcı və lider dövləti olan Azərbaycan son illər ərzində qlobal logistika xəritəsində strateji tranzit ölkə kimi çıxış edir. Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi", Trans-Xəzər marşrutu, Orta dəhliz kimi irimiqyaslı layihələr Azərbaycanın regiondakı rolunu gücləndirmiş, ölkəmizi enerji və nəqliyyat bağlantılarının etibarlı mərkəzinə çevirmişdir. Ermənistanla sülhün təmin olunması bu layihələrin daha da genişlənməsinə, regionun bütövlükdə Avrasiya nəqliyyat şəbəkəsinə inteqrasiyasına, iqtisadi əməkdaşlığın yeni mərhələyə keçməsinə imkan verəcəkdir. Bu genişlənmə təkcə Azərbaycan üçün deyil, Ermənistan, Gürcüstan, Türkiyə, hətta İran və Mərkəzi Asiya ölkələri üçün də əlavə iqtisadi üstünlüklər yaradacaq, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat qovşağında yerləşən Cənubi Qafqazı beynəlxalq ticarətin daha mühüm halqasına çevirəcək. Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti, beynəlxalq oyunçularla qarşılıqlı hörmətə və milli maraqlara əsaslanan səmərəli əməkdaşlıq qurmaq bacarığı proseslərin bu şəkildə inkişafında əvəzsiz rol oynamışdır.

Sülh prosesinin davamlılığı üçün etimad quruculuğu tədbirləri xüsusi əhəmiyyət kəsb edir. Etimad olmadan heç bir beynəlxalq saziş uzunömürlü ola bilməz. Bu addımlar həm gərginliyin azalmasına, həm də sülhün ictimai əsasının formalaşmasına xidmət edir. Sülhün yalnız hökumətlər səviyyəsində deyil, cəmiyyətlər səviyyəsində də qəbul olunması və dəstəklənməsi vacibdir və Azərbaycan bunu nəzərə alaraq, bütün müstəvilərdə konstruktiv mövqe sərgiləyir. İki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin İrəvan və Bakıda baş tutmuş təmasları və müzakirələri də məhz bu məqsədlərə xidmət edən tədbirlərdəndir.

Bütün bunlarla yanaşı, unutmamalıyıq ki, Ermənistan daxilində revanşist qruplar, radikal siyasi və dini dairələr, erməni diasporu və regionumuzu münaqişələr vasitəsilə idarə etməkdə maraqlı olan xarici qüvvələr bu kövrək prosesi pozmağa çalışırlar. Məqsəd isə birdir - regionda yenidən qarşıdurma mühiti yaratmaqla Ermənistanı sülhdən uzaqlaşdırmaq və yeni gərginlik ocaqları formalaşdırmaq. Revanşist ideologiyanın Ermənistan cəmiyyətində yaratdığı təzyiqlər, bu qrupların hökumət siyasətinə təsir göstərmək imkanları normallaşma prosesinə mənfi təsir göstərən faktorlardandır. Beynəlxalq ictimaiyyət bu destruktiv meyillərə tolerant yanaşmamalıdır. Çünki Ermənistan daxilində sülhə mane olan qüvvələrin dəstəklənməsi həm region üçün, həm də qlobal təhlükəsizlik mühiti üçün böyük riskdir. Azərbaycan haqlı olaraq tələb edir ki, beynəlxalq aktorlar Ermənistanın revanşist qüvvələrinin fəallaşmasına şərait yaradan addımlar atmasın, əksinə, regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün daha prinsipial mövqe sərgiləsinlər.

Azərbaycanın sülh siyasətinin mahiyyəti həm də ondan ibarətdir ki, ölkə öz geosiyasi və geoiqtisadi gücünə söykənərək regionda yeni əməkdaşlıq modeli yaradır. Bu model qarşıdurma və hərbi təhdidlər üzərində deyil, qarşılıqlı fayda, təhlükəsizlik, iqtisadi inteqrasiya və səmərəli qonşuluq münasibətləri əsasında qurulur.

Azərbaycan münaqişədən sonrakı dövrdə sülhün təmin olunması üçün ardıcıl, praqmatik və beynəlxalq hüquqa əsaslanan siyasət yürüdür. Vaşinqton sammiti bu siyasətin beynəlxalq səviyyədə tanındığını, Azərbaycanın təşəbbüslərinin qlobal dəstək qazandığını və regionda sülhün reallaşması üçün yeni imkanlar açıldığını təsdiq edir. Ölkəmizin siyasi-diplomatik fəaliyyəti, sülh təşəbbüsləri, iqtisadi və nəqliyyat layihələri, həmçinin regional əməkdaşlıq vizyonu Cənubi Qafqazı qarşıdurma regionundan əməkdaşlıq regionuna çevirə biləcək potensiala malikdir. Prezident İlham Əliyevin mükəmməl daxili və xarici siyasət kursu Azərbaycanın beynəlxalq arenada nüfuzunu artırmaqla ölkəmizi regionun aparıcı siyasi-iqtisadi aktoruna çevirmişdir. İnanırıq ki, istər regional, istərsə də qlobal layihələrin reallaşmasına mühüm töhfə verən dövlətimizin sülh təşəbbüsləri Cənubi Qafqazın daha təhlükəsiz, sabit və inkişaf edən bölgəyə çevrilməsini mümkün edəcəkdir.

***Zaur ŞÜKÜROV,***
***Milli Məclisin deputatı***

## Zəngəzur dəhlizinin açılması zamanın tələbidir

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tarixi Zəfərə imza atıb, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunub, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad olunan bütün ərazilərdə bərqərar olub. Dövlət bayrağımız əzəli torpaqlarımızda əzəmətlə dalğalanmaqdadır, Qarabağ və Şərqi Zəngəzur dirçəldilir, keçmiş məcburu köçkünlərin doğma ata-baba yurdlarında daimi məskunlaşması mərhələli şəkildə təmin olunur. Bütün bu qalibiyyət ilə Azərbaycan dünyada yeni reallıqların müəllifi kimi tanınır.**

Bu reallıqlar isə Azərbaycanı yeni uğurlara hədəfləyir. Uğurlar sırasında Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bağlı razılıq xüsusi önəm daşıyır. Zəngəzur dəhlizi (TRIPP) Çindən başlayaraq Mərkəzi Asiyanı Xəzər regionu, Azərbaycan, Ermənistan, Azərbaycanın dilbər guşəsi Naxçıvandan Türkiyəyə keçməklə Avropa ilə birləşdirən sosial-iqtisadi, geosiyasi və geostrateji xüsusiyyətlərə malik geniş marşruta çevriləcək. Bu dəhliz kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionları bir-biri ilə birləşdirəcək. Dəhliz Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələri gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyətini daha da artıracaq, Orta Asiya dövlətlərini və Azərbaycanı uzun illərdən sonra quru yolla strateji və iqtisadi baxımdan Türkiyə Respublikası ilə əlaqələndirəcək. Bu dəhliz bütün regional ticarətə müsbət təsir edəcək, Çindən başlayıb Böyük Britaniyaya, Pekindən başlayıb Londona kimi onlarca dövlət arasında ticarət əlaqələrinin genişlənməsinə kömək edəcəkdir.

Zəngəzur dəhlizi (TRIPP) Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişi təmin edəcək, şaxələndirilməsi baxımından Orta dəhlizə yeni nəfəs verəcəkdir. Artıq Naxçıvanda Ermənistanla sərhədə qədər olan dəmir yolunun yenidən qurulmasına başlanılıb. "Azərbaycan Dəmir Yolları" QSC Naxçıvanda infrastrukturun müasirləşdirilməsi ilə bağlı layihələndirmə işlərini başa çatdırıb. Başladılan tikinti işləri 188 kilometrlik dəmiryol xəttini əhatə edir. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini Arif Ağayevin sözlərinə görə, təmirdən sonra xəttin illik ötürmə qabiliyyəti 15 milyon tona çatacaqdır.

10 yanvar 2023-cü ildə "Zəngəzur dəhlizi strateji layihədir" deyən Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb ki, Zəngəzur dəhlizinin (TRIPP) reallaşması tarixi zərurətdir: "Ona görə mən dedim ki, Ermənistan istəsə də istəməsə də, bu reallaşacaq. Yəni bunu Ermənistanda yenə növbəti təhdid kimi qəbul edirlər, halbuki belə fikrim yox idi. Sadəcə olaraq bu qaçılmazdır. Bu, gec-tez olacaq. Əlbəttə, biz istəyirik ki, tez olsun və daha tez olsun".

Azərbaycan Prezidenti İlham Əliyevin "Mən nəyi nə zaman edəcəyimi yaxşı bilirəm" dəyərli kəlamları bu gün öz təsdiqini tapır. Xatırladaq ki, ABŞ və Avropa da Orta dəhlizin ikinci qolu olan Zəngəzur dəhlizinin (TRIPP) açılmasında çox maraqlıdır.

Bu ilin dekabrında Prezident İlham Əliyev Qazaxıstan Respublikasına rəsmi səfəri zamanı mətbuata bəyanatında bir daha demişdir: "Hazırda planlaşdırdığımız və həyata keçirdiyimiz bütün işlərlə yanaşı, Zəngəzur dəhlizi (TRIPP) layihəsi də böyük potensiala malikdir. Azərbaycan ərazisində bütün avtomobil və dəmir yolu əlaqələri gələn ilin ortalarına qədər tamamlanacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də hər şey belə sürətlə reallaşdırılacaq və belə olan halda Zəngəzur dəhlizinin açılması 2028-ci ilin sonuna qədər baş verə bilər".

Azərbaycan bəyan edib ki, yolun ona aid hissəsi gələn il tamamlanıb təhvil veriləcək. Buna münasibət bildirən Milli Məclisin deputatı Mübariz Qurbanlı mətbuata açıqlamasında bildirmişdir ki, Zəngəzur dəhlizi (TRIPP) məsələsi əldə edilmiş razılaşmaya uyğun vaxtında və mütləq şəkildə həllini tapacaq: "Bu il avqustun 8-də Vaşinqtonda Azərbaycan və ABŞ prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı sənədlərə uyğun olaraq dəhliz hansı marşrutla müəyyənləşibsə, elə də yekunlaşacaq. Kiminsə onu dəyişməsi, müdaxilə etməsi mümkün deyil. Çünki Vaşinqton sənədləri imzalandıqda açıq şəkildə qeyd edildi ki, bundan geri dönüş yoxdur".

Ekspertlərin fikrincə, sərhədlərin dəqiqləşməsi ilə bağlı prosesin hazırda Zəngəzur istiqamətində aparılması dəhlizin daha tez işə düşməsinə hesablanıb: "Bu dəhliz nə qədər tez fəaliyyətə başlayacaqsa, "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin və bu istiqamətdəki kommunikasiyanın da istifadəsinə imkan yaranacaq. Zaman bunu tələb edir. Dünya ticarəti, əlaqələr artmaqdadır. Məhz bu reallıq tələb edir ki, iqtisadi-ticari əlaqələrin daha intensiv getməsi üçün Zəngəzur dəhlizi kimi marşrutlar işə düşsün".

Prezident İlham Əliyevin dövlət başçıları ilə görüşlərində, beynəlxalq tədbirlərdə, mətbuata verdiyi müsahibələrdə, ictimaiyyətlə görüşlərində toxunduğu vacib mövzulardan biri də Zəngəzur dəhlizidir.

Zəngəzur dəhlizinin (TRIPP) reallaşması vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsinə yüksək töhfə verəcək.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Leyla Əliyeva və Arzu Əliyeva Dəkkədə Banqladeşin Müvəqqəti Hökumətinin Baş müşaviri ilə görüşüblər



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Banqladeş Xalq Respublikasının paytaxtı Dəkkə şəhərinə səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Leyla Əliyeva və Arzu Əliyeva dekabrın 7-də Banqladeş Müvəqqəti Hökumətinin Baş müşaviri, dünyaşöhrətli iqtisadçı, Nobel Sülh Mükafatı laureatı professor Məhəmməd Yunusla görüşüblər.

Görüşdə Prezident İlham Əliyevin ən səmimi salamları Baş müşavir M.Yunusa çatdırılıb. Onun sonuncu dəfə 2024-cü ilin noyabrında COP29-da iştirakı daxil olmaqla, müxtəlif illərdə Azərbaycana çoxsaylı səfərlər etdiyi, bir neçə dəfə Azərbaycan Prezidenti ilə görüşdüyü və ölkəmizdə hər zaman xoş qarşılandığı vurğulanıb.

Azərbaycanın Banqladeşlə daima dostluq əlaqələrinə malik olduğu, müxtəlif formatlarda uğurla əməkdaşlıq etdiyi diqqətə çatdırılıb.

Məhəmməd Yunusa Leyla Əliyevanın və Arzu Əliyevanın Dəkkədə fəaliyyət göstərən valideyn himayəsindən məhrum olmuş və kimsəsiz uşaqlar üçün müəssisəni ziyarət etdikləri barədə məlumat verilib.

Heydər Əliyev Fondunun və IDEA İctimai Birliyinin Banqladeşin müvafiq təşkilatları ilə birgə humanitar, sosial, gənclər və könüllülər, ətraf mühit və təbiətin mühafizəsi kimi sahələrdə əməkdaşlıqda, həmçinin birgə layihələr həyata keçirməkdə maraqlı olduğu qeyd edilib.

Baş müşavir Məhəmməd Yunus ölkəmizə çoxsaylı səfərləri zamanı Azərbaycan Prezidenti ilə görüşlərini hər zaman məmnunluqla xatırladığını bildirib, öz növbəsində onun da salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş edib. O, COP29 çərçivəsində Prezident İlham Əliyevlə görüşdə qeyd edildiyi kimi, iki ölkə arasında səmərəli əməkdaşlıq üçün böyük potensialın olduğunu bildirib və praktiki fəaliyyətlərin həyata keçirilməsinin vacibliyinə toxunub.

M.Yunus Azərbaycanın müxtəlif sahələrdə böyük nailiyyətlər əldə etdiyinin şəxsən şahidi olduğunu deyib, Banqladeşlə əməkdaşlığın inkişafı və praktiki dəstək proqramlarının icrası üzrə göstərilən səylərə görə dərin təşəkkürünü bildirib.

# Leyla Əliyeva və Arzu Əliyeva Dəkkədə uşaq evini ziyarət ediblər

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Banqladeş Xalq Respublikasına səfər çərçivəsində dekabrın 6-da paytaxt Dəkkə şəhərində yerləşən valideyn himayəsindən məhrum olmuş və kimsəsiz qız uşaqları üçün müəssisəni ziyarət ediblər.**



AZƏRTAC xəbər verir ki, "Shorkari Shishu Poribar" (Dövlət Uşaq Evi) adını daşıyan bu müəssisənin rəhbərliyi və müəllim-tərbiyəçi heyəti qonaqlara qurumun fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirilib ki, Banqladeş Sosial Xidmətlər İdarəsinin nəzdində fəaliyyət göstərən və müxtəlif mənbələrdən könüllü ianələr hesabına maliyyələşən müəssisədə 130-dan çox uşaq daimi əsasda yaşayır. Onlara təhsillə yanaşı, gələcək həyata hazır olmaları üçün peşə təlimləri keçirilir və iş bacarıqları öyrədilir.

Sonra Leyla Əliyeva və Arzu Əliyeva uşaq evinin şəraiti və ehtiyacları, o cümlədən yataqxanası və tədris otaqlarının vəziyyəti ilə tanış olub, müəllim heyəti və uşaqlarla səmimi söhbət ediblər. Onlara Azərbaycan dövlətinin qlobal səviyyədə daim rəhbər tutduğu humanizm prinsipindən çıxış edərək Heydər Əliyev Fondu vasitəsilə müxtəlif ölkələrdə sosial layihələr həyata keçirdiyi barədə məlumat verilib, müəssisə ilə yardım proqramının icrası məsələsi müzakirə olunub.

Sonda uşaq evinin şagirdləri Azərbaycandan gələn qonaqlar qarşısında Banqladeş xalq mahnılarından və rəqslərindən ibarət proqramla çıxış ediblər.

# Heydər Əliyev Fondu ilə Həmdan Bin Rəşid Əl Maktum Fondu arasında əməkdaşlıq müzakirə edilib



**Dekabrın 8-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Həmdan Bin Rəşid Əl Maktum Fondunun ali sədri Şeyx Rəşid bin Həmdan bin Rəşid Əl Maktum arasında görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, Bakıda keçirilən "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" konfransında iştirakdan məmnunluğunu bildirən Şeyx Rəşid bin Həmdan bin Rəşid Əl Maktum süni intellekt üzrə tədbirlərin, bu sahədə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb, təhsil və sosial sahədə icra edilən proqram və layihələrin önəmindən danışıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva hər iki qurum arasında əməkdaşlıq perspektivlərinin vacibliyini diqqətə çatdırıb.

Şeyx Rəşid bin Həmdan bin Rəşid Əl Maktum Heydər Əliyev Fondunun islam dünyasında və digər ölkələrdə təhsil, sosial dəstək layihələri üzrə "Həmdan-ICESCO" mükafatına layiq görülməsi münasibətilə bir daha təbriklərini çatdırıb.

Leyla Əliyeva Heydər Əliyev Fondunun fəaliyyəti dövründə təhsil və sosial sahələrə hər zaman önəm verdiyini qeyd edib, fondun "Həmdan-ICESCO" mükafatı ilə təltif olunmasına görə minnətdarlığını ifadə edib.

# Heydər Əliyev Fondu ilə ICESCO arasında saziş imzalanıb



**Bakıda keçirilən "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" beynəlxalq konfransı çərçivəsində dekabrın 8-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ICESCO-nun baş direktoru Səlim bin Məhəmməd əl-Maliklə görüşüb.**

AZƏRTAC xəbər verir ki, ICESCO-nun baş direktoru yenidən Azərbaycanda olmaqdan məmnunluğunu bildirib, süni intellekt indeksinin təqdimatı ilə bağlı beynəlxalq tədbirin Bakıda yüksək səviyyədə təşkilinə görə minnətdarlığını ifadə edib.

Qonaq beynəlxalq konfransda aparılan fikir mübadiləsi, keçirilən görüşlərin süni intellekt sahəsində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatına (ICESCO) üzv dövlətlər arasında əməkdaşlığın genişləndirilməsinə töhfə olacağına əminliyini bildirib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkəmizə davamlı dəstəyinə və mədəniyyətimizin təşviqinə istiqamətlənən tədbirlərə görə ICESCO-ya minnətdarlığını çatdırıb.

Ölkəmizlə ICESCO arasında mövcud olan uğurlu əməkdaşlığın, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ICESCO ilə səmərəli və sıx əlaqələrinin bu işbirliyinin daha da genişləndirilməsinə xidmət etdiyi vurğulanıb, iki qurum arasında elm, təhsil, mədəniyyət sahələrində gələcək layihələr ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Heydər Əliyev Fondu ilə ICESCO arasında Nigerin üç regionunda münaqişədən zərər çəkmiş qadınların imkanlarının genişləndirilməsi və sosial inklüzivlik istiqamətində həyata keçirilən layihə ilə bağlı saziş imzalanıb.

# Bakıda "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" beynəlxalq konfransı keçirilib

## Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva konfransda iştirak edib

**Dekabrın 8-də Heydər Əliyev Mərkəzində "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" beynəlxalq konfransının açılışı olub.**






AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin təşkilatçılığı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilən konfransın məqsədi islam dünyasında süni intellekt üzrə əməkdaşlığı gücləndirmək, həmçinin süni intellektin etik, sosial və iqtisadi təsirlərini müzakirə etməkdir.

Qeyd edək ki, süni intellektin inkişaf trendlərinin elmi əsaslarla ölçülməsi üçün hazırlanmış "İslam dünyasında süni intellekt indeksi" sənədi də məhz ilk dəfə Bakı konfransında təqdim olunur.

Konfransın açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva bildirib ki, süni intellekt (AI) artıq gündəlik həyatın mühüm bir hissəsinə çevrilib. Onun sözlərinə görə, bu sahə böyük imkanlar yaratmaqla yanaşı, yeni suallar və məsuliyyətlər də ortaya çıxarır. Cəmiyyətin süni intellektin təsirini düzgün qiymətləndirməsinin, gənclərin risklərdən qorunaraq bu texnologiyanın imkanlarına yönləndirilməsinin vacibliyi xüsusi qeyd olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti diqqətə çatdırıb ki, Azərbaycan bu istiqamətdə ardıcıl addımlar atır. 2025-2028-ci illər üçün Milli Süni İntellekt Strategiyası çərçivəsində milli süni intellekt ekosisteminin qurulması, dövlət xidmətləri üçün Azərbaycan dilində AI modelinin hazırlanması, dövlət qurumları üçün standartların müəyyənləşdirilməsi və Süni İntellekt Akademiyasının yaradılması nəzərdə tutulur.

L.Əliyeva Heydər Əliyev Fondunun artıq 20 ildir təhsili fəaliyyətinin əsas istiqaməti kimi müəyyən etdiyini xatırladıb. Deyib ki, fond bu müddət ərzində Azərbaycanda 500-dən çox məktəb binası inşa edib və yenidən qurub, uşaq bağçalarını və internat müəssisələrini modernləşdirib, minlərlə uşağı müasir tədris vasitələri ilə təmin edib.

O diqqətə çatdırıb ki, süni intellekt dövrünə keçid bu missiyanın əhəmiyyətini daha da artırır. Onun fikrincə, süni intellekt, sadəcə, texnologiya deyil, hər bir uşaq üçün yeni imkan deməkdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti həmçinin vurğulayıb ki, süni intellekt ətraf mühitin qorunmasında da mühüm rol oynaya bilər. Nadir heyvan növlərinin izlənməsi, iqlim dəyişikliklərinə nəzarət, meşələrin mühafizəsi, su ehtiyatlarının qorunması və dayanıqlı kənd təsərrüfatının inkişafı bu imkanlar sırasındadır.




Leyla Əliyeva çıxışında ICESCO ilə əməkdaşlığa da toxunub. Bu tərəfdaşlıq çərçivəsində Burkina-Fasoda məcburi köçkün qızlar üçün məktəblərin inşası, eləcə də Mali, Çad və Komor adalarında layihələrin davam etdirildiyi diqqətə çatdırılıb. Vurğulanıb ki, BMT-nin İnkişaf Proqramı ilə birgə gənclər və əlilliyi olan şəxslər üçün regional informasiya və kommunikasiya texnologiyaları mərkəzlərinin yaradılması bu istiqamətdə həyata keçirilən mühüm işlərdəndir.

Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev çıxışında bildirib ki, Heydər Əliyev Fondu uzun illərdir təhsil sahəsində mükəmməlliyi təşviq edir, innovativ təşəbbüsləri dəstəkləyir, uşaqlar və gənclər üçün geniş imkanlar yaradır. Fondun fəaliyyəti həm Azərbaycanda, həm də islam dünyasında təhsilin gücləndirilməsində əvəzsiz rol oynayır. Nazir diqqətə çatdırıb ki, Elm və Təhsil Nazirliyi Heydər Əliyev Fondu ilə birlikdə cəmiyyətin sosial və mədəni inkişafına töhfə verən ortaq məqsədlərin həyata keçirilməsindən qürur duyur. Emin Əmrullayev vurğulayıb ki, süni intellekt artıq həyatımıza, iş fəaliyyətimizə və öyrənmə proseslərimizə təsir göstərir. Süni intellekt daha güclü, daha ədalətli və fərdi öyrənənlərə uyğunlaşdırılmış təhsil sistemlərinin qurulması üçün böyük potensiala malikdir. Lakin bu texnologiyadan məsuliyyətlə, etik prinsiplərə uyğun və düşünülmüş şəkildə istifadə olunmalıdır.

ICESCO-nun baş direktoru Səlim bin Məhəmməd əl-Malik çıxışında qeyd edib ki, bəşəriyyət yeni bir mərhələnin - süni intellekt dövrünün astanasındadır. Bu, bacarıqları və təsiri formalaşdıran qüvvədir. O bildirib ki, süni intellekt artıq strateji hədəfə çevrilib: onu qəbul edənlər inkişafı sürətləndirir, ona qarşı çıxanlar isə tərəqqinin başqa istiqamətlərdə getdiyini görür və geridə qalacaqlar.

O əlavə edib ki, süni intellekt yalnız texnologiya deyil, həm də imkan yaradan bir vasitədir. Onun tətbiqi təhsil, səhiyyə, idarəetmə və digər sahələrdə innovativ həllər təqdim edir.

ICESCO-nun baş direktoru ölkələrimiz arasında mövcud əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb.

Sonra konfrans çərçivəsində ICESCO və Həmdan Bin Rəşid Əl Maktum Fondunun 4-cü birgə "Həmdan-ICESCO" mükafatının təltifedilmə mərasimi keçirilib.

Qeyd edək ki, bu mükafat islam dünyası ölkələrində tədris müəssisələrinin inkişafına və təhsil mühitinin dəstəklənməsi təşəbbüslərinə töhfələrə görə təqdim edilir. Heydər Əliyev Fondu islam dünyası və digər ölkələrdə məktəblərin tikinti-bərpasına yönələn təhsil və sosial dəstək üzrə layihələrinə görə bu mükafatla təltif olunur.

Mükafat, eyni zamanda Yəmənin Hadramaut Təhsil İnkişaf Fondu və Mərakeşin Birinci Səviyyə Təhsil Fonduna təqdim edilib.

Həmdan Bin Rəşid Əl Maktum Fondunun ali sədri Şeyx Rəşid bin Həmdan bin Rəşid Əl Maktum çıxışında "Həmdan-ICESCO" mükafatı qaliblərini təbrik edərək deyib: "Siz bu gün təhsil mühitinə və təhsil alanlara qayğı göstərən xeyriyyə təşkilatları, donorlar və ianəçilər üçün fəxr və ilham mənbəyi olmusunuz. Təhsilə dəstək üçün könüllülük səylərinin mədəniyyətini və təsirini yaymaq məsuliyyətimizdən geri çəkilməyəcəyik".

Konfrans daha sonra "Təhsildə innovasiya: süni intellektin islam dünyasında təsiri və imkanları" mövzusunda panel müzakirələrlə davam edib.

Müzakirələrdən əvvəl çıxış edənlər vurğulayıblar ki, süni intellekt artıq həyatımızın müxtəlif sahələrinə təsir göstərir və gələcək nəsillərin inkişafında mühüm rol oynayacaq.

Qeyd edilib ki, təhsil sistemi və elm sahəsində süni intellektin tətbiqi tədris prosesini daha səmərəli, innovativ və interaktiv hala gətirir.

Bildirilib ki, süni intellekt tədqiqat sahələrində yeni imkanlar yaradır, iqtisadiyyatın müxtəlif istiqamətlərində səmərəliliyi artırır və gələcək iş bazarının tələblərinə uyğun peşələrin inkişafına təkan verir.

Daha sonra ICESCO-nun Perspektiv Araşdırmaları və Süni İntellekt Mərkəzinin nümayəndəsi Viam Şafikin moderatorluğu ilə keçirilən paneldə çıxış edənlər ölkələr arasında təcrübə mübadiləsinin, əməkdaşlığın və süni intellekt sahəsində regional təşəbbüslərin gücləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıblar.

Digər paneldə çıxış edən qonaqlar süni intellekt sahəsində ölkələrarası əlaqələndirmənin gücləndirilməsinin, etik və sosial-iqtisadi aspektlərin araşdırılmasının, dayanıqlı və inklüziv texnoloji inkişafın təmin olunmasının önəmini vurğulayıblar. Qeyd edilib ki, bu təşəbbüslər yalnız texnoloji tərəqqiyə deyil, həm də insan kapitalının inkişafına, təhsil keyfiyyətinin yüksəlməsinə və regional əməkdaşlığın dərinləşməsinə töhfə verir.

Konfransın sonunda islam dünyasında süni intellekt indeksi üzrə Bakı Bəyannaməsi qəbul edilib.

Sənəddə bildirilir ki, islam dünyası süni intellektin cəmiyyətlərə və iqtisadiyyatlara dərin təsirini qəbul edir, süni intellekt indeksini rəqəmsal dövrdə ICESCO-nun təhsil, elm və mədəniyyətin inkişafı missiyasını yerinə yetirmək üçün həyati əhəmiyyətli yeni bir vasitə kimi alqışlayır, süni intellektin təhsil, səhiyyə, mədəni mühafizə, iqtisadi inkişaf və ətraf mühitin idarə olunmasını inkişaf etdirmək potensialını nəzərə alaraq, eyni zamanda, sui-istifadə, bərabərsizlik və təhlükəsizlik tədbirlərinin olmaması kimi riskləri də qəbul edir.

ICESCO-ya üzv dövlətlər və beynəlxalq tərəfdaşlar əməkdaşlığı gücləndirmək əzmini, islam dünyasının dəyərlərinin və istəklərinin beynəlxalq süni intellekt müzakirələrində təmsil olunmasını təmin etmək öhdəliyini bir daha təsdiqləyirlər. Üzv dövlətlər bəyan edirlər ki, Bakıda süni intellekt indeksinin təqdimatı islam dünyası üçün əməkdaşlığın yeni mərhələsinin əsasını qoyur.

Sənəd beynəlxalq təşkilatlarla konstruktiv əməkdaşlığı, birgə layihələrin reallaşdırılmasını təşviq edir, sülhə, inkişafa və gələcək nəsillərin rifahını təmin etmək öhdəliyini təsdiqləyir. Üzv dövlətlər bəyannamə əsasında milli süni intellekt strategiyaları hazırlayıb etik təhlükəsizlik tədbirlərini, sektor prioritetlərini və inklüziv inkişafı təmin edə biləcəklər.

Həmçinin qonaqlar konfrans çərçivəsində Heydər Əliyev Mərkəzində təqdim olunan "Mənim dənizlərim, mənim okeanlarım" ("My Seas, My Oceans") sərgisinə baxıblar. Sərgi iqlim dəyişikliyi, qlobal istiləşmə və həssas ekosistemlər dövründə planetimizin ən həyati ehtiyatlarından biri - su mənbələrinin qorunmasının vacibliyini vurğulamaq məqsədi daşıyır.





Ədəbiyyat





● Bəxtiyar Vahabzadə - 100

# Zamanla çarpışan şair

**Yaradıcı adamların hər birinin öz yeri var, öz dəst-xəti var. Onlar yazır-yaradır, əsərləri ilə insanların sevgisini qazanır və bir gün dünyadan köçəndə bu insanların yerini heç kəs əvəz edə bilmir. Belə bir həqiqət qarşısında ən böyük təsəllimiz isə odur ki, həmin şəxslərin köçünün yaratdığı boşluğu doldurmaqdan ötrü başqa birisini axtarmaq ehtiyacını da hiss etmirsən. Onlar yaratdıqları əsərlərdə yenə yaşayır, yazdıqlarını hər dəfə oxuduqca, dinlədikcə, seyr etdikcə həmin ədəbi simalarla ünsiyyət qurduğunu, bu şəxsiyyətlərin varlığını hiss edirsən.**



Belə ədəbi şəxsiyyətlərdən biri də ədəbiyyatımızın görkəmli siması, böyük şair və dramaturq, bu il anadan olmasının 100-cü ildönümü tamamlanan Bəxtiyar Vahabzadədir. Yaradıcı şəxsiyyətlərimizə daim böyük dəyər verən Prezident İlham Əliyev şairin 100 illik yubileyinin qeyd edilməsi haqqında 2025-ci il fevralın 21-də xüsusi sərəncam imzalamışdır. Sərəncamda Bəxtiyar Vahabzadə yaradıcılığına ən yüksək qiymət verilərək bildirilmişdir ki, o, mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır: "Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir".

Böyük şair 1925-ci il avqustun 16-da Şəki şəhərində anadan olmuşdur. 1934-cü ildə ailəsi ilə birlikdə Bakıya köçərək orta məktəbi burada bitirmişdir. 1942-1947-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsində oxumuş, 1947-1950-ci illərdə təhsilini aspiranturada davam etdirmiş, elə əmək fəaliyyətinə də universitetdə müəllim kimi başlamışdır.

Bəxtiyar Vahabzadə Səməd Vurğun poeziya məktəbinə daxil olan şairdir. Ədəbiyyat nəzəriyyəçiləri yazırlar ki, onun tədqiqatçı kimi ilk növbədə S.Vurğun poeziyasını öyrənməsi daha çox məhz bu yaradıclıq amili ilə izah olunur. B.Vahabzadə böyük müasirindən yalnız söz açmaqla kifayətlənməmiş, yaradıcılığını tədqiq etmiş, şair haqqında bir sıra monoqrafik əsərlər yazmışdır. Səməd Vurğunun poeziyasının sehrinə düşən tədqiqatçı yazırdı: "Mən bu ustad şairi hər dəfə oxuyanda elə bir tilsimə düşürəm ki, bu tilsimin nə adını, nə ünvanını, nə ilkini, nə də sonunu tapa bilirəm. Öz qaynağını xalq yaradıcılığı çeşməsindən götürmüş bu sənət xalqın dühası kimi zəngin və zənginliyi qədər də sadədir. Bizi çaşdıran da bu sehrli sadəlikdir. Bu sənət bizi sadəliyi, büllurluğu və sadəliyi içindəki müdrikliyi ilə sehrləyir. Əsl və böyük sənətin sirri də izaha çətin gələn bu sadəlikdə və bu sadəlik içindəki qeyri-adilikdədir".

1951-ci ildə Bəxtiyar Vahabzadə "Səməd Vurğunun lirikası" mövzusunda namizədlik dissertasiyası yazaraq uğurla müdafiə etmiş, 1964-cü ildə isə "Səməd Vurğunun həyatı və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası ilə filologiya elmləri doktoru elmi dərəcəsi almışdır. O, 1980-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2000-ci ildə AMEA-nın həqiqi üzvü seçilmişdir.

## Amalı azadlıq idi

Bədii yaradıcılığa erkən yaşlarından başlamış Bəxtiyar Vahabzadə hələ orta məktəbdə oxuduğu dövrdən ədəbi dərnəklərdə fəal iştirak edir, ədəbiyyata böyük maraq göstərirdi. Universitetin Filologiya fakültəsində təhsil aldığı illərdə Mir Cəlalın rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin fəal üzvlərindən idi.

Onun "Ana və şəkil" adlı ilk şeiri dövri mətbuatda 1943-cü ildə işıq üzü görmüşdü. "Mənim dostlarım" adlı ilk şeirlər kitabı isə 1949-cu ildə nəşr olunmuş və bu kitab ona poeziya aləmində uğur qazandırmışdır. Ötən əsrin 50-ci illərinin əvvəllərindən şairin "Bahar", "Əbədi heykəl", "Dostluq nəğməsi", "Sadə adamlar", "Ceyran", "İnsan və zaman" kitabları işıq üzü görmüş və Səməd Vurğunun vaxtsız ölümündən sonra Azərbaycan poeziyasının yeni parlayan ulduzu kimi Bəxtiyar Vahabzadə imzası artıq kifayət qədər məşhurlaşmışdı.

Şairin 1959-cu ildə yazdığı "Gülüstan" poeması bir il sonra - 1960-cı ildə "Nuxa fəhləsi" qəzetində çap edilmişdir. Poemanın dərci ədəbiyyatımız üçün də, Bəxtiyar Vahabzadənin taleyi üçün də tarixi bir hadisəyə çevrilmişdir. Əsər həm oxucular arasında, həm dövlət orqanlarında böyük əks-səda doğurmuşdu. Şair bir tərəfdən böyük xalq sevgisi qazanmış, digər tərəfdən isə ciddi təzyiqlərlə üzləşmişdi. Çünki əsərin əsas mövzusu Azərbaycan xalqının tarixi faciələrindən birinə - 1813-cü ildə imzalanmış "Gülüstan müqaviləsi" nəticəsində Azərbaycanın iki yerə bölünməsinə, xalqımızın parçalanması və milli birliyin pozulmasına həsr olunmuşdur. Bu da həmin dövr üçün ağır mövzulardan sayılırdı.

*Bir deyən olmadı, durun, ağalar!*
*Axı bu ölkənin öz sahibi var.*
*Siz nə yazırsınız bayaqdan bəri, -*
*Bəs hanı bu yurdun öz sahibləri?*

*Necə ayırdınız dırnağı ətdən-*
*Ürəyi bədəndən, canı cəsəddən?*
*Axı kim bu haqqı vermişdir sizə,*
*Sizi kim çağırmış Vətənimizə?*

Keçmiş SSRİ imperiyasının qan daman qılıncının azad düşüncəli başları kəsməyə hər an hazır olduğu əyyamda bu misraları yazmaq, həqiqətən, böyük hünər istəyirdi. Bəxtiyar Vahabzadə bu cəsarəti göstərmişdi. O, "Gülüstan müqaviləsi" ilə Azərbaycanın ikiyə bölünməsini təkcə tarixi fakt kimi deyil, həm də milli dərd, mənəvi faciə kimi canlandırırdı. O, əsərdə Azərbaycan torpaqlarının bölünməsini poetik dildə təsvir edir, birliyin vacibliyini, milli həmrəyliyi, vətən sevgisini önə çəkir, oxucunu milli yaddaşı unutmamağa, torpaq və millət sevgisini qorumağa səsləyirdi.

"Gülüstan" çap olunduqdan az sonra əsərin yayılmasına məhdudiyyət qoyulmuş, Bəxtiyar Vahabzadə ADU-dan kənarlaşdırılmış, ona "millətçi şair" damğası vurulmuş, uzun müddət mətbuatda sərt tənqidlər edilmişdi. Amma qadağa və təzyiqlərə baxmayaraq, "Gülüstan" poeması xalq arasında gizli şəkildə geniş yayılaraq milli oyanış ideyalarının formalaşmasında, Bəxtiyar Vahabzadənin həm xalqın şairi, həm də milli düşüncənin carçısı kimi tanınmasında mühüm rol oynamışdı.

Bu baxımdan Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması haqlı olaraq Azərbaycan ədəbiyyatında milli oyanışın, azadlıq düşüncəsinin ideya bünövrələrindən biri kimi qəbul olunur.

## "Yaşamaq yanmaqdır..."

Ümummilli Lider Heydər Əliyevin 1969-cu ildə ölkə rəhbərliyinə gəlişindən sonra bir çox azad ruhlu yaradıcı ziyalılarımız kimi, Bəxtiyar Vahabzadənin önündə də geniş üfüqlər açıldı. Ulu Öndər onu yeni təzyiq və təqiblərdən qorudu, ona layiq olduğu qiyməti verdi. 1974-cü ildə Bəxtiyar Vahabzadəyə "Azərbaycanın əməkdar incəsənət xadimi" fəxri adı verildi. 1976-cı ildə iki poeması Azərbaycanın Dövlət mükafatına layiq görüldü. Bəxtiyar Vahabzadə 1981-ci ildə SSRİ Yazıçılar İttifaqının VII Qurultayında ittifaqın İdarə Heyətinin üzvü seçildi. 1984-cü ildə SSRİ Dövlət mükafatı alan şair həmin il "Xalq şairi" fəxri adına layiq görüldü. 1988-ci ildə isə "Mirzə Fətəli Axundzadə" adına ədəbi mükafat və "Qırmızı əmək bayrağı" ordeni ilə təltif olundu.

1988-ci ildə Ermənistan ölkəmizə qarşı işğalçılıq müharibəsinə başlayanda, ermənilər havadarlarının əli ilə Qarabağda separatizm ocağını alovlandıranda Bəxiyar Vahabzadə bu əməllərə qarşı haqq səsini ilk ucaldan görkəmli ziyalılarımızdan oldu. O, Azərbaycan xalq hərəkatının rəhbərlərindən biri kimi xalqımızın istiqlal mübarizəsinə səfərbər edilməsində böyük rol oynadı.

B.Vahabzadə 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının üzvü seçilmiş, 1995-ci ildə "İstiqlal" ordeni ilə təltif edilmişdir. Böyük ziyalı 1991-ci ildə təşkil edilən Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının tərkibinə daxil olmuş və 1995-2005-ci illərdə Azərbaycan parlamentinə deputatı seçilmişdir.

Bəxtiyar Vahabzadə ziyalı vicdanı daim oyaq olan vətəndaş şair idi və onun poeziyası da əsasən milli azadlıq, vətən sevgisi, dil, milli kimlik, ədalət, insan ləyaqəti və s. mövzular üzərində qurulmuşdu. Nədən yazır-yazsın, Çingiz Aytmatovun təbirincə desək, Bəxtiyar Vahabzadənin şeirlərində zaman yaşayır - bizim qayğı "yükümüzə" tab gətirən, dərd-sərimizə şərik olan, qoynunda yaşadığımız zaman! Onun şeirlərinin qüdrəti də məhz bundan irəli gəlir:

*Yaşamaq yanmaqdır, yanasan gərək,*
*Həyatın mənası yalnız ondadır.*
*Şam əgər yanmırsa, yaşamır demək,*
*Onun da həyatı yanmağındadır!*

Bəxtiyar Vahabzadə ana dilimizin saflığının qorunması və inkişafı uğrunda fəal mübarizə aparmış, xalqımızın milli varlığının ifadəsi kimi ana dilimizə daim sahib çıxmış sənətkarlardandır.

Bütün söz ustaları kimi, Bəxtiyar Vahabzadə də işlətdiyi dili şeir vasitəsi olmaqdan əvvəl birinci ana dili kimi sevir: özü onunla dil açıb, dünyanın ilk mükəmməl melodiyası - mahnısı olan laylanı onda eşidib, insanlığı onunla tanıyıb.

Daha sonra Bəxtiyar Vahabzadə bu dili ona görə sevir ki, o, ulu babalarımızın yadigarıdır. Əcdadlarımızdan qalan və bütün başqa mənəvi zənginlikləri də yaşadan ən böyük mənəvi sərvətimizdir. Nəhayət, şair ana dilini bir də öz sənət cəbhəsinin silahı kimi sevib əziz tutur.

Bəxtiyar Vahabzadənin bir şair kimi özünəməxsusluğu dövrdən-dövrə, şeirdən-şeirə təkmilləşərək inkişaf etməsidir. O, yaxşı bilirdi ki, hər nəslin şeir zövqü fərqlidir. Əgər bütün oxucu nəsillərinin qəlbinə, ruhuna hakim olmaq istəyirsənsə, gərək onların istəklərini nəzərə alasan. Ona görə də görkəmli şairin gözü də, sözü də həmişə oxucunun nəbzində idi, şeirlərində solğunluqdan, qəliblərdən qaçır, həmişə təzə sözə, orijinal deyim tərzinə can atır, təzə sözə qəlbin ehtiyacı, ruhun yenilənməsi vasitəsi kimi baxırdı:

*Təzə söz, təzə ruh bir ehtiyacdır,*
*Xəyala, duyğuya, ürəyə, gözə...*

Bəxtiyar Vahabzadə sözünün qüdrəti həm də onun məhz özü kimi yazmağındadır. Bu, bəlkə də çoxlarına asan gələ bilər, amma real nümunələrdə özü kimi yazmağa müvəffəq olan az sayda yaradıcı adama təsadüf edirik. Bəxtiyar Vahabzadə isə məhz özü kimi yazır, gördüklərini qələmə alır, bədii fikrə yaşadığı, ömür sürdüyü həyatdan gəlir.

Bəxtiyar Vahabzadənin şeirləri qızğın bir ürəkdən gələn səsdir, bu şeirlərdə soyuqluğa, biganəliyə nifrət var, şair ağlayanda da "hönkür-hönkür" ağlayır, güləndə də "qəhqəhə ilə" gülür.

Şair və zaman münasibətlərində hər zaman maraqlı çalarlar diqqəti çəkir. Zamanda öndə olan, zamanın ardınca irəliləyən, zamanla uzlaşan şairlər var, Bəxtiyar Vahabzadə isə zamanla çarpışan söz adamlarındandır. O, bütün yaradıcılığı boyu zamanla üz-üzə durur, dünyanın gərdişinə etiraz səslərini ucaldır, insanlığın taleyüklü dərdlərinə çarə aramağa çalışır. Bəxtiyar Vahabzadə yaradıcılığı üçün tərif xarakterik deyil, o yalnız ruhunun ülviləşdirdiyi duyğulardan, Üzeyir bəy, Sabir, Nizami, Füzuli, Mirzə Cəlil, Dədə Qorqud dühasından danışanda şeirlərinin dilini təriflə bəzəyir.

## Narahat vicdanın sədası

Bəxtiyar Vahabzadə poeziyası narahat vicdanın sədasıdır, şeirlərində şairin qəlbi daim müstəqilliyə, azadlığa, insan mənəviyyatının üst zirvələrinə can atır, təşvişi heç vaxt tükənmir, ən çox da özünə qarşı tələbkar olur, olub-keçənləri haqqın dəyirmanında üyüdüb misralara çevirir.

*Mən haqq-hesab istəyirəm*
*Gecələr gündüzümdən.*
*Narahatam, narazıyam*
*Ömrüm boyu özümdən.*

*Bizim sənət dünyasının*
*Qırıq telli sazıyam.*
*Bircə ondan razıyam ki,*
*Özümdən narazıyam.*

Bəxtiyar Vahabzadə əqidəli bir insan və şair idi. Özünün tərzində ifadə etsək, o, həyat yollarından əqidəsi ilə keçmişdi və ən böyük arzularından biri də ömrün əvvəlindən sonuna doğru irəlilədiyi bu yolda özünü başqalarının nəzəri ilə görmək idi...

## Ədəbiyyatımızın Bəxtiyar zirvəsi

Bəxtiyar Vahabzadə üçün insan həyatının mənası yaxşı əməllərdədir, ömrü özü qədər başqaları üçün də faydalı yaşamaqdadır, dünyada yaxşı bir iz qoymaqdan, naqisliklərdən uzaq durmaqdadır. Onda insan ona əta olunmuş ömrü həqiqətən yaşamış olacaq.

*Bir ev tikmisənsə, kərpiclərində...*
*Yaşar əllərinin istisi sənsiz.*
*Bir arx çəkmisənsə bu dünyada sən,*
*Suyun nəğməsində səslənəcəksən.*

Şairin poeziyası klassiklərimizin, folklorumuzun hikmətləri kimi müdrik aforizmlərlə zəngindir və bu da Bəxtiyar Vahabzadə poeziyasının daha bir özünəməxsusluğudur.

O, dramaturgiya fəaliyyəti ilə də ədəbiyyat tariximizə gözəl incilər bəxş edib. Onun "İkinci səs", "Vicdan", "Özümüzü kəsən qılınc" kimi pyesləri Azərbaycan teatrında mühüm hadisələrdən sayılır. Ayrı-ayrı şeirlərində olduğu kimi, dram əsərlərində də insanın mənəvi dünyasını, sosial ədalətsizlikləri, milli problemləri bədii şəkildə təqdim edir.

Bəxtiyar Vahabzadə ədəbiyyatşünas alim kimi də klassik ədəbiyyat və müasir poeziya ilə bağlı çoxsaylı elmi məqalələrin, monoqrafiyaların müəllifidir.

Görkəmli şairin, azadlıq mübarizinin 100 illik yubileyinə ən böyük töhfə onun varlığını sızladan, nisgilli misralarında oxucunu göynədən dərdimizin - Azərbaycanın ərazi bütövlüyü, suverenliyi məsələsinin şükürlər ki, artıq öz həllini tapmasıdır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun torpaqlarımızı düşmən tapdağından azad etməsidir, Qarabağda, Şərqi Zəngəzurda möhtəşəm quruculuq işlərinin davam etməsi, doğma yurdlara böyük köçün başlanmasıdır.

Bütün bunlar Azərbaycanın indiki günlərini görə bilmədən dünyadan köçmüş başqa böyük şəxsiyyətlərimiz kimi, Bəxtiyar Vahabzadənin də gerçəkləşən arzularıdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

### ÖZÜMDƏN NARAZIYAM

Təbiətin könül açan
Min rəngi, min səsi var.
Hər könülün min arzusu,
Min səsli nəğməsi var.
Bu arzular, bu nəğmələr,
Bu səslər bir saz kimi
Mənim solğun sözlərimdə
Heç dil aça bildimi?
Hissim dərin, sözüm solğun,
Qəlbim geniş, sinəm dar.
Məndən əvvəl doğulubdur
Sinəmdəki duyğular.
Səhv atılan addımları
Sonradan anlayıram.
Baxıb vicdan güzgüsünə
Özümü danlayıram.
Six ey yanlış addımlarım,
Məni dərdə saldınız.
Mən sizinlə döyüşdükcə,
Gün-gündən çoxaldınız.
Mən haqq-hesab istəyirəm
Gecələr gündüzümdən.
Narahatam, narazıyam
Ömrüm boyu özümdən.
Bizim sənət dünyasının
Qırıq telli sazıyam.
Bircə ondan razıyam ki,
Özümdən narazıyam.

### ANA HƏDİYYƏSİ

Anam namaz üstə əl açıb göyə
Allaha yalvarır "ya rəbbim! - deyə:
- Sənsən xəlq eliyən göyləri, yeri,
Candan şirin olur bala, ay Allah.
Sən mənim ömrümdən kəsib illəri,
Balamın ömrünə cala, ay Allah!
Bu nədir? Arzuya, diləyə bir bax,
Gör bir nələr keçir ana qəlbindən?
Çoxdur bu dünyada hədiyyə... ancaq
Ömürdən hədiyyə görməmişəm mən.
İstərəm, bir ana, bir bala sözü
Lüğətdə sözlərin önündə gedə.
Uca olduğundan ananın özü
Ucadır, böyükdür hədiyyəsi də.
Çoxdur hədiyyələr insan adına:
Qiymətli ziynətlər, qiymətli daşlar.
Ana həyat verir öz övladına,
Həm də öz ömründən ömür bağışlar.

### MƏNİM ŞEİRİM

Əbədi bir od kimi öz içindən közərib
Hey yanır şeirim mənim.
Bu günümdən sabaha
boylanır şeirim mənim.
Gəzib dildə, dodaqda,
Uçur, uçur həmişə özümdən də qabaqda.
İdrakımın gözləri,
Əqidəmin ən təmiz, ən mənalı sözləri,
Duyan ürəyi şeirim,
Bütün diləklərimin ən saf diləyi şeirim.
Sən ayın, ulduzların nurundan yoğrulmusan,
Batan gecələrimin açılan səhərlərə
salamı sən olmusan.
İstərəm sətirlərin bu günümdən səs alan
əks-sədaya dönsün.
Əsrimizin nəbzi də ahəngində döyünsün.
İstəmirəm ki, şeirim nərmənazik qızların
saçında ətir olsun.
İstərəm gün altında pambıq yığan qızların
başında çətir olsun.
Can vermə hər ötərgi dərd-qəmə, şeirim mənim,
Əzmə-büzmə gözələ bənzəmə, şeirim mənim.
Sən atəş ol, sən od ol,
yandır da sən, yax da sən.
İldırım ol, çax da sən.
Göstər öz işığında bu dünyaya özünü,
Bir an yumma gözünü,
Həm gör sən, həm də göstər!
Fərəhləri fərəhdə, qəmi də qəmdə göstər.
Demirəm ki, zərrəni geniş kürrədə göstər.
Qüdrətin varsa sənin,
Sən bu boyda kürrəni kiçik zərrədə göstər.
Sən düşün dərin-dərin, düşündür dərin-dərin,
Vətənini, elini danan tüfeylilərin
Vətənçin yox,
manatçın yanan tüfeylilərin
yumruğa dön başında.
Keşikçi ol bu yurdun torpağında, daşında.
Vüqarı ol, əzmi ol əyilməyən başların,
Qəlbində mərmiyə dön əsl vətəndaşların.
Sonsuz düşüncələrim,
Bu dünyaya sualım,
Hər istəyim, xəyalım,
Eşqim, həsrətim mənim,
İlk məhəbbətim mənim,
Hədsiz şadlığım mənim,
Bu dünyada əbədi narahatlığım mənim.
Sənə qurban verməyə bir ömür çox azdır, az.
Yalnız bircə günümün sonsuz həyəcanını
Nəğməyə çevirməyə on ömür də çatışmaz.
Mən səninçin,
Anamsa mənimçin yandı, şeirim.
"Balamın rahatlığı yoxdur" - deyə o məni
sənə qısqandı, şeirim.
Ancaq o bilmədi ki, mən anamdan doğuldum,
Sənsə mənim qəlbimdə balamtək bəslədiyim
Duyğulardan doğuldun.
Məni anamdan alıb Vətənimə, xalqıma
Oğul edən sən oldun!

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin ifadələri dinlənilib





Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 8-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Ardınca zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş Nuran Qasımov ifadəsində Laçında düşmənin ərazilərimizə hücumu nəticəsində ayağından xəsarət aldığını söyləyib. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında hadisə zamanı ondan başqa yaralananların olduğunu da deyib.

Zərərçəkmiş Əlimuxtar İbrahimov ifadəsində özündən əvvəl ifadə vermiş N.Qasımovla birlikdə xəsarət aldığını bildirib. O, dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında diqqətə çatdırıb ki, həmin vaxt ondan başqa da bir neçə şəxs xəsarət alıb.

Zərərçəkmiş Pənah Əliyev ifadəsində Laçında düşmən təxribatı nəticəsində başından xəsarət aldığını deyib. O, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavabında hadisə zamanı bir neçə şəxsin müxtəlif dərəcəli bədən xəsarətləri aldığını bildirib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş Əsgər Bəylərov Laçında düşmən təxribatı nəticəsində qapalı kəllə-beyin travması aldığını söyləyib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş Ülvi Rəhimov Laçında düşmənin hücumu nəticəsində qolundan yaralandığını söyləyib.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş Elvin Səlimov Laçında düşmənin ərazilərimizə hücumu zamanı baş nahiyəsindən və əlindən xəsarətlər aldığını söyləyib.

Zərərçəkmiş Samir Məmmədov da Laçında düşmən təxribatı nəticəsində yaralandığını deyib.

Məhkəmə prosesi digər zərərçəkmiş şəxslərin ifadələrinin elan olunması ilə davam etdirilib. Belə ki, iş üzrə zərərçəkmiş şəxs qismində tanınmış bir qrup şəxs əvvəlki proseslərdə məhkəməyə müraciət ünvanlayaraq iclaslarda üzrlü səbəbdən iştirak edə bilmədiklərini, ibtidai istintaq zamanı verdikləri ifadələrini təsdiqlədiklərini bildirən ərizələr göndəriblər. Ötən məhkəmə iclaslarında tərəflər həmin ifadələrin məhkəmədə elan olunmasına etiraz etməyiblər.

Sənədlərin elan olunması zamanı təqsirləndirilən şəxs Ruben Vardanyan vəsatətlə çıxış edib. O, cinayət işi ilə bağlı bəzi sənədlərlə, o cümlədən sorğularla tanış olmaq istədiyini söyləyib.

R.Vardanyanın müdafiəçisi Emil Babışov vəsatətin təmin olunmasını məhkəmədən xahiş edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətə münasibət bildirərək deyib ki, ittiham tərəfi təqsirləndirilən şəxsin müdafiəçisinin və ya onun özünün sözügedən sənədlərlə tanış olmasına etiraz etmir.

Məhkəməyə sədrlik edən Z.Ağayev vəsatətlə bağlı bildirib ki, müdafiə tərəfi bu həftə ərzində həmin sənədlərlə tanış ola bilər və onlara buna dair zəruri şərait yaradılacaq.

Məhkəmənin növbəti iclası dekabrın 9-na təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# Antarktidanın ən yüksək zirvəsinə qalxan azərbaycanlı: "Əlcəkləri çıxaran kimi barmaqlarım donmağa başladı"

**Antarktidanın ən yüksək zirvəsi olan Vinson dağını (4892 metr) fəth edən azərbaycanlı alpinist Elmira Aslanova AZƏRTAC-a müsahibə verib.**

*- Vinson zirvəsinə qalxmaq ideyası sizdə necə formalaşdı və nə vaxtdan bunu planlaşdırırdınız?*

- Vinson dağı "7 Zirvə" layihəsinə daxildir. Bu layihə mənim arzumdur və buna doğru irəliləyirəm. Bu, Everestdən sonra planlaşdırdığım növbəti layihə idi və ümid edirəm ki, gələn il proqramın hamısını yerinə yetirə biləcəyəm.

*- Ekspedisiya neçə gün baş tutdu?*

- Noyabrın 26-dan dekabrın 3-dək davam etdi.

*- Zirvəyə qalxma və enmə nə qədər vaxt apardı?*

- Zirvəyə çıxmaq 1 gün çəkir. Orta hesabla qalxma 7, enmə isə təxminən 3 saat olur.

*- Səfər zamanı qarşılaşdığınız ən ciddi və gözlənilməz çətinlik nə oldu?*

- Dağdakı çətinlik elə bir yerdə ortaya çıxdı ki, ümumiyyətlə, orada belə bir şey gözləmirdim. Zirvəyə çatmağa təxminən 1,5 saat qalmış eynəyimin kənar hissəsi qopub düşdü. Mən onu düzəltmək üçün isti əlcəklərimi çıxartdım. Əlavə nazik əlcəklər olsa da, barmaqlarım dərhal donmağa başladı. Bunu görən bələdçim əlcəkləri yenidən geyinməyi əmr etdi və dedi ki, əgər barmaqlarım donmağa başlasa, məni dərhal aşağı göndərəcək. Buna inana bilmirdim.



*- Sonra nə baş verdi?*

- Növbəti dəfə eynəyimin donmuş şüşəsini təmizləmək üçün əlcəyimi çıxaranda bələdçi dərhal rabitə ilə nəzarətçilərə xəbər verdi ki, məni aşağı endirsinlər. Şokda idim. Çünki hədəflədiyimiz yerə cəmi 1,5 saat qalmışdı. Nə qədər çalışsam da, bələdçi buna icazə vermədi. Dedi ki, zirvə ən vacib olan deyil, inan mənə, istəmirəm ki, zirvədə barmaqların donsun. Mən isə "aşağı bir şərtlə düşərəm ki, sabah yenidən şans verəcəksiniz" söylədim. Bələdçi müxtəlif variantlar olacağını bildirdi. Məni nəzarətçi ilə birlikdə aşağı göndərdilər. İnana bilmirdim. Çünki o qədər yol getsəm də, zirvəyə çata bilməmişdim.

Düşərgəyə qayıdanda dedim ki, sabah yenidən çıxmaq istəyirəm. Nəzarətçilər isə bildirdilər ki, bu mümkün deyil və onların təcrübəsində belə hal ilk dəfə yaşanır. Çünki mən demək olar zirvəyə çatmışdım və onların fikrincə, ertəsi gün yenidən yola çıxmağa gücüm olmayacaqdı. Mən isə israr etməyə və yalvarmağa başladım.

*- Nəticədə sizə icazə verdilər...*

- Dedilər ki, rəhbərliklə danışmalıdırlar və səhər mənə cavab verəcəklər. O gecə yata bilmədim. Bir tərəfdən anlayırdım ki, güc toplamaq üçün yatmaq lazımdır, amma ikinci şans ala bilməmək fikri yuxumu tamam qaçırırdı. Səhər isə mənə bələdçi Tom və nəzarətçi ilə birlikdə yola çıxacağımı dedilər. Onların məqsədi yolda olan göstəriciləri yeniləmək idi. Yenidən şans verdiklərinə görə çox sevindim. Tom məni dəstəklədi və zirvəyə çatacağıma inandığını söylədi. Nəticədə mən zirvəni fəth etdim və buna görə çox xoşbəxtəm.

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən
rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Ermənistandakı Azərbaycan mədəni irsinin bərpası və qorunması Azərbaycan xalqının legitim tələbidir
İlham Əliyevin enerji siyasəti
Bu il Zəfər tariximizin adını daşıyan müstəqillik dövrünün ən iri elektrik stansiyası istifadəyə verildi
Azərbaycan sözünə, imzasına sadiq olan ölkədir
"Mədəni irs və qayıdış hüququ" mövzusunda beynəlxalq konfrans keçirilib
Ordu quruculuğu prosesi Zəfərə hesablanmışdır
Qətiyyətli siyasətin diktəsi

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 10.12.25-ci il tarixi saat 22:30-dan etibarən 11.12.2025-ci il saat 08:00-dək bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.


# ABŞ Konqresi rekord müdafiə büdcəsini nəzərdən keçirəcək

**ABŞ-nin 2026-cı il üçün müdafiə büdcəsinə dair qanun layihəsinin güzəşt olunmuş versiyasına Prezident Donald Trampın tələbindən 8 milyard dollar çox olan 901 milyard dollarlıq təhlükəsizlik ayırmaları daxildir. Layihədə Ukraynaya yardım üçün 800 milyon dollar ayrılması nəzərdə tutulur.**



"Politico" xəbər verir ki, sənədin dərc olunmuş versiyası D.Trampın Avropadakı ABŞ hərbi qüvvələrinin sayının azaldılmasına yeni məhdudiyyətlər tətbiq etməklə Avropa ölkələrindən qoşunların çıxarılması planlarını da bloklayır. Hərbi texnikanın alınması, habelə Rusiya və Çinin silahlanması qarşısında müdafiə qabiliyyətini artırmaq üçün tədbirlərə dair adi müddəalardan əlavə, hazırkı qanun layihəsi Trampın ixtisar etmək istədiyi proqramların azaldılmasına yönəlib. Buraya müxtəliflik, bərabərlik və inklüzivlik təşəbbüslərinin məhdudlaşdırılması, eləcə də qanunsuz immiqrantların deportasiyası və narkotik qaçaqmalçılığının qarşısının alınması üçün ABŞ-nin cənub-qərb sərhədinə qoşunların yerləşdirilməsi tədbirləri daxildir.

Qanun layihəsi ABŞ Prezidentinin 10-dan çox icra sərəncamını, o cümlədən ABŞ-də hərbi dronların istehsalını sürətləndirmək, hava və raket hücumundan müdafiə sistemini "Qızıl Günbəz" raketəleyhinə qalxanına çevirmək və cənub sərhədində patrul xidməti üçün qoşunların istifadəsinə icazə verən sərəncamları sistemləşdirir. Sənəd həmçinin 1991-ci və 2002-ci illərdə İraqda hərbi qüvvənin istifadəsinə icazə verən iki qətnaməni ləğv edir. Qanun layihəsinin son versiyası ABŞ-nin Suriyaya qarşı sanksiyalarının qəti şəkildə ləğvini də təsbit edir.

Qanun layihəsi silahlı qüvvələrin bütün qolları üçün hərbi ödənişlərin 3,8 faiz artırılmasını nəzərdə tutur. Lakin qanunvericilər Müdafiə Nazirliyinin adını Donald Tramp və müdafiə naziri Pit Heqsetin dediyi kimi, Müharibə Nazirliyi adlandırmayıblar. Mətn boyunca Müdafiə Nazirliyi və müdafiə naziri kimi müəyyən edilmiş terminlər saxlanılıb.

Qanun layihəsi Pentaqonun silah tədarükü prosedurlarını dəyişdirir və silahlı qüvvələri müxtəlif materiallar, məhsullar və xidmətlərlə təmin edən dövlət və özəl təşkilatlar şəbəkəsini gücləndirməyi hədəfləyir. Mətndə ABŞ-nin Çində müəyyən texnologiyalara investisiya qoyuluşuna yeni məhdudiyyətlər daxildir. "The New York Times" qəzetinin yazdığı kimi, bu müddəa süni intellekt və hərbi texnologiya da daxil olmaqla Çinin texnoloji inkişafına Amerika kapitalının axınını məhdudlaşdırmaq cəhdidir. Nümayəndələr Palatasının Silahlı Qüvvələr Komitəsinin sədri Mayk Rocersin sözlərinə görə, qanun layihəsi "mühüm müharibə qabiliyyətlərini inkişaf etdirməyi" hədəfləyir.

Təxminən 3000 səhifəlik qanun layihəsi üzrə səsvermə bu həftə başlayacaq. Qanunvericilər sənədi bu ilin sonuna qədər imzalanması üçün Prezidentə təqdim etmək niyyətindədirlər. "The New York Times" qəzetinin yazdığı kimi, müdafiə xərclərinin artmasına Konqresin Respublikaçılar tərəfindən idarə edilən hər iki palatası arasında kiçik, lakin nadir hallarda baş verən fikir ayrılığı səbəb olub.

Bildirilir ki, dərc olunmuş sənəd əvvəllər Senat və Nümayəndələr Palatası tərəfindən qəbul edilmiş milli müdafiə qanun layihəsinin versiyaları arasında bir kompromisdir. Qanun layihəsinin son versiyası hər iki partiyanın Nümayəndələr Palatası və Senat rəhbərliyi, Silahlı Qüvvələr Komitələrinin rəhbərləri və Ağ Ev arasında bir neçə həftəlik danışıqların nəticəsidir.

Xatırladaq ki, may ayında Donald Tramp Konqresdən 2026-cı maliyyə ili (2025-ci ilin oktyabrından 2026-cı ilin sentyabrına qədər) üçün 892,6 milyard dollarlıq müdafiə büdcəsinin qəbul edilməsini istəyib. Nümayəndələr Palatası ilkin qanun layihəsində xərcləri bu səviyyədə müəyyən edib, lakin Senat mümkün xərc səviyyəsini 925 milyard dollar olaraq təsdiqləyib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Ölkə ərazisində havanın yağıntılı olacağı gözlənilir



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, dekabrın 9-da Bakının və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Axşam ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli olacağı ehtimalı var. Gündüz yağıntıda qısa müddətə fasilə olacaq. Mülayim şimal, şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-10, gündüz 10-13 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan, 768 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 80-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının leysan xarakterli intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Arabir güclənən şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-6, gündüz 9-13 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacağı ehtimal edilir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4131
Sifariş 2497

Qiyməti 60 qəpik